RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 79 (10099) 7 may 2026-cı il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Hadisələri qabaqlamaq məharəti

Hər hansı bir hadisə baş verəndə onun qarşısını almaq, törətdiyi və törədə biləcəyi təhlükələri zərərsizləşdirmək xüsusi bacarıq tələb edir.

Hadisə qəflətən, gözlənilmədən olanda, onunla mübarizə aparmaq müəyyən problem və çətinliklər də doğurur.

Lakin baş verəcəyini irəlicədən biləndə və nəzərə alanda vəziyyətdən daha uğurla çıxmaq olur.

Siyasətdə də belədir.

Hadisələrin gedişindən baş çıxarmaq, onun nəticəsində yarana biləcək situasiyanı irəlicədən müəyyən etmək, bütün variantları nəzərə alaraq qabaqlayıcı tədbirlər görmək son dərəcə vacibdir!

Cənab İlham Əliyevin irəli sürdüyü "Nəyi nə vaxt və necə etmək" tezisi də, əslində, hadisələri irəlicədən görərək onları qabaqlamaq məharətinə söykənir!

Təəssüf ki, uzun illər boyu Azərbaycan "fakt qarşısında qalmaq", "baş verənlərə tabe olmaq" məcburiyyətində qalmışdı.

Ermənilər vətəndaşı olduqları Türkiyəyə xəyanət edərək müharibə aparan dövlətlərinə arxadan bıçaq vurdular.

Türkiyə öz təhlükəsizliyini təmin etmək üçün hayların mütəşəkkil şəkildə köçürülməsi qərarını verdi.

Bu halda çar Rusiyası "din qardaşlar"ına sahib çıxaraq onları Azərbaycan ərazisində yerləşdirməyə başladı.

Əslində, burada başqa gizli niyyətlər də vardı:

Əvvəla, Türkiyəyə qarşı platsdarm yaradılırdı və sonradan Rusiyanın burada yerləşdirilən 102-ci hərbi bazası deyilənlərin sübutuna çevrildi.

İkincisi, yeni "dövlət" türk dövlətlərini bir-biriləri ilə birləşdirən quru yol əlaqəsini kəsməklə onları ayrı salırdı, birbaşa ticari və digər əlaqələrini pozurdu.

Sovet Rusiyası da çar Rusiyasının bu siyasətini "uğurla", amma başqa pərdə altında davam etdirməyə başladı.

Hədəf Azərbaycan torpaqları hesabına Sovet Ermənistanının ərazisini genişləndirmək, onu gücləndirmək, əhalisinin baş sayını artırmaq idi.

Bu niyyətlə Azərbaycanın sərhədləri daxilində DQMV adlı qurum da yaratdı.

5

## Azərbaycanla İslam İnkişaf Bankı arasında uzun illərdir səmərəli əməkdaşlıq qurulub



### Prezident İlham Əliyev İslam İnkişaf Bankı Qrupunun sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 6-da İslam İnkişaf Bankı Qrupunun sədri Məhəmməd Əl-Casirin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı dövlətimizin başçısının Məhəmməd Əl-Casirlə görüşləri məmnunluqla xatırlandı, onun ölkəmizə səfərlərinin tərəfdaşlığın genişləndirilməsi işinə töhfə verdiyi bildirildi.

Azərbaycanla İslam İnkişaf Bankı arasında uzun illərdir səmərəli əməkdaşlığın qurulduğu vurğulandı.

Bankın ölkəmizdə iqtisadiyyatın müxtəlif istiqamətlərində, həmçinin enerji, o cümlədən "yaşıl enerji", kənd təsərrüfatı, su və irriqasiya sistemləri, infrastruktur və sosial sahələrdə bir sıra layihələr həyata keçirdiyi qeyd edildi. Bu xüsusda vurğulandı ki, 20-yə yaxın dövlət və özəl layihənin icrası üçün bank tərəfindən 1,2 milyard ABŞ dollarından çox vəsait ayrılıb.

Görüşdə bankın bu ilin iyununda Bakıda keçiriləcək İllik toplantılarına hazırlıq məsələləri müzakirə olundu.

Qonaq Ələt Azad İqtisadi Zonası ilə tanış olacağını, həmçinin Qarabağa səfər edəcəyini bildirdi.

Söhbət zamanı ölkəmizlə bank arasında əməkdaşlığın mövcud vəziyyəti və perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

## Prezident İlham Əliyev və Ukrayna Prezidenti Volodimir Zelenski arasında telefon danışığı olub



**Mayın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ukrayna Prezidenti Volodimir Zelenski arasında telefon danışığı olub.**

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Prezidenti "X" sosial media hesabında paylaşım edib.

Paylaşımda deyilir: "Bu gün Ukrayna Prezidenti Volodimir Zelenski mənə zəng edib. Telefon söhbəti zamanı ölkələrimiz arasında münasibətlərin inkişafında müsbət dinamikadan məmnunluq ifadə olunub. Biz həmçinin Qəbələdə keçirilən görüşdə müzakirə edilən məsələlərin ikitərəfli gündəlik çərçivəsində reallaşdırılması ilə bağlı fikir mübadiləsi apardıq".




## Azərbaycanın mədəniyyət zirvəsi

### Zəfər rəmzimiz Şuşa bu gün regionun mühüm siyasi və mədəni mərkəzinə çevrilərək özünün yeni intibah dövrünü yaşayır

11

## Bakı-Roma əməkdaşlığı Avropanın enerji təhlükəsizliyini formalaşdıran mühüm vasitədir



İtaliya Avropa İttifaqı daxilində Azərbaycanın mövqeyini və ərazi bütövlüyünü ən yaxşı anlayan və dəstəkləyən ölkələrdən biridir. Bəzi Avropa İttifaqı ölkələrinin birtərəfli region siyasətindən fərqli olaraq, Roma Bakı ilə praqmatik, qarşılıqlı hörmətə əsaslanan dialoqa üstünlük verir. Eyni zamanda Azərbaycan üçün İtaliya Avropa institutlarında və beynəlxalq platformalarda öz həqiqətlərini çatdırmaq və əməkdaşlığı gücləndirmək üçün etibarlı və nüfuzlu bir "qapı" rolunu oynayır. Yəni bir sözlə, Meloninin bu səfəri regional təhlükəsizlik və qlobal enerji böhranları fonunda Bakı və Roma arasındakı ittifaqın, sadəcə, iqtisadi asılılıq deyil, həm də Avropanın enerji təhlükəsizliyini formalaşdıran mühüm siyasi vasitə olduğunu təsdiqləyir.

10

## Azərbaycan Pakistanda daşqınlardan zərərçəkənlərə humanitar yardım göstərib



14

## Makron rəsmi Bakının tezislərini təkrarlayır

### Fransa rəhbərinin etirafları və Ermənistanın "proksi dövlət" reallığını dilə gətirməsi Azərbaycan liderinin strateji uzaqgörənliyini bir daha təsdiqləyir

Fransanın həm Ermənistanı açıq şəkildə silahlandırması, həm də "vasitəçi" olmaq iddiası siyasi və diplomatik paradoks təşkil edir. Beynəlxalq praktikada vasitəçilik missiyasını üzərinə götürən tərəf hər iki tərəfə eyni məsafədə durmalı və neytral hakim statusunu qorumalıdır. Lakin bir tərəfi silahlandıran dövlət, digər tərəflə danışıqlar masasında ədalətli ola bilməz. Ən əsası isə Azərbaycan Prezidenti İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, regionda artıq üçüncü tərəflərə ehtiyac yoxdur. Bakı-İrəvan arasında birbaşa təmaslar və dialoq kanalları artıq işlək vəziyyətdədir və bu, kənar manipulyasiya riskini minimuma endirir. İndiki halda Fransanın vasitəçiliyi sülhə yox, gərginliyə xidmət edir. Parisin bu cür fəaliyyəti, əslində, regionda stabilliyi pozan amillərdir.

Paris İrəvana "yanında olduğunu" desə də, reallıqda bu "dəstək" Ermənistana 2020-ci ildə heç bir praktiki üstünlük qazandırmadı. Deməli, Paris Ermənistana, sadəcə, illüziya və boş ümidlər satır. Azərbaycan beynəlxalq hüquqa söykənərək öz ərazi bütövlüyünü bərpa edib və regionda yeni reallıq yaradıb.

11

# Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202 (Cild I); 2024, № 1, maddə 18, № 2, maddə 135, № 4, maddə 362, № 5 (I kitab), maddələr 487, 489, 492, 503, № 7, maddələr 750, 768, 771, 772, № 12 (I kitab), maddə 1280, (II kitab), maddələr 1330, 1350; 2025, № 1, maddələr 1, 15, №2, maddə 99, № 3, maddə 217, № 4 (I kitab), maddələr 305, 311, № 5, maddələr 434, 440, № 6, maddə 529, № 7, maddələr 607, 619, 626, № 8, maddələr 736, 741; 2026, № 1, maddələr 18, 19; Azərbaycan Respublikasının 2026-cı il 20 fevral tarixli 358-VIIQD nömrəli və 3 mart tarixli 374-VIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 38.6-cı maddədən "(bu Məcəllənin 122.1-ci maddəsində nəzərdə tutulmuş inzibati tənbeh vermə haqqında elektron qərara münasibətdə isə həmçinin onun əlavəsi (foto və ya video materiallar)" sözləri çıxarılsın və həmin maddəyə ikinci halda "qərar" sözündən sonra "tərtib olunduğu vaxtdan (bu Məcəllənin 122.1-ci maddəsində nəzərdə tutulmuş inzibati tənbeh vermə haqqında elektron qərar və onun əlavəsi (foto və ya video materiallar) isə inzibati xətanın törədildiyi vaxtdan)" sözləri əlavə edilsin.

2. 43.1-ci maddədən "410.3," və "445-1," rəqəmləri çıxarılsın və həmin maddədə "525-535" rəqəmləri "523-1, 525, 526?528-2, 528-3.2, 528-3.6, 528-3.7, 529-535" rəqəmləri ilə əvəz edilsin.

3. 45-1-ci maddə üzrə:

3.1. 45-1.1-ci maddədə "nəzarətin həyata keçirilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi (bundan sonra - "İCMAL" informasiya sistemi) yaradılır" sözləri "nəzarət müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) "Rəqəmsal dövlət maliyyəsi" informasiya sisteminin "İnzibati cərimələrin mərkəzi avtomatlaşdırılmış lövhəsi" altsistemi (bundan sonra - "Rəqəmsal dövlət maliyyəsi" informasiya sisteminin "İCMAL" altsistemi) vasitəsilə həyata keçirilir" sözləri ilə əvəz edilsin;

3.2. 45-1.2 - 45-1.4-cü maddələrdə ismin müvafiq hallarında "İCMAL" informasiya sistemi" sözləri ismin müvafiq hallarında "Rəqəmsal dövlət maliyyəsi" informasiya sisteminin "İCMAL" altsistemi" sözləri ilə əvəz edilsin.

4. 45-2-ci maddənin adında, 45-2.1-ci maddənin birinci və ikinci cümlələrində, 45-2.2-ci maddədə, 45-2.3-cü maddənin birinci və ikinci cümlələrində, 45-2.5-ci maddədə, 54.4-1-ci maddənin ikinci və üçüncü cümlələrində ismin müvafiq hallarında "İCMAL" informasiya sistemi" sözləri ismin müvafiq hallarında "Rəqəmsal dövlət maliyyəsi" informasiya sisteminin "İCMAL" altsistemi" sözləri ilə əvəz edilsin.

5. 54.2-ci maddənin birinci cümləsindən "410.3," və "445-1," rəqəmləri çıxarılsın.

6. 57-ci maddə üzrə:

6.1. 57.1-ci maddənin birinci cümləsinə "çatdırılır" sözündən sonra "(bu Məcəllənin 57.6-cı maddəsinin müddəaları nəzərə alınmaqla)" sözləri əlavə edilsin;

6.2. 57.5-ci və 57.5-1-ci maddələrin birinci abzaslarında "hallarda" sözü "vaxtdan" sözü ilə əvəz edilsin;

6.3. 57.6-cı maddənin birinci abzası aşağıdakı redaksiyada verilsin:

"57.6. Bu Məcəllənin 122.1-ci maddəsində nəzərdə tutulan inzibati xəta haqqında iş üzrə elektron qərar, habelə bu Məcəllənin 124.4-1-ci maddəsində qeyd olunan yuxarı səlahiyyətli orqan tərəfindən qəbul edilmiş inzibati xəta haqqında iş üzrə qərar və bu Məcəllənin 124.5-ci və 124.6-cı maddələrində nəzərdə tutulmuş qaydada tərtib olunan inzibati tənbeh vermə haqqında qərar nəqliyyat vasitəsinin istifadəçisi (əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər istisna olmaqla) üçün internet informasiya ehtiyatında yaradılmış elektron kabinetə yerləşdirilməklə rəsmi qaydada verilir. Həmin qərarlar aşağıdakı vaxtdan rəsmi qaydada verilmiş hesab edilir:";

6.4. 57.6.3-cü və 57.6.4-cü maddələr müvafiq olaraq 57.6.4-cü və 57.6.5-ci maddələr hesab edilsin və aşağıdakı məzmunda 57.6.3-cü maddə əlavə edilsin:

"57.6.3. bu Məcəllənin 57.5-1.1-ci və 57.5-1.2-ci maddələrində nəzərdə tutulmuş vaxtdan;";

6.5. 57.6.4-cü və 57.6.5-ci maddələrə "üzrə" sözündən sonra "qərar və ya" sözləri əlavə edilsin;

6.6. aşağıdakı məzmunda 57.6-1-ci maddə əlavə edilsin:

"57.6-1. Səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən bilavasitə aşkar edilən yol hərəkəti qaydaları, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və avtomobil yollarından istifadə qaydaları əleyhinə olan inzibati xətalar üzrə inzibati tənbeh tətbiq etmə haqqında qərarın və ya inzibati xəta haqqında protokolun kağız daşıyıcıda surəti yerində barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsə təqdim edilməsi yolu ilə rəsmi qaydada verilir.".

7. 57-1-ci maddə üzrə:

7.1. 57-1.1.3-cü maddəyə "göndərilir" sözündən sonra "(bu Məcəllənin 57.6-cı maddəsinin müddəaları nəzərə alınmaqla)" sözləri əlavə edilsin;

7.2. 57-1.2-ci maddənin ikinci cümləsində və 57-1.3-cü maddədə"İCMAL" informasiya sisteminə" sözləri "Rəqəmsal dövlət maliyyəsi" informasiya sisteminin "İCMAL" altsisteminə" sözləri ilə əvəz edilsin.

8. 63-cü maddə üzrə:

8.1. 63.1-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Qanunla nəzərdə tutulmuş əməllə təmsil edilən şəxsə mənəvi, fiziki və ya maddi ziyan vurması istinad edilən şəxs həmin şəxsin qanuni nümayəndəsi qismində inzibati xətalar haqqında işlər üzrə icraatın iştirakçısı ola bilməz.";

8.2. 63.3-cü maddənin birinci cümləsində "maddəsində" sözü "maddəsinin birinci cümləsində" sözləri ilə əvəz edilsin.

9. 97-ci maddə üzrə:

9.1. 97.3-cü maddə üzrə:

9.1.1. birinci cümlədə "inzibati cəriməni (müvafiq olaraq hesablanmış dəbbə pulu daxil olmaqla) və" sözləri "müvafiq olaraq inzibati cəriməni (hesablanmış dəbbə pulu daxil olmaqla), habelə" sözləri ilə əvəz edilsin;

9.1.2. ikinci cümlə aşağıdakı redaksiyada verilsin:

"Bu Məcəllənin 97.2-ci maddəsinə uyğun olaraq saxlanılmış nəqliyyat vasitəsi sahibinə qaytarıldıqda, ona müvafiq inzibati xəta haqqında protokolun və inzibati tənbeh tətbiq etmə haqqında qərarın surəti verilir (bu Məcəllənin 57.6-cı və 57.6-1-ci maddələrinə uyğun olaraq həmin sənədlərin rəsmi qaydada verildiyi hallar istisna olmaqla).";

9.1.3. dördüncü cümlədə "Sürücü" sözü "Bu halda sürücü" sözləri ilə əvəz edilsin;

9.2. 97.4-cü maddə üzrə:

9.2.1. birinci cümlə aşağıdakı redaksiyada verilsin:

"Bu Məcəllənin 122.1-ci maddəsində nəzərdə tutulan inzibati xəta haqqında iş üzrə elektron qərarın, habelə bu Məcəllənin 124.4-1-ci maddəsində qeyd olunan yuxarı səlahiyyətli orqan tərəfindən qəbul edilmiş inzibati xəta haqqında iş üzrə qərarın və bu Məcəllənin 124.5-ci və 124.6-cı maddələrində nəzərdə tutulmuş qaydada tərtib olunan inzibati tənbeh vermə haqqında qərarın 20 gün müddətində bu Məcəllənin 57.6.3-cü maddəsinə uyğun olaraq rəsmi qaydada verilməsi (əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslərə münasibətdə bu Məcəllənin 57.1-57.5-ci maddələrində nəzərdə tutulmuş qaydada sənədlərin çatdırılması) mümkün olmadıqda, həmin sənədlərin surətinin verilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən nəqliyyat vasitəsinin dayandırılaraq müvafiq sənədin təqdim edilməsi barədə qərar qəbul edilir.";

9.2.2. ikinci cümləyə "üzrə" sözündən sonra "qərar və ya" sözləri əlavə edilsin.

10. 116.1-ci maddəyə "203," rəqəmlərindən sonra "205-1.1.2 - 205-1.1.4, 205-1.1.6, 205-1.2," rəqəmləri əlavə edilsin.

11. 117.3-cü və 122.1-ci maddələrin birinci cümlələrində, 122.1-1-ci maddədə ismin müvafiq hallarında "İCMAL" informasiya sistemi" sözləri ismin müvafiq hallarında "Rəqəmsal dövlət maliyyəsi" informasiya sisteminin "İCMAL" altsistemi" sözləri ilə əvəz edilsin.

12. 123.1-ci maddədə "maddəsində" sözü ", 124.5-ci və 124.6-cı maddələrində" sözləri ilə əvəz edilsin.

13. 124-cü maddə üzrə:

13.1. 124.4-cü maddənin birinci-üçüncü cümlələrində ismin müvafiq hallarında "İCMAL" informasiya sistemi" sözləri ismin müvafiq hallarında "Rəqəmsal dövlət maliyyəsi" informasiya sisteminin "İCMAL" altsistemi" sözləri ilə əvəz edilsin;

13.2. 124.6-cı maddənin ikinci cümləsi çıxarılsın.

14. 127-3.2-ci və 127-4.3-cü maddələrdə ismin müvafiq hallarında "İCMAL" informasiya sistemi" sözləri ismin müvafiq hallarında "Rəqəmsal dövlət maliyyəsi" informasiya sisteminin "İCMAL" altsistemi" sözləri ilə əvəz edilsin.

15. 150-ci maddə üzrə:

15.1. 150.4-cü maddənin üçüncü cümləsində "və "İCMAL" informasiya sisteminə" sözləri ", müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə və "Rəqəmsal dövlət maliyyəsi" informasiya sisteminin "İCMAL" altsisteminə" sözləri ilə əvəz edilsin;

15.2. 150.13-1-ci maddədə "İCMAL" informasiya sisteminə" sözləri "Rəqəmsal dövlət maliyyəsi" informasiya sisteminin "İCMAL" altsisteminə" sözləri ilə əvəz edilsin.

16. 181.0.2-ci maddə ləğv edilsin.

17. Aşağıdakı məzmunda 189-4-cü və 189-5-ci maddələr əlavə edilsin:

**"Maddə 189-4. Uşaqda zorakılıq hərəkətlərinin əlamətlərinin aşkar edilməsi barədə məlumatın verilməməsi**

Uşaqda zorakılıq hərəkətlərinin əlamətlərinin aşkar edilməsi barədə məlumatın valideynlər (onları əvəz edən şəxslər), habelə uşaqlara nəzarəti həyata keçirmək vəzifəsini daşıyan təhsil, tibb, sosial xidmət, idman, mədəniyyət, istirahət müəssisələrinin və penitensiar müəssisələrin işçiləri tərəfindən aidiyyəti hüquq mühafizə orqanlarına və ya ərazi üzrə aidiyyəti uşaq hüquqlarının müdafiəsi üzrə yerli komissiyaya verilməməsinə görə -

fiziki şəxslər iki yüz manatdan üç yüz manatadək məbləğdə, vəzifəli şəxslər dörd yüz manatdan altı yüz manatadək məbləğdə cərimə edilir.

**Maddə 189-5. Uşaqlara, o cümlədən uşaqların bir-birinə qarşı davamlı təzyiq və aqressiv davranışının qarşısının alınmaması**

Təhsil, tibb, sosial xidmət, idman, mədəniyyət, istirahət müəssisələrində və penitensiar müəssisələrdə uşaqlara, o cümlədən uşaqların bir-birinə qarşı davamlı təzyiq və aqressiv davranışının qarşısının alınmamasına görə -

fiziki şəxslər üç yüz manatdan dörd yüz manatadək məbləğdə, vəzifəli şəxslər beş yüz manatdan altı yüz manatadək məbləğdə cərimə edilir.".

18. 279.0.4-1-ci maddə 279.1.4-1-ci maddə hesab edilsin.

19. 326-2.4-cü maddənin dispozisiyasından ikinci halda "ya" sözü çıxarılsın.

20. Aşağıdakı məzmunda 388-3-cü maddə əlavə edilsin:

**"Maddə 388-3. Süni intellekt texnologiyaları vasitəsilə hazırlanmış foto, video və ya audio materialların müvafiq nişanlanma olmadan yayılması**

Foto, video və ya audio materialların süni intellekt texnologiyalarından istifadə edilməklə hazırlandığını bilə-bilə həmin materialların belə texnologiyalar vasitəsilə hazırlandığını aydın şəkildə göstərən və asanlıqla görünən nişanlanma olmadan mediada, kütləvi nümayiş etdirildiyi halda internet informasiya ehtiyatlarında və ya informasiya-telekommunikasiya şəbəkələrində yayılmasına görə -

səksən manatdan yüz əlli manatadək məbləğdə cərimə edilir.

**Qeyd:** Bu maddədə "nişanlanma" dedikdə, foto, video və ya audio materialların hazırlandığı süni intellekt texnologiyalarının avtomatik verdiyi, habelə həmin materiallara əlavə edilən vizual, səsli və ya mətn əsaslı işarələnmə başa düşülür.".

21. 410-cu maddə üzrə:

21.1. adına "təşkilatların" sözündən sonra ", dövlətə məxsus olan hüquqi şəxslərin" sözləri əlavə edilsin;

21.2. 410.1-ci maddə üzrə:

21.2.1. dispozisiya aşağıdakı redaksiyada verilsin:

"410.1. Dövlət büdcəsindən və büdcədənkənar dövlət fondlarından maliyyələşdirilən təşkilatların, dövlətə məxsus olan hüquqi şəxslərin maliyyə-təsərrüfat fəaliyyətində maliyyə qaydalarının pozulmasına, o cümlədən dövlət büdcəsindən, büdcədənkənar dövlət fondlarından, məqsədli büdcə fondlarından ayrılan vəsaitdən, habelə digər dövlət vəsaitindən təyinatı üzrə istifadə olunmamasına, yaxud büdcə təşkilatlarının büdcədənkənar vəsaitinin təsdiq edilmiş smetaya uyğun xərclənməməsinə, normativdən artıq ştat vahidinin saxlanılmasına görə -";

21.2.2. sanksiyada "vəzifəli şəxsləri dörd yüz manatdan səkkiz yüz manatadək məbləğdə" sözləri ", dövlətə məxsus olan hüquqi şəxslərin vəzifəli şəxsləri inzibati xətanın bilavasitə obyekti olmuş vəsaitin yüz faizi məbləğində" sözləri ilə əvəz edilsin;

21.3. 410.2-ci və 410.3-cü maddələr ləğv edilsin;

21.4. "Qeyd" hissəsi üzrə:

21.4.1. mətni 1-ci bənd hesab edilsin və həmin bənddə "410-cu" sözləri "410.1-ci" sözləri ilə əvəz edilsin;

21.4.2. aşağıdakı məzmunda 2-ci və 3-cü bəndlər əlavə edilsin:

"2. Bu Məcəllənin 410.1-ci və 411-1-ci maddələrində "dövlətə məxsus olan hüquqi şəxslər" dedikdə paylarının (səhmlərinin) 51 və daha artıq faizi birbaşa və ya dolayısı ilə dövlətə məxsus olan kommersiya hüquqi şəxsləri, dövlətin yaratdığı qeyri-kommersiya hüquqi şəxsləri və publik hüquqi şəxslər, habelə qeyd olunan hüquqi şəxslərin yaratdığı paylarının (səhmlərinin) 51 və daha artıq faizi birbaşa və ya dolayısı ilə həmin hüquqi şəxslərə məxsus olan törəmə təsərrüfat cəmiyyətləri, qeyri-kommersiya hüquqi şəxsləri və publik hüquqi şəxslər nəzərdə tutulur.

3. Bu maddədə nəzərdə tutulmuş əməli ilk dəfə törətmiş şəxs inzibati xətanın bilavasitə obyekti olmuş vəsaiti tamamilə ödədikdə inzibati məsuliyyətdən azad olunur.".

22. 411-1-ci maddənin "Qeyd" hissəsi ləğv edilsin.

23. 432.4-cü maddənin sanksiyasına "vəzifəli" sözündən əvvəl "fiziki şəxslər min manatdan iki min manatadək məbləğdə," sözləri əlavə edilsin.

24. 523-cü maddənin "Qeyd" hissəsindən "və ya dilənçilik" sözləri çıxarılsın.

25. Aşağıdakı məzmunda 523-1-ci, 525-1-ci və 528-3-cü maddələr əlavə edilsin:

**"Maddə 523-1. Dilənçiliklə məşğul olma**

523-1.1. Dilənçiliklə məşğul olmağa görə -

xəbərdarlıq edilir, yaxud yüz manatdan iki yüz manatadək məbləğdə cərimə edilir və ya işin halları və pozuntu törədənin şəxsiyyəti nəzərə alınmaqla, bu tədbirlərin tətbiqi kifayət sayılmadıqda on günədək müddətə inzibati həbs tətbiq olunur.

523-1.2. Yetkinlik yaşına çatmayan şəxsin dilənçiliyə cəlb edilməsinə görə -

iki yüz manatdan beş yüz manatadək məbləğdə cərimə edilir və ya işin halları və pozuntu törədənin şəxsiyyəti nəzərə alınmaqla, bu tədbirlərin tətbiqi kifayət sayılmadıqda on beş günədək müddətə inzibati həbs tətbiq olunur.";

**"Maddə 525-1. Uşağa qarşı cismani cəzanın tətbiqi**

Valideynlər (onları əvəz edən şəxslər), uşaqlara nəzarəti həyata keçirmək vəzifəsini daşıyan təhsil, tibb, sosial xidmət, idman, mədəniyyət, istirahət müəssisələrinin və penitensiar müəssisələrin işçiləri tərəfindən uşağa qarşı cismani cəzanın tətbiqinə, yəni tərbiyə etmək məqsədilə və ya intizam tədbiri kimi uşağa qarşı fiziki və (və ya) psixoloji zorakılığın törədilməsinə görə -

iki yüz manat məbləğində cərimə edilir.

**Qeyd:** Bu Məcəllənin 525-1-ci maddəsi həmin maddədə göstərilən əməl Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələrinə əsasən cinayət məsuliyyətinə səbəb olmadıqda tətbiq edilir.";

**"Maddə 528-3. Xüsusi icra məmurları haqqında qanunvericiliyin pozulması**

528-3.1. "Xüsusi icra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq and içməyən və barəsindəki məlumatlar Xüsusi İcra Məmurlarının Reyestrinə daxil edilməyən şəxs tərəfindən xüsusi icra məmuru fəaliyyətinin göstərilməsinə görə -

min beş yüz manat məbləğində cərimə edilir.

528-3.2. Xüsusi icra məmurunun vahid geyim formasını və (və ya) xüsusi icra məmurunun nişanını qanunsuz olaraq daşımağa görə -

inzibati xətanın obyekti olmuş geyim forması və xüsusi nişan müsadirə edilməklə beş yüz manatdan yeddi yüz manatadək məbləğdə cərimə edilir.

528-3.3. Xüsusi icra məmurları tərəfindən Xüsusi İcra Məmurlarının Reyestrində olan məlumatlarda baş vermiş dəyişikliklər haqqında 3 (üç) iş günü müddətində reyestri aparan orqana məlumat verilməməsinə görə -

beş yüz manat məbləğində cərimə edilir.

528-3.4. Barəsindəki məlumatlar Xüsusi İcra Məmurlarının Reyestrinə daxil edilmədən xüsusi icra məmurunun köməkçisi kimi fəaliyyətə başlamasına görə -

xəbərdarlıq edilir və ya beş yüz manat məbləğində cərimə edilir.

528-3.5. Xüsusi icra məmurunun köməkçisinin müstəqil olaraq xüsusi icra məmurunun fəaliyyəti ilə məşğul olmasına, icra hərəkətlərini həyata keçirməsinə görə -

min beş yüz manat məbləğində cərimə edilir.

528-3.6. İcra sənədlərinin icrası ilə bağlı xüsusi icra məmurunun qanuni fəaliyyətinə müdaxilə edilməsinə görə -

fiziki şəxslər iki yüz manatdan üç yüz manatadək məbləğdə, vəzifəli şəxslər dörd yüz manatdan altı yüz manatadək məbləğdə, hüquqi şəxslər səkkiz yüz manatdan min iki yüz manatadək məbləğdə cərimə edilir.

528-3.7. Xüsusi icra məmurları tərəfindən dövlət və digər informasiya ehtiyatları və sistemlərindən icra hərəkətlərinin həyata keçirilməsi ilə əlaqədar zəruri olmayan məlumatların əldə edilməsinə görə -

beş yüz manatdan min manatadək məbləğdə cərimə edilir.

**Qeyd:** Bu Məcəllənin 528-3.5-ci və 538-3.6-cı maddələri həmin maddələrdə göstərilən əməllər Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələrinə əsasən cinayət məsuliyyətinə səbəb olmadıqda tətbiq edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21aprel 2026-cı il*

# "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 21aprel tarixli 388-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 21aprel tarixli 388-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 45-1.1-ci maddəsində,97.4-cü maddəsinin birinci cümləsində və 150.4-cü maddəsinin üçüncü cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 45-1.1-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi nəzərdə tutulur;

1.3. həmin Məcəllənin 97.4-cü maddəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi nəzərdə tutulur;

1.4. həmin Məcəllənin 150.4-cü maddəsinin üçüncü cümləsində "orqanın (qurumun) informasiya sistemi" dedikdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "ASAN ödəniş" informasiya sistemi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1.iki ay müddətində:

2.1.1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 388-3-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan orqan barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.1.2. həmin Məcəllənin 528-3.6-cı və 528-3.7-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslər barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 21aprel tarixli 388-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259 (Cild I); 2024, № 2, maddələr 151, 157, № 7, maddələr 806, 812, 814, 815, № 8, maddələr 937, 948, № 12 (I kitab), maddə 1294, (II kitab), maddələr 1359, 1378, 1384; 2025, № 2, maddə 127, № 3, maddə 231, № 4 (I kitab), maddələr 325, 338, № 5, maddə 463, № 6, maddələr 541, 561, № 7, maddə 649, № 8, maddələr 746, 754, № 9, maddə 820, № 11, maddə 1018; 2026, № 1, maddələr 36, 41, № 2, maddələr 117, 123; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 12 mart tarixli 617 nömrəli, 13 mart tarixli 619 nömrəli, 16 mart tarixli 622 nömrəli və 14 aprel tarixli 642 nömrəli fərmanları) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 4-cü hissə üzrə:

3.1.1. 4.1-ci bəndə "97.5" rəqəmlərindən əvvəl "97.4-cü maddəsinin birinci cümləsində," sözləri əlavə olunsun və həmin bənddə "127-4.3" rəqəmləri "127-4.3-cü maddələrində, 150.4-cü maddəsinin üçüncü cümləsində" sözləri ilə əvəz edilsin;

3.1.2.4.9-cu bənddən "97.4," rəqəmləri çıxarılsın;

3.1.3. 4.14-1-ci bəndə ikinci halda "maddələrində" sözündən sonra "və 150.4-cü maddəsinin üçüncü cümləsində" sözləri əlavə edilsin;

3.1.4. 4.53-cü bəndə "cümlələrində" sözündən sonra ", 97.4-cü maddəsinin birinci cümləsində" sözləri əlavə edilsin;

3.2. 5-ci hissə üzrə:

3.2.1. 5.1-ci bəndə "157," rəqəmlərindən sonra "189-4, 189-5," rəqəmləri əlavə olunsun və həmin bənddə "524" rəqəmləri "523-1, 524,525-1" rəqəmləri ilə əvəz edilsin;

3.2.2. 5.42-ci bənddə "410" rəqəmləri "410.1" rəqəmləri ilə əvəz edilsin;

3.2.3. 5.44-cü bəndə "445," rəqəmlərindən sonra "445-1 (bu Fərmanın 5.50-3-cü bəndi nəzərə alınmaqla)," sözləri əlavə edilsin;

3.2.4. aşağıdakı məzmunda 5.50-3-cü bənd əlavə edilsin:

"5.50-3. həmin Məcəllənin 445-1.1-ci, 445-1.2-ci, 445-1.4-cü və 445-1.6-cı maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə, həmin inzibati xətalar dövlət maliyyə nəzarəti tədbirləri nəticəsində aşkar edildikdə, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi baxır;";

3.2.5. 5.64-cü bənd aşağıdakı redaksiyada verilsin:

"5.64. həmin Məcəllənin 391-1-ci, 432-1.1-ci, 432-1.2-ci, 528-3.1-ci, 528-3.3 - 528-3.5-ci, 562.3-cü və 579 - 582-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi baxır;

3.2.6. 5.68-ci bənd ləğv edilsin.

4.Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200 (Cild I); 2024, № 2, maddə 157, № 6 (I kitab), maddə 649, № 7, maddələr 806, 812, 814, № 8, maddə 948, № 12 (l kitab), maddələr 1294, 1295, (ll kitab), maddə 1378; 2025, № 2, maddə 127, № 4 (I kitab), maddə 325, № 5, maddə 463, № 8, maddə 746, № 9, maddə 820; 2026, № 1, maddə 41, № 2, maddə 117; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 13 mart tarixli 619 nömrəli və 16 mart tarixli 622 nömrəli fərmanları) ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1.2.1-ci və 2.5-ci bəndlərə "157," rəqəmlərindən sonra "189-4, 189-5," rəqəmləri əlavə olunsun və həmin bəndlərdə "524" rəqəmləri "523-1, 524, 525-1" rəqəmləri ilə əvəz edilsin;

4.2. 3.4-cü bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 3.5-ci bənd əlavə edilsin:

"3.5. Məcəllənin 528-3.1-ci və 528-3.3 - 528-3.5-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə - ədliyyə naziri, onun müavinləri, Nazirliyin Aparatının İcra xidmətinin rəisi, onun müavinləri, Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, onun müavini, Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Aparatının icra üzrə müvafiq səlahiyyətli struktur qurumunun rəhbəri.".

5. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765 (Cild I); 2024, № 4, maddə 381, № 6 (I kitab), maddə 649, № 7, maddələr 812, 814, 815, № 12 (I kitab), maddə 1294, (II kitab), maddə 1367; 2025, № 2, maddə 127, № 3, maddə 232, № 4 (I kitab), maddə 325, № 5, maddə 463, № 6, maddələr 541, 561, № 8, maddələr 756, 763, № 9, maddə 820, № 10, maddə 898, № 11, maddələr 1018, 1036; 2026, № 1, maddə 36, № 2, maddə 123; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 16 mart tarixli 622 nömrəli və 15 aprel tarixli 643 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin və hərbi məhkəmələrin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1.1-ci hissədən "181.0.2," rəqəmləri çıxarılsın və həmin hissəyə "525," rəqəmlərindən sonra "528-3.2," rəqəmləri əlavə edilsin;

5.2. aşağıdakı məzmunda 58-4-cü hissə əlavə edilsin:

"58-4. Məcəllənin 528-3.2-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol - ədliyyə naziri, onun müavinləri, Nazirliyin Aparatının İcra xidmətinin rəisi, onun müavinləri, Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, onun müavini, Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Aparatının icra üzrə müvafiq səlahiyyətli struktur qurumunun rəhbəri, yerli icra qurumlarının rəisləri, onların müavinləri.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 may 2026-cı il*

## "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 564 (Cild I); 2024, № 7, maddə 771, № 8, maddə 932; 2025, № 1, maddə 16, № 2, maddə 94, № 6, maddə 523, № 12 (I kitab),maddə 1125) aşağıdakı dəyişikliklər edilsin:

1. 27-ci maddənin IV-I hissəsinin 5-1-ci bəndinə, 30-cu maddənin VI-I hissəsinin 4-1-ci bəndinə və 35-ci maddənin IV-I hissəsinin 1-1-ci bəndinə "57.4-cü" sözlərindən sonra ", 57.6.3-cü" sözləri əlavə edilsin;

2. 85-ci maddənin birinci hissəsinin 10-cu bəndinin ikinci cümləsindən "və onun surətini nəqliyyat vasitəsinin ön şüşəsinə qoyur" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 mart 2026-cı il*

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Media haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 6-cı və 17-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251 (Cild I); 2024, № 1, maddələr 8, 18, № 3, maddə 250, № 7, maddə 772, № 11, maddə 1189, № 12 (II kitab), maddələr 1330, 1350; 2025, № 1, maddə 1, № 2, maddələr 98, 99, № 3, maddələr 217, 221, № 4 (I kitab), maddə 322, № 5, maddə 434, № 6, maddə 538, № 7, maddələr 607, 626, № 11, maddə 1013; 2026, № 1, maddələr 16, 19; Azərbaycan Respublikasının 2026-cı il 3 mart tarixli 373-VIIQD nömrəli Qanunu) aşağıdakı məzmunda 148-2-ci və 242-1-ci maddələr əlavə edilsin:

**"Maddə 148-2.** Qanunsuz olaraq süni intellekt texnologiyaları, habelə xüsusi proqram təminatları vasitəsilə foto, video və ya audio materialları hazırlama və ya yayma

148-2.1. Şəxsin razılığı olmadan, onun görüntüsündən və ya səsindən istifadə etməklə süni intellekt texnologiyaları, habelə xüsusi proqram təminatları vasitəsilə reallığı əks etdirməyən foto, video və ya audio materialları hazırlama və ya həmin materialları mediada, kütləvi nümayiş etdirildiyi halda internet informasiya ehtiyatlarında və ya informasiya-telekommunikasiya şəbəkələrində yayma -

üç min manatdan yeddi min manatadək miqdarda cərimə və ya üç yüz altmış saatdan dörd yüz səksən saatadək ictimai işlər və ya üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya eyni müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

148-2.2. Eyni əməllər:

148-2.2.1. bir qrup şəxs və ya qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə;

148-2.2.2. iki və ya daha çox şəxsə qarşı törədildikdə;

148-2.2.3. şəxsin şərəf və ləyaqətini ləkələmək və ya onu nüfuzdan salmaq məqsədilə törədildikdə;

148-2.2.4. zərərçəkmiş şəxsin xidməti vəzifəsini və ya ictimai borcunu yerinə yetirməsi ilə əlaqədar onun özü və ya yaxın qohumlarına qarşı törədildikdə -

üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

**"Maddə 242-1. Qanunsuz olaraq süni intellekt texnologiyaları, habelə xüsusi proqram təminatları vasitəsilə pornoqrafik və ya seksual məzmunlu foto, video və ya audio materialları hazırlama və ya yayma**

Şəxsin **razılığı olmadan**, onun görüntüsündən və ya səsindən istifadə etməklə süni intellekt texnologiyaları, habelə xüsusi proqram təminatları vasitəsilə **pornoqrafik və ya seksual məzmunlu** foto, video və ya audio materialları hazırlama və ya həmin materialları mediada, kütləvi nümayiş etdirildiyi halda internet informasiya ehtiyatlarında və ya informasiya-telekommunikasiya şəbəkələrində yayma -

**üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə** ilə cəzalandırılır.".

**Maddə 2.** Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (II kitab), maddə 585 (Cild I); 2024, № 1, maddə 4, № 4, maddələr 362, 365, 368, № 6 (I kitab), maddə 631; 2025, № 1, maddə 1, № 2, maddə 98, № 4 (I kitab), maddə 308, № 6, maddələr 529, 538, № 7, maddə 607, № 8, maddələr 736, 743, № 11, maddə 1011; Azərbaycan Respublikasının 2026-cı il 3 mart tarixli 372-VIIQD və 373-VIIQD nömrəli qanunları) 37.3-cü maddəsinə "148-1," rəqəmlərindən sonra "148-2.1," rəqəmləri əlavə edilsin.

**Maddə 3.** "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 364 (Cild I); 2024, № 1, maddə 18, № 7, maddə 769; 2025, № 7, maddə 626; 2026, № 1, maddə 17) aşağıdakı məzmunda 13-2.3.9-1-ci və 13-2.7-ci maddələr əlavə edilsin:

"13-2.3.9-1. şəxsin razılığı olmadan, onun görüntüsündən və ya səsindən istifadə etməklə süni intellekt texnologiyaları, habelə xüsusi proqram təminatları vasitəsilə hazırlanmış reallığı əks etdirməyən, yaxud **belə texnologiyalar (proqram təminatları) vasitəsilə hazırlanmış pornoqrafik və ya seksual məzmunlu** foto, video və ya audio materiallar;";

"13-2.7. Süni intellekt texnologiyaları vasitəsilə hazırlanmış foto, video və ya audio materiallar kütləvi nümayiş etdirildikdə belə texnologiyalardan istifadə edilməklə hazırlandığını aydın şəkildə göstərən və asanlıqla görünən nişanlanma ilə təmin edilməlidir.".

**Maddə 4.** "Media haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 2, maddə 90 (Cild I); 2024, № 5 (I kitab), maddələr 488, 494, № 7, maddə 775; 2025, № 2, maddə 100, № 4 (I kitab), maddə 318, № 8, maddə 741; Azərbaycan Respublikasının 2026-cı il 27 fevral tarixli 368-VIIQD nömrəli və 3 mart tarixli 372-VIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

4.1. aşağıdakı məzmunda 14.1.13-1-ci maddə əlavə edilsin:

"14.1.13-1. şəxsin razılığı olmadan, onun görüntüsündən və ya səsindən istifadə etməklə süni intellekt texnologiyaları, habelə xüsusi proqram təminatları vasitəsilə hazırlanmış reallığı əks etdirməyən, yaxud **belə texnologiyalar (proqram təminatları) vasitəsilə hazırlanmış** pornoqrafik və ya seksual məzmunlu foto, video və ya audio materialların yayılmasına yol verilməməlidir;";

4.2. 41.1.1-ci maddəyə "14.1.13-cü," sözlərindən sonra "14.1.13-1-ci," sözləri əlavə edilsin;

4.3. 66.1-ci maddəyə "14.1.13-cü" sözlərindən sonra ", 14.1.13-1-ci" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 aprel 2026-cı il*

## "Bakı şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmuş xəstələrə ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyul tarixli 262 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 130** **Bakı şəhəri, 6 may 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq,"Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 18 mart tarixli 1947 nömrəli Sərəncamının 2.1-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Bakı şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmuş xəstələrə ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyul tarixli 262 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 992 (Cild I); 2024, № 1, maddə 92, № 4, maddə 459, № 7, maddə 901, № 10, maddə 1172; 2025, № 2, maddə 183, № 4 (II kitab), maddə 413, № 7, maddə 724, № 10, maddə 984; 2026, №1, maddə 89) 2-ci hissəsində "aprelin" sözü "iyulun" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "Qaz yanacağı ilə işləyən qurğu və avadanlıqların təhlükəsizliyi haqqında Texniki Reqlament (TR 001/2026/AZ)"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 131** **Bakı şəhəri, 6 may 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2019-cu il 30 sentyabr tarixli 1669-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 26 noyabr tarixli 863 nömrəli Fərmanının 2.3-cü bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Qaz yanacağı ilə işləyən qurğu və avadanlıqların təhlükəsizliyi haqqında Texniki Reqlament (TR 001/2026/AZ)" təsdiq edilsin *(əlavə olunur)*.

2. Bu Qərar dərc edildiyi gündən 6 (altı) ay sonra qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## "Dövlət icra məmurları haqqında", "İcra haqqında" və "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı, 13-cü və 27-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Dövlət icra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 18 (Cild I); 2025, № 1, maddə 1, № 2, maddə 100, № 5, maddə 440, № 7, maddə 617, № 8, maddə 743) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 7-ci maddənin birinci hissəsinin yeddinci abzasına "təşkilatlarındakı" sözündən sonra ", elektron pul təşkilatlarındakı" sözləri əlavə edilsin;

1.2. 8-ci maddənin birinci hissəsi üzrə:

1.2.1. yeddinci abzas aşağıdakı redaksiyada verilsin:

"tələbi borclunun əmlakına, o cümlədən nağd, yaxud banklarda və ya digər kredit təşkilatlarındakı, elektron pul təşkilatlarındakı hesablarda və əmanətlərdə, habelə saxlancda olan pul vəsaitlərinə və başqa sərvətlərinə yönəltmək;";

1.2.2. on birinci abzasda "yerinin, əmlakının," sözləri ", onun əmlakının yerinin, borclu hüquqi şəxsin icra orqanının rəhbərinin və ya borclunun" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 3, maddə 114 (Cild I); 2024, № 4, maddə 365; 2025, № 1, maddə 1, № 2, maddə 100, № 4 (I kitab), maddələr 315, 322, № 5, maddə 440, № 6, maddələr 526, 536, № 7, maddələr 610, 617, № 8, maddələr 743, 744) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 17.1.4-cü maddədə "sənədləri" sözü "sənədlərinə" sözü ilə əvəz edilsin, həmin maddədən hər iki halda "onun verilməsinə əsas olan" sözləri çıxarılsın və həmin maddədə ikinci halda "sənədlərinin" sözü "qeydinin" sözü ilə əvəz edilsin;

2.2. 27-ci maddənin adına "uşağının" sözündən sonra ", habelə borclu hüquqi şəxsin icra orqanının rəhbərinin" sözləri əlavə edilsin;

2.3. 84-1-ci maddə üzrə:

2.3.1. adında "Borclunun" sözü "Borclu fiziki şəxsin" sözləri ilə əvəz edilsin;

2.3.2. 84-1.1-ci maddənin birinci və ikinci cümlələrində "qərarı" sözü "qərardadı" sözü ilə əvəz edilsin.

**Maddə 3.** "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 753 (Cild I); 2024, № 12 (II kitab), maddə 1334) 4.2.10-cu maddəsinə "təşkilatına" sözündən sonra ", elektron pul təşkilatına" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21aprel 2026-cı il*

## "Azərbaycan Respublikası Hökuməti ilə Efiopiya Federativ Demokratik Respublikası Hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2026-cı il fevralın 27-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Efiopiya Federativ Demokratik Respublikası Hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 aprel 2026-cı il*

## "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Media haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 21 aprel tarixli 387-VIIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Media haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 21 aprel tarixli 387-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 610 (Cild I); 2024, № 1, maddələr 24, 33, № 4, maddə 387, № 8, maddə 945; 2025, № 4 (I kitab), maddə 340, № 6, maddə 561, № 7, maddə 633, № 11, maddələr 1036, 1038; 2026, № 1, maddələr 24, 41; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 mart tarixli 633 nömrəli Fərmanı) 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. ikinci abzasda "242-244" rəqəmləri "242, 243, 244" rəqəmləri ilə əvəz edilsin;

1.2. on üçüncü abzasa "Məcəlləsinin" sözündən sonra "148-2," rəqəmləri, "216" rəqəmlərindən sonra ", 242-1" rəqəmləri əlavə edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Media haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 21 aprel tarixli 387-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 may 2026-cı il*

## "Dövlət xidmətlərinin reqlamentinin nümunəvi forması"nın, "Dövlət Xidmətlərinin Elektron Reyestri" informasiya sisteminə daxil ediləcək məlumatların siyahısı"nın və "Dövlət Xidmətlərinin Elektron Reyestri" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 129** **Bakı şəhəri, 6 may 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Dövlət xidmətləri haqqında" Azərbaycan Respublikasının 2025-ci il 31 oktyabr tarixli 279-VIIQ nömrəli Qanununun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 3 dekabr tarixli 543 nömrəli Fərmanının 3.2.1-ci, 3.2.2-ci və 3.2.3-cü yarımbəndlərinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Dövlət xidmətlərinin reqlamentinin nümunəvi forması" təsdiq edilsin *(əlavə olunur)*.

2. "Dövlət Xidmətlərinin Elektron Reyestri" informasiya sisteminə daxil ediləcək məlumatların siyahısı" təsdiq edilsin *(əlavə olunur)*.

3. "Dövlət Xidmətlərinin Elektron Reyestri" informasiya sistemi haqqında Əsasnamə" təsdiq edilsin *(əlavə olunur)*.

4. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə:

4.1. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Hökumət buludu" (G-cloud) Konsepsiyası"na uyğun olaraq, Dövlət Xidmətlərinin Elektron Reyestrinin (bundan sonra - DXER) "Hökumət buludu"nda yerləşdirilməsini, habelə DXER-in "Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri"nə və fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrinə daxil edilməsi üçün tədbirlər görsün;

4.2. DXER-də formalaşan açıq məlumatların "Açıq məlumatlar" portalında yerləşdirilməsini təmin etsin.

5. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti bu Qərarın 3-cü hissəsi nəzərə alınmaqla, "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanının tələblərindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsinlər.

6. Dövlət orqanları və yerli özünüidarəetmə orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər, digər büdcə təşkilatları, habelə qanuna əsasən inzibati akt, texniki sənəd və ya digər hüquqmüəyyənedici sənəd qəbul etmək səlahiyyəti verilmiş hər hansı fiziki və ya hüquqi şəxslər yeni xidmət müəyyən edən normativ hüquqi akt qüvvəyə mindiyi tarixdən 30 (otuz) iş günündən gec olmayaraq dövlət xidmətinin reqlamentini DXER-in informasiya sisteminə daxil edilməsi üçün Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə təqdim etsinlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Milli Məclisin Sədri Sahibə Qafarova Monqolustanın baş prokuroru ilə görüşüb

**Mayın 6-da Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Monqolustanın baş prokuroru Jarqalsayxan Banzraqçın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Sədri bu səfərin Azərbaycan və Monqolustan prokurorluq orqanları arasındakı əlaqələrin inkişafına öz töhfəsini verəcəyinə inamını bildirib.

Spiker 1992-ci ildə iki ölkə arasında diplomatik münasibətlərin qurulmasından keçən illər ərzində münasibətlərimizin dostluq, qarşılıqlı dəstək və hörmət əsasında inkişaf etdiyini diqqətə çatdırıb.

İkitərəfli əlaqələrin güclənməsində ali və yüksəksəviyyəli qarşılıqlı səfərlərin müstəsna rolundan danışan Sahibə Qafarova, Prezident İlham Əliyevin 2024-cü ilin noyabrında Bakıda keçirilmiş COP29-da iştirak etmək üçün ölkəmizə səfər etmiş Monqolustan Prezidenti Uxnaaqinya Xurelsux ilə görüşünün əhəmiyyətini qeyd edib. Bildirib ki, Prezident İlham Əliyev Monqolustan Prezidentinin Azərbaycana həmin ilk səfərini tarixi hadisə kimi dəyərləndirib.

Milli Məclisin Sədri deyib ki, ölkələrimiz beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlıq edirlər. Spiker qonağa Milli Məclisin Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə qarşılıqlı əməkdaşlığı, Azərbaycanda parlamentarizm tarixi, müasir parlamentin strukturu, beynəlxalq fəaliyyəti, qanun yaradıcılığı prosesi barədə məlumat verib. Bildirib ki, hazırda fəaliyyət göstərən VII çağırış Milli Məclis 2024-cü ildə keçirilmiş seçki nəticəsində formalaşıb. Həmin seçki Azərbaycanın bütün suveren ərazisində keçirilmiş ilk parlament seçkisi kimi xüsusi əhəmiyyət kəsb edir.

Söhbət zamanı Milli Məclisin Sədri Monqolustan parlamenti ilə qarşılıqlı faydalı əməkdaşlıq, bu ölkə ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun fəaliyyəti barədə də fikirlərini bölüşüb.

Dəyərli məlumatlar üçün təşəkkürünü bildirən Monqolustanın baş prokuroru Jarqalsayxan Banzraqç ölkəmizə səfəri barədə təəssüratlarını bölüşüb.

İki ölkənin prokurorluq orqanları arasında əlaqələrin inkişafından söz açan qonaq Azərbaycan Baş Prokurorluğu ilə əməkdaşlığın perspektivlərindən danışıb. O qeyd edib ki, iki ölkənin Baş prokurorluqları arasında imzalanmış Anlaşma Memorandumu hər iki ölkənin vətəndaşlarının hüquqlarının qorunmasına və cinayətkarlığın qarşısının alınmasına öz töhfəsini verəcək. Qonaq Monqolustanda Baş Prokurorluqla parlament arasında əməkdaşlıq, ölkə prokurorluğunun fəaliyyəti və prokurorluq orqanlarının inkişaf perspektivləri barədə məlumat verib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Monqolustanın baş prokuroru Jarqalsayxan Banzraqçın rəhbərlik etdiyi nümayəndə heyəti Kamran Əliyevin dəvəti ilə ölkəmizdə rəsmi səfərdədir

**Jarqalsayxan Banzraqç Fəxri xiyabana gələrək xalqımızın Ümummilli lideri Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil qoyub, eləcə də görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyeva, tanınmış dövlət xadimi Əziz Əliyev və professor Tamerlan Əliyevin də məzarını ziyarət edib.**



Şəhidlər xiyabanına gələn qonaqlar Azərbaycanın müstəqilliyi uğrunda şəhid olan qəhrəman Vətən övladlarının xatirəsinə ehtiramlarını bildirib, məzarları üzərinə gül dəstələri qoyublar.

Baş prokuror Kamran Əliyevlə monqolustanlı həmkarı arasında baş tutan görüş zamanı ölkələrin siyasi rəhbərliyinin uzaqgörən siyasi baxışları və səmimi münasibətləri nəticəsində dövlətlərimiz arasında münasibətlərin dinamik inkişaf etdiyi qeyd edilmiş, hüquq-mühafizə orqanları arasında səmərəli əməkdaşlıq əlaqələrinin olması vurğulanıb.

Görüşdə baş prokuror qonaqlara ölkəmizin prokurorluq orqanlarının fəaliyyətinin rəqəmsallaşdırılması və yeni hüquq institutlarının tətbiqi istiqamətində görülən işlər barədə ətraflı məlumat verib.

Səmimi qəbula görə təşəkkürünü bildirən Jarqalsayxan Banzraqç təmsil etdiyi qurumun Azərbaycan ilə əlaqələrin inkişafına xüsusi önəm verdiyini, qurumlar arasında əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminliyini ifadə edib.

Görüşdə cinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılıb, ekstradisiya, hüquqi yardım, prokurorların təlimi və digər istiqamətlər üzrə əlaqələrin davam etdirilməsi barədə razılıq əldə olunub.

Bundan başqa, görüş zamanı iki ölkənin prokurorluqları arasında hüquqi əməkdaşlığın möhkəmləndirilməsi, mövcud əlaqələrin gələcəkdə daha da intensivləşdirilməsi məqsədilə Anlaşma Memorandumu imzalanıb.

Həmçinin görüş zamanı Jarqalsayxan Banzraqça iki ölkənin prokurorluq orqanları arasında əməkdaşlığın inkişafına verdiyi töhfəyə görə təltif olunduğu "Azərbaycan Prokurorluğunun 100 illiyi" Azərbaycan Respublikasının yubiley medalı təqdim edilib.

Görüşdən sonra qonaqlar Azərbaycan Respublikası Prokurorluğunun Tarix muzeyi ilə tanış olublar.

# "AzerGold" QSC-də Esvatini Krallığının ölkəmizdəki səfiri ilə görüş keçirilib

**"AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov Esvatini Krallığının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Sibusisive Mnqomezulu ilə görüş keçirib.**




Görüş zamanı tərəflər iqtisadi əməkdaşlıq imkanlarını müzakirə ediblər. Zakir İbrahimov bildirib ki, Azərbaycan geniş və güclü beynəlxalq əlaqələrə malikdir və bu gün dünyanın bir çox aparıcı güc mərkəzləri ilə strateji tərəfdaşlıq müqavilələri imzalayan azsaylı dövlətlərdən biridir. Uzun illər boyu zəngin neft və qaz ehtiyatları ilə tanınan ölkəmiz daxili enerji tələbatını tam şəkildə təmin edir və eyni zamanda enerji sahəsində ixrac potensialını davamlı olaraq gücləndirir. Bu isə ölkənin təkcə regional deyil, həm də tədricən qlobal miqyasda aparıcı güclərdən birinə çevrildiyini göstərir.

İdarə Heyəti sədrinin sözlərinə görə, neft və qaz ehtiyatlarının mövcudluğu Azərbaycana müdrik iqtisadi qərarlar qəbul etməyə və müxtəlif sahələrə investisiya yatırmağa imkan verib. Bu prioritet istiqamətlər sırasında dağ-mədən sahəsi də mühüm yer tutur. Dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə dağ-mədən sənayesinin inkişafı istiqamətində həyata keçirilən iqtisadi islahatlar, məqsədyönlü qərarlar nəticəsində iqtisadiyyatımızın digər sahələri kimi dağ-mədən sahəsi də qısa müddət ərzində yüksək nailiyyətlər qazanıb.

Zakir İbrahimov sözügedən inkişaf fonunda rəhbərlik etdiyi qurumun fəaliyyəti, həyata keçirilən layihələr və qeyri-neft sektorunun inkişafına verdiyi töhfələr barədə məlumat verib. Bildirilib ki, "AzerGold" QSC hazırda qeyri-neft sektoru üzrə əsas ixracatçı dövlət şirkətləri sırasında ön sıralarda yer alır və şirkətin maliyyə göstəriciləri ildən-ilə müsbət dinamika nümayiş etdirir.

Səfir Sibusisive Mnqomezulu Azərbaycanda olmaqdan məmnunluğunu ifadə edərək, ölkələr arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın mövcud olduğunu qeyd edib. O, xüsusilə mədənçilik sahəsində əməkdaşlığın inkişaf etdirilməsinin qarşılıqlı faydalı olacağını vurğulayıb. Diplomat Esvatinin zəngin mineral xammal ehtiyatlarına malik olduğunu bildirərək, bu resursların öyrənilməsi və səmərəli idarə olunması istiqamətində "AzerGold" QSC-nin qabaqcıl təcrübəsinin əhəmiyyətini qeyd edib.

Zakir İbrahimov ilkin mərhələdə mineral resursların yerləşdiyi ərazilərdə dəqiq xəritələalma işlərinin aparılmasının və ehtiyatların düzgün qiymətləndirilməsinin vacibliyini diqqətə çatdırıb. O bildirib ki, müasir geoloji-kəşfiyyat metodlarının tətbiqi, rəqəmsal texnologiyalardan istifadə səmərəliliyin artırılmasına xidmət edir. Qeyd olunub ki, "AzerGold" QSC geoloji tədqiqatların innovativ və ekoloji baxımdan təhlükəsiz texnologiyalar əsasında həyata keçirilməsi sahəsində zəngin təcrübəyə malikdir. Həmçinin vurğulanıb ki, qeyri-invaziv axtarış metodları perspektivli sahələrin daha qısa müddətdə müəyyənləşdirilməsinə və yüksək xərc tələb edən buruq-qazma işlərinə əhəmiyyətli qənaət edilməsinə imkan yaradır. Sədr şirkətin bu sahədə topladığı təcrübəni bölüşməyə hazır olduğunu bildirib.

Görüşün sonunda tərəflər qarşılıqlı maraq doğuran məsələlər üzrə fikir mübadiləsi apararaq, əməkdaşlıq imkanlarının müəyyən edilməsi məqsədilə məlumatların mübadiləsi, o cümlədən tərəflər arasında Anlaşma Memorandumunun hazırlanması istiqamətində işlərin aparılması barədə razılığa gəliblər.

# Heydər Əliyev irsinin konseptual əsasları: ənənə ilə müasirliyin vəhdəti

**Mayın 6-da Nəsimi Rayon İcra Hakimiyyəti, Yeni Azərbaycan Partiyası (YAP) Nəsimi rayon təşkilatı və Bakı Xoreoqrafiya Akademiyasının birgə təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş "Heydər Əliyev irsinin konseptual əsasları: ənənə ilə müasirliyin vəhdəti" mövzusunda tədbir keçirilib.**






Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri, Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Tahir Budaqov bildirib ki, Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısında xidmətləri misilsizdir: "Ulu Öndərin milli məzmunlu, bəşəri xarakterli fəaliyyəti bir dövrü deyil, bir-birindən kəskin fərqlənən iki mərhələni - həm SSRİ dönəmini, həm də müstəqillik illərini əhatə edir. Ümummilli Lider fəaliyyətinin bütün mərhələlərində Azərbaycanın inkişafına, milli həmrəyliyin gücləndirilməsinə, dövlət maraqlarının qorunmasına və dövlətçilik ənənələrinin yaşadılmasına xidmət edən böyük tarixi nailiyyətlərə imza atmışdır. Heydər Əliyevin müstəqillik illərində Azərbaycana rəhbərlik etdiyi dönəm inkişaf və sabitlik dövrü kimi xarakterizə olunur. Ümummilli Lider ictimai-siyasi sabitliyi, vətəndaş həmrəyliyini və davamlı sosial-iqtisadi inkişafı təmin etməklə müasir, hüquqi və demokratik dövlət quruculuğuna nail oldu. Digər tərəfdən, müstəqilliyin ilk illərində təcrid vəziyyətində olan Azərbaycanın beynəlxalq mövqeyinin möhkəmləndirilməsi qarşısında duran bir çox mühüm strateji hədəflərin gerçəkləşməsini şərtləndirdi. Zamanın Ulu Öndərə başa çatdırmağa imkan vermədiyi işləri onun siyasi varisi - cənab İlham Əliyev yerinə yetirdi. Şanlı Zəfər qazanaraq öz ərazi bütövlüyünü və mütləq suverenliyini təmin edən qalib Azərbaycan dövləti bu gün dünya azərbaycanlılarının qürur mənbəyi, ümid və güvənc yeridir".

Natiq qeyd edib ki, Ulu Öndərin çoxşaxəli siyasətinin prioritet istiqamətlərindən biri də xalqımızın zəngin mədəni irsinin, tarixi ənənələrinin və milli dəyərlərinin qorunması və gələcək nəsillərə ötürülməsi olmuşdur: "Ümummilli Lider incəsənətə və mədəniyyətə xüsusi önəm göstərərək bu sahələrin inkişafını dövlət siyasətinin mühüm tərkib hissəsi kimi müəyyənləşdirmişdir. Müdrik dövlət xadiminin mədəniyyət və incəsənət xadimləri ilə mütəmadi görüşlər keçirməsi onların yaradıcı fəaliyyətlərinə böyük stimul olmaqla milli mədəniyyətimizin inkişafına təkan vermişdir. Ulu Öndərin müəyyən etdiyi mədəniyyət siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Eyni zamanda Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu milli-mədəni irsimizin qorunması və dünyada tanıdılması istiqamətində mühüm layihələr həyata keçirir. Fondun irəli sürdüyü təşəbbüslər cəmiyyətimizin yaradıcı və intellektual potensialının inkişafına, mənəvi dəyərlərin qorunub yaşadılmasına və mədəniyyətlərarası dialoqun təşviqinə xidmət göstərir. Xüsusilə qeyd olunmalıdır ki, muğam sənətinin beynəlxalq səviyyədə tanıdılması ilə əlaqədar görülən işlər Azərbaycanın mədəniyyət diplomatiyasının çox mühüm istiqamətlərindən biri kimi böyük əhəmiyyətə malikdir".

Tahir Budaqovun sözlərinə görə, Azərbaycanın zəngin mədəniyyət ənənələrinin yaşadılmasında və inkişaf etdirilməsində təhsil müəssisələrinin rolu danılmazdır: "Bakı Xoreoqrafiya Akademiyası bu prosesdə önəmli rol oynayır. Zəngin ənənələrə malik olan bu təhsil ocağı ölkəmizə çoxsaylı görkəmli incəsənət xadimləri bəxş etmişdir. Burada yetişən gənc istedadlar Azərbaycanı beynəlxalq səviyyədə layiqincə təmsil edərək mədəniyyətimizin daha geniş miqyasda tanınmasına, ölkəmizin nüfuzunun artmasına önəmli töhfələr verirlər. Akademiyanın müəllim və tələbə heyətinin fədakar əməyi yüksək qiymətə layiqdir".

"Bu gün həm müstəqillik dövrünün, həm də çoxəsrlik tarixinin zirvə hadisələrinə şahidlik edən qədirbilən Azərbaycan xalqı Ümummilli Liderin misilsiz xidmətlərini olduqca yüksək qiymətləndirir. Ulu Öndərin zəngin dövlətçilik irsi bundan sonra da ölkəmizə böyük uğurlar qazandıracaqdır" , - deyə T.Budaqov əlavə edib.

Bakı Xoreoqrafiya Akademiyasının tədris işləri üzrə prorektoru, rektor vəzifəsini icra edən, Azərbaycanın Əməkdar artisti Nailə Məmməd-Zadə çıxışında bildirib ki, Ulu Öndər Heydər Əliyev incəsənətə daim önəm verən bir şəxsiyyət olub: "Xoreoqrafiya isə onun xüsusi diqqət mərkəzində idi. Hazırda Bakı Xoreoqrafiya Akademiyası adı altında fəaliyyət göstərən bina məhz Onun sayəsində tikilib. Heydər Əliyev incəsənət xadimlərimizə xüsusi diqqət göstərib, onların fəaliyyətini yüksək qiymətləndirib. Bu şəxsiyyətlər sırasında Azərbaycan xoreoqrafiya sənətində öz sözünü demiş görkəmli xoreoqraflar Qəmər Almaszadə, Leyla Vəkilova, Əminə Dilbazi, Əlibaba Abdullayev və başqalarının adlarını qeyd etmək olar".

Nailə Məmməd-Zadə qeyd edib ki, Azərbaycan xoreoqrafiya sənətinin inkişafına böyük maraq göstərən Heydər Əliyev işinin çoxluğuna baxmayaraq, müxtəlif tədbirlərdə iştirak edirdi: "Onun bu sahəyə diqqəti Azərbaycan cəmiyyətində xoreoqrafiya sənətinə marağın artmasına da təsir edirdi. Heydər Əliyevin rəhbərliyi dövründə balet sənətinə göstərilən qayğı bu sahənin inkişafına böyük kömək edib. Onun verdiyi qərarlar, sənət adamlarına göstərdiyi diqqət xoreoqrafiya sənətinin inkişafında mühüm rol oynayıb. Belə ki, balet sənəti nümayəndələrinə mükafatlar verilməsi, təqaüd ayrılması onları daha da ruhlandırıb. Sənətkarların yubiley və xatirə gecələrinin keçirilməsi, onların irsinin yaşadılması daim Ulu Öndərin diqqət mərkəzində olub. Heydər Əliyev milli xoreoqrafiya sənətinin inkişaf etdirilməsi üçün görülən tədbirlərə nəzarət edir və öz dəyərli tövsiyələrini verirdi. Gəlin, biz də bu dəyərləri qoruyaq, mədəniyyətimizi sevək və onu gələcək nəsillərə ötürək. Bu, böyük şəxsiyyətin xatirəsinə ən gözəl hörmətimiz olar. Heydər Əliyevin dediyi kimi, yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə yaradacaq, inkişaf edəcək", - deyə Nailə Məmməd-Zadə vurğulayıb.

Milli Məclisin deputatı Ziyad Səmədzadə çıxışında Ulu Öndər Heydər Əliyevin həm sovet dövründə, həm də müstəqillik illərində Azərbaycan iqtisadiyyatının inkişafı üçün tarixi xidmətlərindən söz açıb. Onun sözlərinə görə, Ulu Öndərin fəaliyyəti nəticəsində Azərbaycan keçmiş ittifaqda aqrar respublikadan sənaye respublikasına çevrildi, qısa müddətdə ön sıralara çıxdı.

Z.Səmədzadənin fikrincə, 1970-ci illərdə yaradılmış elmi-texniki istehsal potensialı olmasaydı, bu gün müstəqil Azərbaycan çoxlu çətinliklərlə üzləşə bilərdi: "Zəngin dövlətçilik təcrübəsinə malik olan Heydər Əliyev Azərbaycanda yenidən böyük siyasətə qayıtdıqda respublikanı ağır fəlakətdən qurtarmaq üçün Azərbaycanın tarixi-iqtisadi xüsusiyyətlərinə, geosiyasi şəraitinə, milli mənafelərinə uyğun inkişaf strategiyası hazırladı, düşünülmüş və sistemli tədbirlər həyata keçirdi, beynəlxalq təşkilatlarla, inkişaf etmiş ölkələrlə əməkdaşlığın formalaşması, iqtisadi islahatların aparılmasını prioritet vəzifələr kimi müəyyən etdi. Bu gün biz böyük qürur hissi ilə deyə bilərik ki, müstəqil Azərbaycan dövlətinin yeni iqtisadi sisteminin yaradılması Heydər Əliyevin adı ilə bağlıdır".

Natiq qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan hazırda inkişafın yeni mərhələsini yaşayır. Onun sözlərinə görə, ərazi bütövlüyünü və suverenliyini bərpa etmiş dövlətimiz dünyada söz sahibidir: "Bu gün dünyanın aparıcı siyasətçiləri, dövlət xadimləri, ekspertləri ölkəmizin dinamik inkişafını yüksək qiymətləndirirlər. Bütün bu uğurların əsasında Heydər Əliyev siyasəti dayanır".

Çıxış edən Nəsimi Rayon Ağsaqqallar Şurasının sədri, Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor Vaqif Şadlinski Azərbaycanın tərəqqisində Ulu Öndər Heydər Əliyevin misilsiz xidmətlərindən bəhs edib. O bildirib ki, hələ SSRİ dövründə ölkəmizin yüksəlişini təmin edən Ulu Öndər müstəqilliyin bərpasından sonra yenidən siyasi hakimiyyətə gələrək xalqımıza böyük uğurlar qazandırdı.

Vaqif Şadlinski qeyd edib ki, qazanılan möhtəşəm Zəfərin təməlində Heydər Əliyevin böyük əməyinin, zəkasının, uzaqgörənliyinin izləri var: "Ulu Öndər Heydər Əliyev bütün varlığı, bilik və bacarığı ilə xalqına, torpağına bağlı dahi şəxsiyyət idi. Onun sayəsində Azərbaycan parçalanmaqdan, bir dövlət kimi yox olmaq təhlükəsindən xilas oldu. Güclü və qüdrətli Azərbaycanın gələcək nailiyyətləri məhz Ulu Öndərin adı ilə bağlıdır. Bu gün biz qalib xalq kimi bir daha fəxr edirik ki, azərbaycanlıyıq. Hər birimiz Ulu Öndərin ruhu qarşısında baş əyir, onun xatirəsini daim uca tuturuq. Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyevin yürütdüyü siyasət bizi daha da qüdrətli və yenilməz bir dövlətə çevirir".

Tədbirin rəsmi hissəsi Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

Tədbir konsert proqramı ilə davam edib.

*"Azərbaycan"*

# Regional məsələlər komitəsinin iclası

**Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, mayın 6-da keçirilən iclası komitə sədri Siyavuş Novruzov açaraq diqqətə çatdırıb ki, bir neçə gün sonra müasir Azərbaycan dövlətinin qurucusu Ulu Öndər Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü qeyd olunacaq.**

İclasda Ulu Öndərin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Sonra Siyavuş Novruzov gündəliyə "Quba rayonunun bəzi ərazi vahidlərinin adlarının dəyişdirilməsi haqqında" qanun layihəsinin daxil edildiyini bildirib. Qeyd olunub ki, layihədə Quba rayonunun inzibati ərazisinə daxil olan Vladimirovka, Alekseyevka və Timiryazev yaşayış məntəqələrinin adlarının yerli sakinlərin müraciətləri və Toponimiya Komissiyasının rəyi nəzərə alınmaqla müvafiq olaraq "Elbir", "Çinarlı" və "Bəhrəli" adlandırılması təklif edilir.

Sənədin müzakirəsində deputatlar Vasif Qafarov, Əlibala Məhərrəmzadə, Elman Məmmədov, Elşən Musayev, Aydın Mirzəzadə, həmçinin Quba bələdiyyəsinin sədri Allahverdi Xudaverdiyev, Timiryazev və Alekseyevka bələdiyyəsinin sədri Elçin Manafov çıxış edərək fikirlərini bildiriblər.

Müzakirənin sonunda qanun layihəsi Milli Məclisin plenar iclasında baxılmaq üçün tövsiyə olunub.

*"Azərbaycan"*



# Hadisələri qabaqlamaq məharəti

Həyatda həqiqət hər zaman mövcud olur.

İstər gizli, istərsə də aşkar şəkildə!

Bəzən həqiqət ciddi sınağa da çəkilir.

Belə ki, onu ucadan söyləməyə qoymurlar!

Hərdən isə əyirlər, təhrif edirlər.

*Hətta gizlədirlər, qırx qıfıl arxasında saxlayırlar.*

*Amma heç zaman məhv edə, yox edə bilmirlər!*

**Həqiqətin də öz zamanı gəlir!**

**Onda onu nə əymək, nə gizlətmək, nə də batırmaq mümkün olur.**

Gec-tez həqiqət təntənə çalır!

Çətinliklə də olsa...

*Uzun sınaqlardan keçsə də, dəfələrlə yox edilmək təhlükəsi ilə qarşılaşsa da...*

*Sonda həqiqət öz təsdiqini tapır!*

**Sonda hamı həqiqətin təntənəsinin şahidinə çevrilir!**

**Qarabağ həqiqətləri kimi!**

*İki əsrdən sonra "dəmir yumruq"la əbədi təsdiqini tapan Qarabağ həqiqətləri kimi!*

❖ ❖ ❖

Hər hansı bir hadisə baş verəndə onun qarşısını almaq, törətdiyi və törədə biləcəyi təhlükələri zərərsizləşdirmək xüsusi bacarıq tələb edir.

Hadisə qəflətən, gözlənilmədən olanda, onunla mübarizə aparmaq müəyyən problem və çətinliklər də doğurur.

Lakin baş verəcəyini irəlicədən biləndə və nəzərə alanda vəziyyətdən daha uğurla çıxmaq olur.

Siyasətdə də belədir.

*Hadisələrin gedişindən baş çıxarmaq, onun nəticəsində yarana biləcək situasiyanı irəlicədən müəyyən etmək, bütün variantları nəzərə alaraq qabaqlayıcı tədbirlər görmək son dərəcə vacibdir!*

**Cənab İlham Əliyevin irəli sürdüyü "Nəyi nə vaxt və necə etmək" tezisi də, əslində, hadisələri irəlicədən görərək onları qabaqlamaq məharətinə söykənir!**

Təəssüf ki, uzun illər boyu Azərbaycan "fakt qarşısında qalmaq", "baş verənlərə tabe olmaq" məcburiyyətində qalmışdı.

❖ ❖ ❖

*Ermənilər vətəndaşı olduqları Türkiyəyə xəyanət edərək müharibə aparan dövlətlərinə arxadan bıçaq vurdular.*

*Türkiyə öz təhlükəsizliyini təmin etmək üçün hayların mütəşəkkil şəkildə köçürülməsi qərarını verdi.*

**Bu halda çar Rusiyası "din qardaşlar"ına sahib çıxaraq onları Azərbaycan ərazisində yerləşdirməyə başladı.**

Əslində, burada başqa gizli niyyətlər də vardı:

*Əvvəla,* Türkiyəyə qarşı platsdarm yaradılırdı və sonradan Rusiyanın burada yerləşdirilən 102-ci hərbi bazası deyilənlərin sübutuna çevrildi.

*İkincisi,* yeni "dövlət" türk dövlətlərini bir-birilərі ilə birləşdirən quru yol *əlaqəsini kəsməklə onları ayrı salırdı, birbaşa ticari və digər əlaqələrini pozurdu.*

Sovet Rusiyası da çar Rusiyasının bu siyasətini "uğurla", amma başqa pərdə altında davam etdirməyə başladı.

Hədəf Azərbaycan torpaqları hesabına Sovet Ermənistanının ərazisini genişləndirmək, onu gücləndirmək, əhalisinin baş sayını artırmaq idi.

Bu niyyətlə Azərbaycanın sərhədləri daxilində DQMV adlı qurum da yaratdı.

Həmin dövrlərdə Moskvada - SSRİ rəhbərliyində A.Mikoyan adlı erməni bicliyinə dərindən bələd olan birisi işləyirdi.

Vəzifəsindən istifadə edən A.Mikoyan sovet hökumətinin ermənilərə himayədar münasibətindən bəhrələnərək Azərbaycana qarşı ədalətsiz, antihumanist qərarlar çıxartdırmağı bacarırdı.

**Məhz belələrinin səyi nəticəsində 1948-1953-cü illərdə Ermənistan ərazisindəki qədim torpaqlarda yaşayan azərbaycanlılar doğma yurdlarından kütləvi şəkildə deportasiya olunaraq Azərbaycana "pambıq becərməyə" göndərildilər.**

Bu cür qərəzli, mənfur məqsədli və antihumanist köçürülmələr XX əsrdə üç dəfə baş verdi:

1918-1921-ci,

1948-1953-cü və

1987-1991-ci illərdə.

*Rusiyanın bu qərəzli siyasəti Ulu Öndər Heydər Əliyev XX əsrin 80-ci illərində Sov. İKP MK Siyasi Bürosunun üzvü seçilənə və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin olunanadək müxtəlif formalarda davam etdi.*

**Heydər Əliyev Moskvada çalışdığı müddətdə bütün bu xain niyyətlərin qarşısını cəsarət və bacarıqla ala bilirdi.**

*Ulu Öndər Heydər Əliyev vəzifədən kənarlaşdırıldıqdan cəmi bir həftə sonra isə yenidən "Qarabağ problemi" gündəmə gətirilərək alovlandırıldı, SSRİ-nin birinci və sonuncu prezidenti, əli Azərbaycan xalqının qanına batmış M.Qorbaçovun dəstəyi ilə Ermənistan tərəfindən ərazilərimizin işğalına başlanıldı!*

❖ ❖ ❖

Azərbaycanı itaət boyunduruğunda saxlamaq, zəngin karbohidrogen ehtiyatlarına sahibliyi davam etdirmək üçün Moskva məkrli "Qarabağ ssenarisini" işə salanda Azərbaycana qorxaqlar və maymaqlar, naşılar və səriştəsizlər, bütövlükdə vəzifə hərisləri və burunlarının ucundan uzağı görməyən "siyasətçilər" başçılıq edirdilər.

Mərkəzin oyunlarını poza bilmədiklərindən erməni marağına xidmət edən ssenariyə uyğun axara düşüb gedir, getdikcə daha da gərginləşən vəziyyətə nəzarəti itirirdilər.

İkibaşlı oyun oynayan Moskva isə gah Qarabağdakı ermənilərin "sosial iqtisadi vəziyyətini yaxşılaşdırmaqdan üçün" Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin qərarını qəbul edir və guya bununla erməniləri sakitləşdirmək istəyir, digər tərəfdən isə onları silahlandırır, ordu yaratmalarına dəstək verir, fasiləsiz mitinqlərinə göz yumurdular.

Halbuki 1990-cı ilin 20 yanvarında sovet ordusunu Bakıya yeridərək dinc sakinlərə divan tutmaqla Azərbaycandakı etiraz aksiyalarını qanda boğmuşdular.

**Başqa bir oyunbazlıq isə Qarabağ münaqişəsinin "sülh yolu ilə çözülməsi" üçün ATƏT-in Minsk qrupunun yaradılması oldu.**

* Guya bu qurum BMT-nin Təhlükəsizlik Şurasının 4 qətnaməsini yerinə yetirəcəkdi...
* Guya bu qurum münaqişəni beynəlxalq hüquq əsasında həll edəcəkdi...
* Guya bu qurum pozulan ədaləti bərpa edəcəkdi.

*Bu gün də korrupsiya və rüşvətxorluq bataqlığında boğulan, erməni diasporunun pullarını alaraq ədalətsiz qərarlar qəbul edən Avropa qurumlarından obyektiv və ədalətli addımlar gözləmək mümkündürmü?!*

Amma həmin vaxtlarda biz hamımız dünyanın ədalətinə, beynəlxalq hüququn aliliyinin təmin ediləcəyinə inanırdıq...

İnanırdıq ki, haqq-ədalət tezliklə öz yerini tutacaq, zorakılıq yolu ilə ərazisinin iyirmi faizi işğal olunan Azərbaycanın haqq işi müdafiə olunacaq, məcburi köçkünə çevrilmiş bir milyonadək insan doğma el-obasına qayıdacaqdır.

Amma bunun heç birisi baş vermədi.

**Görüb-götürəcəyimiz ATƏT-in Minsk qrupunun xalq arasında ironiya ilə qarşılanan "donuz kababı və tut arağı diplomatiyası" oldu.**

Bununla belə digər çox mühüm tarixi hadisələr də baş verdi.

*Ulu Öndər Heydər Əliyev xalqın arzu və tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıtdı, xaos, anarxiya və özbaşınalıqlara son qoydu, ölkədə möhkəm və dönməz sabitlik yaratdı, "Əsrin müqaviləsi" imzalatdı, Azərbaycanın müstəqilliyini əbədiliyə çevirərək özü də əbədiyyətə qovuşdu!*

**Onun layiqli siyasi varisi İlham Əliyevin dövründə də çox mühüm hadisələrin şahidinə çevrildik.**

*Ən əsası, cənab İlham Əliyev münaqişənin ATƏT-in Minsk qrupu tərəfindən sülh yolu ilə həll olunmayacağına inamını itirdiyindən digər vasitəyə üstünlük verərək ciddi hazırlıq işlərinə başladı.*

BELƏ Kİ:

* Tarixinin ən qüdrətli Azərbaycanını yaratdı!
* Yeni gənclər nəsli yetişdirərək onların iştirakı ilə güclü ordu qurdu!
* Ordunu ən müasir texnologiyalara əsaslanan yeni növ silahlarla silahlandırdı!
* Müntəzəm təlimlər keçirərək əsgər və zabitlərimizin peşəkarlığını və döyüş qabiliyyətini daim yüksəltdi.
* Hücum diplomatiyasını tətbiq edərək beynəlxalq təşkilatlarda işi gücləndirdi!
* Dördgünlük Aprel müharibəsində isə yeni ordunu sınaqdan keçirməklə düşmənə son xəbərdarlıqlarını etdi!

**Bütün bunlarla bərabər, uğuruna və müsbət nəticə verəcəyinə inanmadığı "sülh danışıqları"ndan da imtina etmədi!**

* Çünki bu zaman Azərbaycan sülhdən imtina edən dövlət kimi təzyiqlərə məruz qala bilərdi.
* Çünki ermənipərəstlərin əlinə ölkəmizə qarşı təzyiqlər üçün yeni imkanlar düşərdi.
* Çünki dünya tərəfindən özgə torpağını işğal edən Ermənistan yox, "sülhdən boyun qaçıran Azərbaycan" hədəfə çevrilərdi.

*Beləliklə, ATƏT-in Minsk qrupu mütəmadi şəkildə "turist səfərləri"ni davam etdirir, beynəlxalq hüquq ayaqlar altında tapdalanır, separatçılar isə özlərinə "respublika" quraraq "prezident", "parlament" seçkiləri keçirir, xarici ölkələrə səfərlərə çıxaraq müxtəlif səviyyəli görüşlər keçirirdilər.*

❖ ❖ ❖

**Düşmənin digər bir taktikası ilə Qarabağın işğalının unutdurulması idi.**

Heç vaxt özlərinin torpağı və vətəni olmayan, yalnız mifik "böyük Ermənistan" xülyası ilə yaşayan haylar öz ağılları ilə belə güman edirdilər ki, münaqişənin həlli uzanarsa, torpağa qayıdış "yaddan çıxar", Qarabağı görməyən azərbaycanlı gənclər Qarabağ uğrunda döyüşmək istəməzlər!

*Ancaq Azərbaycan dövləti Qarabağın unudulmasına yol vermədi, Azərbaycan xalqı isə əsla torpaqlarını işğaldan azad etmək niyyətindən əl götürmədi!*

* Mətbuat daim Qarabağdan yazdı!
* Hər il işğal günləri keçirilərək daim yaddaşlar təzələndi!
* Yeni qaçqın şəhərcikləri tikilərək məcburi köçkünlərin həyat şəraiti daim yaxşılaşdırılsa da, onların təzə ünvanda müvəqqəti yaşadıqları beyinlərinə yeridildi!
* Dövlət başçısı cənab İlham Əliyev bütün görüş və çıxışlarında, nitqlərində "Biz bir qarış torpağımızı belə kimsəyə güzəştə getməyəcəyik", "Biz Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəyik", "Nəyin bahasına olursa olsun, doğma torpaqlara qayıdacağıq" fikrini dönə-dönə təkrarladı!

**Böyük uzaqgörənlik və bəsirət sahibi olan cənab İlham Əliyev baş verəcək bütün hadisələri çox-çox irəlicədən görməyi və məharətlə qabaqlamağı bacardı!**

❖ ❖ ❖

Aprel "şapalağı" Azərbaycan Ordusunun torpaqları işğaldan azad edə biləcəyini əyani şəkildə göstərdi!

Lakin Ermənistan bundan lazımi nəticəni çıxarmadı.

Əksinə, Ermənistanın yeni rəhbəri N.Paşinyan bizi qorxutmaq üçün "hədə-qorxu taktikası"na əl atdı.

"Yeni müharibə, yeni ərazilərin işğalı olacaq" fikri səsləndirildi.

Daha sonra Xankəndidə içib sərxoş olaraq "Qarabağ Ermənistandır və nöqtə" söylədi.

Bununla təkcə ermənilərə deyil, bütün dünyaya bəyan edirdi ki, artıq məsələ bitib, Qarabağ faktiki onlarınkıdır.

**İlham Əliyev erməni baş nazirinin bu lovğa bəyanatından məharətlə istifadə etdi.**

Əvvəl Soçidə keçirilən "Valday" Beynəlxalq Diskussiya Klubunda, sonra isə Münxen Beynəlxalq Təhlükəsizlik Konfransında çıxış edərək onun cavabını verdi:

"Qarabağ Azərbaycandır və nida işarəsi"!

*Lakin bunlar sadəcə söz olaraq qalmadı!*

**Əvvəla, cənab İlham Əliyev dünyanın ictimai fikrinə məhz Paşinyanın sülh danışıqlarından imtina etdiyini və belə danışıqların mənasızlığını çatdırdı.**

**Əslində, münaqişənin hərbi həll variantına yönəldilməsinin baiskarının məhz Ermənistan olduğunu dəfələrlə vurğuladı!**

**Sonralar Ermənistanın atdığı hər qudurğan və ağılsız addımların da cavabını İlham Əliyev böyük uzaqgörənlik və müdrikliklə, səbir və təmkinlə verdi!**

Tovuz bölgəsində təxribatlar törədilərək atəşkəs pozulanda bunun Azərbaycandan Avropaya uzanan neft və qaz kəmərləri üçün ciddi təhlükə olduğunu bəyan etdi.

*Bu taktika hərbi əməliyyatlar dövründə də davam etdirildi.*

❖ ❖ ❖

Azərbaycan əks-hücuma keçən zaman Ermənistan cəbhə bölgəsindən kilometrlərlə uzaqda yerləşən Gəncə, Tərtər, Bərdə, Goranboy rayonlarına ballistik raketlər atanda, qadağan olunmuş fosforlu və kassetli bombalardan istifadə edəndə ordumuz Qarabağdakı erməni yaşayış məntəqələrini analoji vasitələrlə atəşə tutmadı, dinc əhaliyə tələfat yaşatmadı!

Bununla həm də "beynəlxalq hüquq müdafiəçilərinin" əlinə dəstavüz vermədi!

**Əksinə, bu faktları erməni vəhşiliyinin ifşasında mühüm alətə çevirdi.**

*Başqa bir misal.*

*N.Paşinyan KTMT-yə böyük ümidlər bəsləyirdi.*

Bu da təsadüfi deyildi.

KTMT Rusiya tərəfindən yaradılıb və təşkilatda əsas söz sahibi də Rusiyadır!

O da kimsəyə sirr deyil ki, torpaqlarımızın işğalı məhz rus ordusu, rus hərbçiləri tərəfindən həyata keçirilib.

Müntəzəm şəkildə Rusiya tərəfindən aşkar-gizli, pullu-pulsuz silahlandırılan ermənilər isə "pərdə" rolunu oynayıblar.

**Heç zaman 3 milyonluq Ermənistan 10 milyon əhalisi və böyük iqtisadi potensialı olan Azərbaycandan torpaq ala bilməzdi!**

Kifayət qədər gücü və imkanları olan Azərbaycan Ordusu 44 günlük müharibədə düşməni diz çökdürəndən sonra Ermənistanın sərhədini keçərək Qarabağ və Şərqi Zəngəzurda 30 ildə törədilən vəhşiliklərin əvəzini çıxa bilərdi!

Amma bunu da etmədi!

Heç zaman dinc əhalinin yaşadığı əraziləri hərbi hədəfə çevirmədi!

Əksinə...

Ermənistan hərbi əməliyyatların dayandırılmasını istədikdə və Azərbaycan Prezidenti İlham Əliyevin şərtini yerinə yetirərək öz qoşunlarının ərazimizdən çıxma qrafikini təqdim etdikdə döyüşləri dayandırdı, erməni qoşunlarının Ağdam, Laçın və Kəlbəcərdən döyüşsüz çıxmalarına imkan verdi.

19-20 sentyabr 2023-cü ildə keçirilən 23 saatlıq antiterror əməliyyatından sonra isə ağ bayraq qaldıraraq təslim olan qeyri-qanuni hərbi birləşmələrinin və Azərbaycan qanunları əsasında ölkəmizdə yaşamaq istəməyən ermənilərin sakit və təhlükəsiz şəkildə ərazilərimizi tərk etmələrinə şərait yaratdı.

Daha bir maraqlı detal...

Laçın yolunu bağladıqdan və öz nəzarətimizə aldıqdan, habelə erməni hərbi birləşmələrinin və Ermənistanın pasportunu daşıyan hayların ərazilərimizdən təmizlənməsindən sonra Rusiya sülməramlılarının görəcəyi bir iş qalmamışdı...

**Faktiki olaraq Azərbaycan bütün məsələləri öz gücü və imkanları hesabına həll etmişdi.**

*Bütün bunlardan sonra RSK Azərbaycan ərazisində gərəksiz hərbi quruma çevrilmişdi.*

Odur ki, sakit bir şəkildə, musiqi sədaları altında müstəqil Azərbaycanı tərk etdilər.

❖ ❖ ❖

**İlham Əliyevin daha bir müdrik və uzaqgörən addımı Azərbaycanın qalib dövlət olmasına baxmayaraq, sülh müqaviləsi bağlanılması təklifini irəli sürməsi oldu!**

Bundan ötrü beynəlxalq hüququn mühüm prinsiplərinə əsaslanan sülh şərtləri hazırlanaraq qarşı tərəfə göndərildi.

Əslində, Azərbaycan özgə torpaqlarında gözü olmadığını, Cənubi Qafqazı sülh və əməkdaşlıq məkanına çevirmək istədiyini əməli şəkildə təsdiqləmiş oldu!

*Eyni zamanda bölgədə müharibə tonqalını qaynar vəziyyətdə saxlamaq niyyətinin, habelə Azərbaycana qarşı yeni mənfur planların icrası istəklərinin və cəhdlərinin qarşısını irəlicədən almış oldu!*

**Hadisələrin sonrakı inkişafı Azərbaycan Prezidentinin nə qədər müdrik və uzaqgörən olduğunu dönə-dönə təsdiqlədi!**

*Ermənistanın dostlarının və havadarlarının mənfur istək və arzularına isə ABŞ Prezidenti D.Trampın iştirakı ilə 8 avqust 2025-ci ildə Vaşinqtonda Ağ Evdə keçirilən imzalanma mərasimində əldə olunan rəsmi razılaşmalarla son qoyuldu!*

Cənubi Qafqazda sülhə qarşı olanlar səslərini içəri salmalı oldular!

**Bununla həm də Tramp marşrutu (TRIPP) adlandırılan Zəngəzur dəhlizinin açılması yolundakı bütün gizli və aşkar maneələr birdəfəlik aradan qaldırıldı!**

Artıq bununla bağlı görülən əməli işlərin sürəti və miqyası günbəgün artır!

❖ ❖ ❖

**Azərbaycan Prezidenti İlham Əliyev son dövrlərdə mətbuata verdiyi açıqlamalarda və çıxışlarında yeni bir həqiqəti dəfələrlə vurğulayıb:**

* Artıq dünyada beynəlxalq hüquq işləmir!
* Kim güclüdürsə, o üstündür!
* Güclülər qalib gəlir!

Bəli, artıq elə bir dövr gəlib ki, hətta həqiqət sənin tərəfində olsa da belə, onu həyata keçirmək üçün mütləq güclü olmalısan!

Güclü olmaq üçün isə təkcə möhkəm əzələyə, qüdrətli orduya sahib olmaqla kifayət etmir!

*Ən əsası ağıllı, uzaqgörən siyasət yürütməyi, hadisələri qabaqlamağı, baş verəcəkləri irəlicədən müəyyən etməyi bacaran və qabaqlayıcı tədbirləri məharətlə həyata keçirən rəhbərin də olmalıdır!*

**Müzəffər Ali Baş Komandan İlham Əliyev kimi!**

**Bəxtiyar SADIQOV**

1923 *Azərbaycanın özü qədər əbədi* 2026

# Əbədiyaşar Liderin tükənməz irsi: etibarlı gələcəyin sağlam bünövrəsi

**Ulu Öndər Heydər Əliyev dövlətçilik təfəkkürünü yeni mərhələyə yüksəldən, milli maraqların qorunmasını və inkişafını strateji xəttə çevirən müdrik siyasi lider kimi tarixdə silinməz iz qoymuşdur. Onun fəaliyyəti milli maraqların qorunması ilə yanaşı, uzunmüddətli inkişafın sarsılmaz təməllər üzərində qurulması ilə səciyyələnir. Ümummilli Liderin dərin təhlilə əsaslanan qərarları, çevik idarəetmə bacarığı və qlobal prosesləri düzgün qiymətləndirməsi nəticəsində sabitlik, təhlükəsizlik və tərəqqi üçün möhkəm strateji model formalaşdırılmışdır.**

Heydər Əliyevin sovet dövründəki fəaliyyəti respublikanın sosial-iqtisadi həyatında köklü dəyişikliklərə səbəb olmuşdur. Onun rəhbərliyi dövründə sənaye istehsalı əhəmiyyətli dərəcədə artmış, yeni sənaye sahələri yaradılmış və mövcud müəssisələr müasir texnologiyalar əsasında yenilənmişdir. Xüsusilə neft-kimya, maşınqayırma və energetika sahələrində əldə olunan nailiyyətlər iqtisadi potensialın möhkəmlənməsinə xidmət etmişdir. Kənd təsərrüfatında aparılan islahatlar məhsuldarlığın yüksəlməsinə, kənd əhalisinin sosial vəziyyətinin yaxşılaşmasına səbəb olmuşdur. Bununla yanaşı, regionların inkişafı istiqamətində kompleks proqramlar həyata keçirilmiş, yollar, kommunikasiya xətləri və sosial obyektlər tikilmişdir. Təhsil və elm sahəsində aparılan siyasət nəticəsində milli kadr potensialı gücləndirilmiş, gənclərin ittifaqın aparıcı ali məktəblərində təhsil alması təmin olunmuşdur ki, bu da gələcəkdə dövlət idarəçiliyində və müxtəlif sahələrdə peşəkar mütəxəssislərin formalaşmasına şərait yaratmışdır.

1993-cü ilin iyun ayında Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı dövlətin mövcudluğunu təhlükə altına alan proseslərin qarşısını almaq baxımından həyati əhəmiyyət daşıyırdı. Həmin dövrdə siyasi qeyri-sabitlik, iqtisadi tənəzzül və vətəndaş qarşıdurması təhlükəsi cəmiyyətin bütün sahələrinə ciddi təsir göstərirdi. Heydər Əliyevin qətiyyətli və uzaqgörən siyasəti nəticəsində qısa müddət ərzində ölkədə sabitlik təmin edildi, dövlət idarəetməsi bərpa olundu və ictimai inam yenidən formalaşdı.

1994-cü il mayın 12-də Ermənistan ilə Azərbaycan arasında atəşkəs razılaşmasının əldə olunması hərbi qarşıdurmanın intensivliyini azaltmaqla yanaşı, ölkənin daxili potensialının inkişafına yönəlməsi üçün əlverişli imkanlar yaratdı. Bu mərhələdə diqqət daha çox iqtisadi dirçəlişə, sosial məsələlərin həllinə və dövlət qurumlarının möhkəmləndirilməsinə yönəldildi. Sülh mühitinə yaxınlaşma investisiya mühitinin yaxşılaşmasına və beynəlxalq tərəfdaşlarla əməkdaşlığın genişlənməsinə də müsbət təsir göstərdi.

1994-cü il sentyabrın 20-də imzalanan "Əsrin müqaviləsi" uzunmüddətli enerji strategiyasının əsasını formalaşdıran fundamental sənəd kimi dəyərləndirilir. Bu sazişin imzalanması ilə ölkənin zəngin neft-qaz ehtiyatlarının beynəlxalq enerji bazarlarına inteqrasiyası təmin olundu, Xəzər hövzəsinin enerji potensialı qlobal miqyasda strateji əhəmiyyət qazandı. Saziş çərçivəsində dünyanın aparıcı enerji şirkətləri ilə qarşılıqlı etimada əsaslanan uzunmüddətli əməkdaşlıq münasibətləri quruldu. Boru kəmərlərinin çəkilməsi və alternativ ixrac marşrutlarının formalaşdırılması ölkənin enerji təhlükəsizliyini gücləndirməklə yanaşı, onu beynəlxalq enerji xəritəsində mühüm tranzit mərkəzinə çevirdi. Bütün bu proseslər yalnız iqtisadi artımı sürətləndirməklə kifayətlənmədi, eyni zamanda ölkənin geosiyasi mövqeyini əhəmiyyətli dərəcədə gücləndirdi, beynəlxalq münasibətlər sistemində ölkəmizin strateji tərəfdaş kimi rolunu möhkəmləndirdi və uzunmüddətli sabit inkişaf üçün etibarlı baza formalaşdırdı.

1995-ci il noyabrın 12-də referendum (ümumxalq səsverməsi) nəticəsində qəbul olunan Konstitusiya hüquqi dövlət quruculuğunun əsasını təşkil edən mühüm sənəd kimi tarixə düşdü.

Ordu quruculuğu sahəsində həyata keçirilən islahatlar milli təhlükəsizliyin təmin olunmasında həlledici rol oynadı. Silahlı qüvvələrin strukturunun təkmilləşdirilməsi, vahid komandanlıq sisteminin yaradılması və döyüş hazırlığının artırılması istiqamətində ardıcıl addımlar atıldı. Ordunun maddi-texniki bazası gücləndirildi, müasir silah və texnika ilə təminat yaxşılaşdırıldı, hərbi kadrların hazırlanması sistemli xarakter aldı. Bu siyasət gələcəkdə güclü və peşəkar ordu modelinin formalaşmasına mühüm töhfə verdi.

Sosial müdafiə sisteminin gücləndirilməsi, əməkhaqlarının və pensiyaların artırılması, əhalinin rifah səviyyəsinin yüksəldilməsi istiqamətində kompleks proqramlar icra olundu.

Heydər Əliyevin rəhbərliyi dövründə səhiyyə sahəsində həyata keçirilən islahatlar sistemli yanaşma və strateji məqsədlərə əsaslanaraq həyata keçirilmişdir. Bu sahədə əsas prioritet əhalinin sağlamlığının qorunması, tibbi xidmətlərin keyfiyyətinin artırılması və səhiyyə sisteminin müasir tələblərə uyğunlaşdırılması olmuşdur. Mövcud səhiyyə infrastrukturunun yenilənməsi istiqamətində geniş tədbirlər görülmüş, yeni xəstəxanalar və poliklinikalar tikilmiş, köhnə tibb müəssisələri əsaslı şəkildə yenidən qurulmuşdur. Bu proses nəticəsində tibbi xidmətlərin göstərilməsi üçün müasir və funksional mühit yaradılmışdır.

Regionlarda səhiyyə xidmətlərinin əlçatanlığının artırılması məqsədilə xüsusi proqramlar həyata keçirilmişdir. Kənd və rayonlarda yaşayan əhalinin tibbi xidmətlərə çıxış imkanları genişləndirilmiş, tibb müəssisələrinin maddi-texniki təminatı gücləndirilmişdir. Bununla yanaşı, səhiyyə sahəsində çalışan mütəxəssislərin bölgələrdə fəaliyyətə cəlb olunması üçün stimullaşdırıcı tədbirlər görülmüşdür ki, bu da regionlar arasında səhiyyə xidmətlərinin keyfiyyət fərqinin azalmasına səbəb olmuşdur.

Əhalinin sağlam həyat tərzinə təşviqi, xəstəliklərin erkən diaqnostikası və qarşısının alınması məqsədilə genişmiqyaslı maarifləndirmə kampaniyaları həyata keçirilmişdir. Peyvənd proqramlarının genişləndirilməsi, kütləvi tibbi müayinələrin təşkili və epidemioloji nəzarətin gücləndirilməsi nəticəsində yoluxucu xəstəliklərin yayılmasının qarşısı alınmış, ümumi sağlamlıq göstəriciləri yaxşılaşmışdır.

Tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi üçün müasir texnologiyaların tətbiqinə xüsusi diqqət yetirilmişdir. Diaqnostika və müalicə sahəsində qabaqcıl avadanlıqların istifadəsi təmin edilmiş, innovativ tibbi metodlar tətbiq olunmuşdur. Eyni zamanda tibb işçilərinin peşəkarlıq səviyyəsinin artırılması üçün ixtisasartırma proqramları həyata keçirilmiş, onların beynəlxalq təcrübə ilə tanış olmaları üçün imkanlar yaradılmışdır.

Əczaçılıq sahəsində aparılan islahatlar nəticəsində dərman təminatı sistemi təkmilləşdirilmiş, keyfiyyətli və təhlükəsiz dərman vasitələrinin əhaliyə çatdırılması təmin edilmişdir. Ana və uşaq sağlamlığının qorunması istiqamətində həyata keçirilən tədbirlər xüsusi əhəmiyyət daşıyırdı. Doğum evlərinin fəaliyyəti təkmilləşdirilmiş, ana və uşaqlara göstərilən tibbi xidmətlərin keyfiyyəti artırılmışdır. Bu sahədə həyata keçirilən proqramlar sağlam nəslin yetişdirilməsinə və demoqrafik göstəricilərin yaxşılaşmasına mühüm töhfə vermişdir.

Təhsil sahəsində aparılan islahatlar ölkənin uzunmüddətli inkişaf strategiyasının ən mühüm istiqamətlərindən biri kimi insan kapitalının formalaşmasına yönəlmişdir. Bu siyasət çərçivəsində təhsil sisteminin maddi-texniki bazasının gücləndirilməsi, tədris müəssisələrinin müasir standartlara uyğun yenidən qurulması və yeni məktəb binalarının inşası geniş vüsət almışdır. Tədris prosesinin keyfiyyətinin yüksəldilməsi məqsədilə təhsil proqramları yenilənmiş, müasir pedaqoji yanaşmalar və innovativ metodlar tətbiq olunmuşdur ki, bu da şagirdlərin bilik və bacarıqlarının effektiv şəkildə inkişafına şərait yaratmışdır. Eyni zamanda müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilmiş, onların ixtisasartırma kurslarına cəlb olunması və müasir təhsil texnologiyalarından istifadə bacarıqlarının inkişaf etdirilməsi təmin olunmuşdur. Gənclərin beynəlxalq təhsil proqramlarında iştirakının genişləndirilməsi isə ölkədə yüksəkixtisaslı kadr potensialının formalaşmasına mühüm töhfə vermiş, bilik mübadiləsi və elmi əməkdaşlıq imkanlarını genişləndirmişdir.

Xarici siyasət strategiyası milli maraqların qorunması ilə yanaşı, qlobal əməkdaşlıq mühitində fəal və etibarlı iştirakın təmin olunmasına yönəlmişdir. Bu strategiyanın əsasını balanslaşdırılmış və çoxtərəfli diplomatik yanaşma təşkil etmiş, müxtəlif dövlətlərlə qarşılıqlı faydalı münasibətlərin qurulması prioritet istiqamət kimi müəyyən edilmişdir. Enerji resurslarının dünya bazarlarına çıxarılması və nəqliyyat dəhlizlərinin inkişafı vasitəsilə beynəlxalq iqtisadi sistemə inteqrasiya daha da gücləndirilmiş, ölkənin strateji mövqeyi əhəmiyyətli dərəcədə yüksəlmişdir. Beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi, diplomatik əlaqələrin şaxələndirilməsi və qlobal təşəbbüslərdə fəal iştirak nəticəsində ölkənin beynəlxalq nüfuzu artmış, etibarlı tərəfdaş imici möhkəmlənmişdir.

Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən hərtərəfli islahatlar, o cümlədən güclü ordu quruculuğu və müasir idarəetmə modeli nəticəsində ölkəmiz yeni inkişaf mərhələsinə yüksəlmişdir. 44 günlük Vətən müharibəsində qazanılmış tarixi Zəfər bu siyasətin real nəticəsi kimi tarixə düşmüş, uzun illər davam edən münaqişəyə son qoyulmuşdur. 2023-cü il sentyabrın 19-20-də həyata keçirilən lokal xarakterli antiterror əməliyyatları nəticəsində isə dövlət suverenliyi tam təmin olunmuş, bütün ərazilərdə konstitusiya quruluşu bərqərar edilmişdir. Şanlı qələbələr həm güclü siyasi iradənin, həm də sistemli şəkildə formalaşdırılmış dövlət strategiyasının məntiqi nəticəsi olmuşdur.

Zəfər yolunun davamı olaraq azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma işləri həyata keçirilir və bu proses Böyük qayıdış proqramı çərçivəsində sistemli şəkildə icra olunur. İşğaldan azad edilmiş şəhər və kəndlərdə müasir urbanistik yanaşmalar tətbiq edilir, infrastruktur tamamilə yenidən qurulur, yollar, elektrik və su təchizatı sistemləri, rabitə xətləri və sosial obyektlər ən müasir standartlara uyğun şəkildə bərpa edilir. Eyni zamanda "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının tətbiqi ilə müasir yeni yaşayış məntəqələri yaradılır, dayanıqlı enerji mənbələri və rəqəmsal idarəetmə sistemləri qurulur. Məcburi köçkünlərin mərhələli şəkildə doğma torpaqlarına qayıdışı üçün yaşayış kompleksləri inşa olunur, məşğulluq imkanları genişləndirilir və sosial infrastruktur tam şəkildə formalaşdırılır.

*Müasir dövrdə əldə olunan bütün uğurların əsasında Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi strateji inkişaf xətti dayanır. Bu kursun ardıcıl şəkildə davam etdirilməsi dövlətin güclənməsini, sabitliyin qorunmasını və gələcək inkişaf perspektivlərinin genişlənməsini təmin edən əsas amil kimi çıxış edir.*

***Rəşad MAHMUDOV,***
***Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini***



# Heydər Əliyev strategiyası: zəfərin başlanğıcı

**Ulu Öndər Heydər Əliyev deyirdi ki, "Müstəqilliyi qorumaq üçün güclü dövlət, güclü ordu və milli birlik lazımdır." Təsadüfi deyil ki, Azərbaycanın müstəqilliyini qoruyan, ölkəmizin beynəlxalq nüfuzunu möhkəmləndirən, davamlı iqtisadi modelin formalaşmasına zəmin yaradan məhz görkəmli dövlət xadimi, nəhəng siyasətçi Heydər Əliyevin siyasi iradəsi, strateji düşüncəsi oldu. Müstəqilliyin bərpasının ilk illərində siyasi qeyri-sabitlik, iqtisadi tənəzzül, tarixi torpaqların işğalı, daxili ziddiyyətlər dövlətin mövcudluğunu təhlükə altına qoymuşdu. 1993-cü ilin iyununda Heydər Əliyevin xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə qayıtması ilə daxili çəkişmələrə son qoyuldu, dövlət institutları gücləndirildi, hüquqi çərçivə yaratmaq üçün fundamental addımlar atıldı. 1995-ci ildə Konstitusiyanın qəbul edilməsi isə demokratik, hüquqi dövlətin qurulması istiqamətində mühüm addım idi. Bu tədbirlər sayəsində Azərbaycan uzunmüddətli inkişafını təmin etdi. Nüfuzlu dünya siyasətçiləri tərəfindən də Heydər Əliyev postsovet məkanında həm daxili sabitliyi təmin etməyi, həm də böyük güclər arasında balanslı siyasət yürütməyi bacaran nadir siyasətçi kimi qiymətləndirilir.**

Ulu Öndər Azərbaycanın geosiyasi mövqeyindən səmərəli istifadə edərək ölkəni beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaşa çevirdi. Əsas strateji addımlardan biri beynəlxalq şirkətlərin Xəzər dənizinin enerji ehtiyatlarına çıxışını təmin edən "Əsrin müqaviləsi"nin imzalanması oldu. Bu sənəd Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyasında dönüş nöqtəsi idi. Bu müqavilə yalnız iqtisadi deyil, həm də siyasi əhəmiyyət daşıyırdı. Dünyanın aparıcı şirkətləri və dövlətləri ilə qurulan əməkdaşlıq Azərbaycanın beynəlxalq nüfuzunu artırdı, ölkənin təhlükəsizlik zəmanətlərini gücləndirdi. Azərbaycan qısa müddətdə beynəlxalq təşkilatlarda fəal iştirak edən, regional və qlobal layihələrdə söz sahibi olan bir dövlətə çevrildi. Bu addım investisiya axınını təmin etdi, infrastrukturun inkişafını və ölkənin iqtisadi müstəqilliyini gücləndirdi.

Ulu Öndərin iqtisadi siyasəti uzunmüddətli strateji planlaşdırmaya və təbii sərvətlərdən səmərəli istifadəyə əsaslanırdı. Neft və qaz sektorunun inkişafı iqtisadi artımın hərəkətverici qüvvəsinə çevrildiyi vaxtda ona paralel olaraq iqtisadi şaxələndirməyə də xüsusi diqqət yetirilirdi. Əlverişli investisiya mühitinin yaradılması, struktur islahatları və özəl sektorun inkişafı dayanıqlı iqtisadiyyatın formalaşmasına töhfə verdi. Genişmiqyaslı infrastruktur layihələri həyata keçirildi, nəqliyyat və enerji sistemləri modernləşdirildi. Azərbaycan tədricən regional iqtisadi mərkəzə çevrildi, enerji təhlükəsizliyi və nəqliyyat kommunikasiyalarında vacib rol oynadı. Bu, ölkəmizə təkcə daxili sabitliyi təmin etmək üçün yox, həm də beynəlxalq səhnədə təsirini gücləndirməyə imkan verdi. Beləliklə, Heydər Əliyevin liderliyi postsovet məkanında sabitləşdirici faktor kimi dəyərləndirilirdi.

Təbii ki, bu intensiv inkişafın fonunda milli kimliyin qorunması, dövlətçilik şüurunun möhkəmləndirilməsi və cəmiyyətin vahid məqsədlər ətrafında birləşdirilməsi Ulu Öndərin müəyyən etdiyi siyasətin əsas prioritetlərindən biri idi. Bu xüsusda Azərbaycançılıq ideyasının sistemli şəkildə formalaşdırılması və dövlət siyasəti səviyyəsinə yüksəldilməsi məhz xalqımızın Ümummilli Liderinin adı ilə bağlıdır.

Milli-mənəvi dəyərləri, tarixə bağlılığı, dövlətə sədaqəti və vətəndaş həmrəyliyini özündə birləşdirən bu ideoloji platforma Heydər Əliyev tərəfindən müasir dövrün tələblərinə uyğun şəkildə formalaşdırılaraq milli ideologiya səviyyəsinə yüksəldi. Azərbaycançılıq müxtəlif etnik və dini mənsubiyyətə malik insanların vahid dövlət və ümummilli maraqlar ətrafında birləşməsini təmin edən bir ideyadır. Bu, xüsusilə çoxmillətli və çoxkonfessiyalı Azərbaycan cəmiyyətində sabitliyin və harmoniyanın qorunmasında mühüm rol oynayır.

Bu gün azərbaycançılıq ideologiyası müstəqil Azərbaycanın inkişaf strategiyasının əsas istiqamətlərindən biri olaraq qalır. Qloballaşma şəraitində milli kimliyin qorunması, informasiya təsirlərinə qarşı dayanıqlılığın artırılması və milli maraqların müdafiəsi baxımından bu ideologiyanın əhəmiyyəti daha da artır.

Azərbaycançılıq həm daxili sabitliyin təminatçısı, həm də xarici siyasətdə milli maraqların qorunmasının ideoloji dayağı kimi çıxış edir.

Bu gün Azərbaycanın əldə etdiyi uğurlar, cəmiyyətin sabitliyi və milli həmrəyliyi məhz bu ideologiyanın düzgün və ardıcıl şəkildə həyata keçirilməsinin nəticəsidir.

Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında dövlət siyasətinin vacib sahələrindən biri də gender bərabərliyinin təmin edilməsi və qadınların səlahiyyətləndirilməsi idi. "Bizim ən böyük amalımız qadınlarımızı azad, xoşbəxt, fəal və nikbin, uşaqlarımızı sağlam, gümrah, şən və hər cəhətdən təmin olunmuş görməkdən ibarətdir", - deyən Ulu Öndər Heydər Əliyev qadınların ictimai və siyasi həyatda iştirakını dayanıqlı inkişafın vacib istiqaməti kimi görürdü. Bu istiqamətdə 1998-ci ildə müvafiq dövlət komitəsinin yaradılması ilə institusional baza formalaşdı və bu proses sonradan gender bərabərliyi üzrə dövlət mexanizmlərinin genişlənməsinə gətirib çıxardı. Gender məsələləri dövlət siyasətinin ayrılmaz hissəsidir və qanunvericilik səviyyəsində qadın hüquqları daha aydın şəkildə qorunur. Həmçinin qadınların ictimai-siyasi həyatda iştirakı artmaqdadır. Azərbaycanda qadınlar parlamentdə, dövlət idarəçiliyində, bələdiyyələrdə və müxtəlif rəhbər vəzifələrdə təmsil olunurlar, həmçinin nüfuzlu beynəlxalq təşkilatlarda Azərbaycanı layiqincə təmsil edirlər. Bu fəaliyyətin ən uğurlu nümunəsi Birinci vitse-prezident, ölkənin birinci xanımı Mehriban Əliyevadır.

Mehriban xanım öz yüksək ictimai-siyasi fəallığı, dərin intellekti, geniş dünyagörüşü, xeyriyyəçilik fəaliyyəti ilə Azərbaycan qadınının parlaq obrazını beynəlxalq aləmə təqdim etməkdədir. Təsadüfi deyil ki, son illər qızların ali təhsilə çıxışı genişlənib, elm və təhsil sahəsində qadınların sayı artıb. Bu isə uzunmüddətli perspektivdə cəmiyyətin intellektual potensialına müsbət təsir göstərir. Bundan əlavə, gender bərabərliyi ilə bağlı ictimai şüur da təkmilləşib. Qadınların hüquqları, onların cəmiyyətdə rolu və gender balansı məsələləri artıq daha açıq müzakirə olunur. Bu isə sosial münasibətlərdə daha sağlam və bərabər mühitin formalaşmasına kömək edir. Beləliklə, Azərbaycan qadınları elm və təhsildən tutmuş siyasətə, biznesə qədər müxtəlif sahələrdə özünü ifadə etmək üçün daha geniş imkanlar əldə ediblər. Bu yanaşma daha ədalətli və inklüziv cəmiyyətin formalaşmasına töhfə verməkdədir.

Heydər Əliyev siyasi irsi bu gün də Azərbaycanın inkişafına təsir göstərməkdə davam edir. Ümummilli Liderin əsasını qoyduğu dövlət idarəçiliyi, iqtisadi siyasət və beynəlxalq münasibətlər prinsipləri aktuallığını qoruyub saxlayır. Bu fəaliyyət yalnız bir dövrü əhatə etməklə məhdudlaşmır. Onun müəyyən etdiyi strateji kurs bu gün də Azərbaycanın inkişafının əsasını təşkil edir. Dövlətçilik ənənələrinin formalaşdırılması, milli maraqların qorunması və müasir idarəçilik prinsiplərinin tətbiqi Ümummilli Liderin mirasının əsas elementləridir. Onun yaratdığı siyasi və iqtisadi baza Azərbaycanın gələcək inkişafı üçün möhkəm zəmin hazırladı. Bu gün Azərbaycan regionda sabitlik, inkişaf və əməkdaşlıq mərkəzi kimi çıxış edir.

Azərbaycanın müasir tarixində əldə olunan ən mühüm nailiyyətlərdən biri ölkəmizin ərazi bütövlüyünün təmin olunması və suverenliyinin tam bərpasıdır. Bu tarixi uğur uzun illər ərzində formalaşdırılmış strateji xəttin, siyasi iradənin və uzaqgörən dövlətçilik konsepsiyasının məntiqi nəticəsidir.

Heydər Əliyevin uzaqgörən siyasətinin mühüm istiqamətlərindən biri Azərbaycanın mövqeyinin beynəlxalq hüquq müstəvisində möhkəmləndirilməsi idi. Onun apardığı balanslı və praqmatik xarici siyasət nəticəsində Azərbaycanın ərazi bütövlüyü beynəlxalq təşkilatlar tərəfindən tanındı və dəstəkləndi. Bu siyasət ölkəmizin haqlı mövqeyini dünya ictimaiyyətinə çatdırmaqla yanaşı, gələcəkdə baş verəcək proseslər üçün hüquqi baza formalaşdırdı. Azərbaycanın beynəlxalq arenada etibarlı tərəfdaş kimi tanınması isə siyasi və diplomatik uğurların əsasını təşkil etdi.

Ulu Öndərin hakimiyyəti dövründə nizami ordunun formalaşdırılması istiqamətində mühüm addımlar atıldı. Peşəkar hərbi kadrların hazırlanması, müdafiə sisteminin təkmilləşdirilməsi və orduya dövlət qayğısının artırılması gələcək uğurların əsasını qoydu. Bununla yanaşı, milli həmrəylik ideyasının gücləndirilməsi, vətənpərvərlik ruhunun yüksəldilməsi Ulu Öndərin siyasətində xüsusi yer tuturdu. Xalq-dövlət birliyi isə hər zaman qələbənin ən əsas şərti olub.

Hazırda dünyanın bir çox bölgəsində münaqişələr, müharibələr dünyada sabitliyi və təhlükəsizliyi təhdid edir. Bütün bunların fonunda 44 gün ərzində Ermənistanı diz çökdürən və təslim olmağa məcbur edən Azərbaycanın qələbəsi yeganə mütləq zəfər nümunəsidir. 44 günlük Vətən müharibəsində və 2023-cü il antiterror əməliyyatında Azərbaycanın mütləq qələbəsini zəruri edən amillər isə ordumuzun rəşadəti, Ulu Öndərin layiqli davamçısı Azərbaycan Prezidentinin siyasəti, liderliyi, qətiyyəti və prinsipiallığıdır.

Azərbaycanın ərazi bütövlüyünün təmin olunması və suverenliyinin tam bərpası Heydər Əliyevin müəyyən etdiyi siyasi kursun uğurlu davamı kimi qiymətləndirilməlidir. Ulu Öndərin yaratdığı möhkəm dövlətçilik təməli, iqtisadi potensial, diplomatik mövqe və ordu quruculuğu strategiyası Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən real nəticələrə çevrildi. Beləliklə, Azərbaycanın suverenliyinin bərpası və ərazi bütövlüyünün təmin olunması milli tariximizin şanlı səhifəsidir. Bu uğurun təməlində isə güclü dövlətçilik ideologiyası, strateji düşüncə və qətiyyətli liderlik keyfiyyətləri dayanır.

*Zaman göstərdi ki, Ulu Öndərin də söylədiyi kimi, "biz müstəqilliyimizi böyük çətinliklər bahasına əldə etmişik. Onu qorumaq isə onu qazanmaqdan daha çətin və məsuliyyətlidir". Bu gün qalib və güclü Azərbaycanın timsalında əminliklə söyləyə bilərik ki, güclü lider həm də güclü dövlətin qarantıdır.*

***Nigar MƏMMƏDOVA,***
***Milli Məclisin deputatı***

1923 Azərbaycanın özü qədər əbədi 2026



# Xalqın taleyinə yazılmış imza: Heydər Əliyev fenomeni

**Azərbaycan xalqının taleyində silinməz izlər qoymuş dahi şəxsiyyət, Ulu Öndər Heydər Əliyevin anadan olmasının ildönümü hər il böyük sevgi, dərin ehtiram və sonsuz qürur hissi ilə qeyd olunur. 10 may tarixi bütöv bir millətin öz xilaskarına olan minnətdarlıq borcunun, sarsılmaz sədaqətinin və milli birliyinin təntənəsidir. Həmin tarixdə Bakıdan tutmuş ən ucqar kəndlərimizə qədər hər yerdə yüksəksəviyyəli tədbirlərin təşkil olunması Ümummilli Liderin ideyalarının xalqın qəlbində nə dərəcədə dərin kök saldığının bariz nümunəsidir. Xalqın bitib-tükənməz sevgisi Heydər Əliyev ruhunun daim bizimlə olduğunu və müstəqil Azərbaycanın hər bir addımında yaşadığını bütün dünyaya nümayiş etdirir.**

Heydər Əliyev şəxsiyyəti Azərbaycanın dünəni, bu günü və gələcəyi arasında möhkəm mənəvi körpü rolunu oynayır. Onun "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" kəlamı bu gün hər bir vətəndaşın qürur mənbəyinə, hər bir gəncin həyat amalına çevrilib. İllər keçsə, zaman dəyişsə də, xalqın öz böyük oğluna olan məhəbbəti zərrə qədər azalmır, tam əksinə, Azərbaycanın qazandığı hər yeni uğurda, hər möhtəşəm zəfərdə Ulu Öndərin uzaqgörən siyasətinin və müqəddəs irsinin işığı daha parlaq görünür.

Ulu Öndərin Azərbaycan dövləti qarşısında çoxşaxəli xidmətləri hələ sovet dövründən başlayıb. Məlum olduğu kimi, ötən əsrin 60-cı illərində Azərbaycan iqtisadiyyatının bir çox sahələrində mənfi meyillər özünü büruzə verir, ölkə iqtisadi və mədəni tənəzzül dövrünü yaşayırdı. Respublikamızın inkişafı getdikcə ləngiyərək, ümumilikdə əhalinin sosial-iqtisadi vəziyyətinə kifayət qədər mənfi təsir göstərməyə başlamışdı. Məhz belə bir ağır vəziyyətdə ölkə rəhbərliyində mühüm dəyişiklik baş verdi. 1969-cu ildə Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrü başladı. 1969-1982-ci illərdə dahi şəxsiyyət Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizin sosial-iqtisadi və ictimai həyatında keyfiyyətcə yeni bir mərhələnin təməli qoyuldu. Xalqına olduqca bağlı olan Ulu Öndər Heydər Əliyev çox mürəkkəb şəraitdə Azərbaycanı Sovet İttifaqının qabaqcıl respublikalarından birinə çevirmək üçün genişmiqyaslı islahatlar proqramının həyata keçirilməsinə nail oldu. Məhz həmin tarixdən etibarən Azərbaycanın müasir tarixinin ən parlaq və şərəfli səhifələri yazılmağa başlandı.

O dövrün mənzərəsinə nəzər salsaq, görərik ki, milli mütəxəssislərin yetişdirilməsi, doğma dilimizin dövlət səviyyəsində qorunması və tətbiqi, eləcə də idarəetmə orqanlarında soydaşlarımızın təmsil olunması məsələləri arxa plana keçirilmişdi. Yerli kadrların peşəkar yüksəlişinə süni əngəllər törədilir, milli kimliyin inkişafına laqeyd münasibət bəslənilirdi. Mövcud böhranlı vəziyyətdən çıxış yolu yalnız iqtisadiyyatın strukturunda köklü islahatlar aparmaqdan keçirdi. Çünki siyasi müstəqilliyin yolu güclü iqtisadi bazadan başlayırdı. Həmin vaxt cəmiyyəti mənəvi və maddi tənəzzüldən yalnız Heydər Əliyevin uzaqgörən strateji baxışı xilas edə bilərdi və dahi rəhbər buna nail oldu.

Heydər Əliyevin rəhbərliyi ilə 1970-1985-ci illəri əhatə edən genişmiqyaslı dəyişikliklər xalqın milli ruhunun oyanışına təkan verdi. Müasir Azərbaycanın iqtisadi suverenliyi məhz həmin illərdə qoyulmuş möhkəm bünövrə üzərində qərar tutmuşdu. Beynəlxalq iqtisadi məkana çıxış və qlobal sistemə inteqrasiya ölkənin sarsılmaz iqtisadi qüdrətini təmin edən əsas amillərdən biri oldu. Bakının müasir simasının formalaşması, çoxsaylı memarlıq incilərinin bərpası, yeni tədris binaları və institutların inşası məhz bu həmin tarixi mərhələnin bəhrələridir. Ulu Öndərin vətən övladlarına olan tükənməz sevgisi özünü həm də tarixi şəxsiyyətlərimizə verilən dəyərdə büruzə verirdi. Məhz Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə uzaq Sibirin əlçatmaz yerlərindən böyük dramaturq, yazıçı Hüseyn Cavidin nəşinin qalıqlarının doğma yurdu Naxçıvana gətirilməsi, ev-muzeyinin yaxınlığında dəfn edilməsi, görkəmli elm və mədəniyyət xadimlərinin muzeylərinin təşkili bunun əyani sübutudur. Eyni zamanda əfsanəvi partizan, Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin rəşadətli yolunun dərindən araşdırılaraq ictimaiyyətə təqdim edilməsi milli qəhrəmanlıq tariximizə göstərilən ali ehtiramın nümunəsi idi.

Ulu Öndərin fəaliyyətində gənclər siyasəti hər zaman prioritet təşkil edib. Heydər Əliyev yüzlərlə istedadlı gəncin SSRİ-nin ən nüfuzlu təhsil ocaqlarına göndərilməsini təmin edərək, gələcək müstəqil dövlətimiz üçün nadir ixtisaslı kadrlar ordusu yaradıb. Ümummilli Lider Azərbaycanda bir sıra yeni ixtisaslar olan informasiya texnologiyaları, beynəlxalq hüquq, beynəlxalq münasibətlər, aviasiya sahələrində mütəxəssis hazırlayan ali məktəblərin olmadığını nəzərə alaraq minlərlə azərbaycanlı gəncin Moskva, Kiyev, Minsk və başqa şəhərlərdəki nüfuzlu ali məktəblərə göndərilməsini təmin edib. Respublikaya birinci rəhbərliyi dövründə 10 mindən artıq gənci keçmiş SSRİ respublikalarının nüfuzlu ali məktəblərinə təhsil almağa göndərən Heydər Əliyev yüksəkixtisaslı, vicdanlı və peşəkar kadrların hazırlanması, dövlət idarəçiliyi sisteminin sağlamlaşdırılması məsələlərinə ciddi fikir verirdi.

Bu uzaqgörən addım Azərbaycan elminin intibahına yol açıb. Bununla yanaşı, 1969-1982-ci illərdə milli hərbi kadrların hazırlanması işi xüsusi nəzarətə götürülüb. 1970-80-ci illərdə Heydər Əliyevin şəxsi təşəbbüsü ilə 700-dən artıq məktəb binası tikilərək istifadəyə verilib. Bu illərdə respublikada ali təhsil müəssisələrinin sayı 12-dən 17-yə, təhsil alan tələbələrin sayı isə 70 mindən 100 minə çatdırılıb.

Azərbaycan dilinin dövlət statusu məsələsi də Heydər Əliyevin daim diqqət mərkəzində idi. 1978-ci ildə Azərbaycan dilinin Konstitusiyada dövlət dili kimi təsbit edilməsi tarixi bir qələbə idi. Bu siyasətin davamı olaraq, müstəqillik dövründə, 2 yanvar 2003-cü ildə "Dövlət dili haqqında" imzalanan fərman ana dilimizə verilən ali dəyərin təsdiqi oldu. Azərbaycan klassiklərinin yubileylərinin ümumittifaq səviyyəsində qeyd olunması və milli mədəniyyətimizin ön sıralara çıxması məhz dahi rəhbərin xidmətləri idi. Heydər Əliyev rəhbərliyə gələnə qədər idarəetmənin yuxarı pillələrində, xüsusilə Dövlət Təhlükəsizliyi Komitəsi kimi strateji qurumlarda azərbaycanlılar demək olar ki, təmsil olunmurdular. Lakin onun bu quruma rəhbərliyi və sonradan respublikaya başçılıq etməsi ilə milli kadrların çəkisi sürətlə artmağa başladı.

Sovet dövründə Heydər Əliyevin rəhbərliyi altında respublikada 250-dən çox nəhəng sənaye obyekti və istehsal müəssisəsi fəaliyyətə başladı. Ulu Öndərin uzaqgörən siyasəti sayəsində Azərbaycan aqrar ölkədən qüdrətli sənaye respublikasına çevrildi. Heydər Əliyev yaxşı anlayırdı ki, iqtisadi müstəqillik enerji təhlükəsizliyindən keçir. Məhz həmin dövrdə Cənubi Qafqazın ən böyük İstilik-Elektrik Stansiyası Azərbaycanda inşa edildi. Hazırkı Heydər Əliyev adına Bakı Neft Emalı Zavodu ən müasir qurğularla təchiz edilərək respublikanın neft emalı potensialı dəfələrlə artırıldı. Sumqayıt SSRİ-nin ən böyük kimya mərkəzlərindən birinə çevrildi. O dövr üçün müasir olan yeni istehsalat sahələri quruldu. Bakı Məişət Kondisionerləri Zavodu bütün SSRİ-də və Yaxın Şərqdə ilk və ən böyük müəssisə idi. Dərin Dəniz Özülləri Zavodu məhz Heydər Əliyevin təşəbbüsü və inadkarlığı sayəsində Bakıda tikildi. Elm sahəsinə göstərilən xüsusi qayğı, yeni elmi-tədqiqat institutlarının açılması da Ulu Öndərin adı ilə bağlıdır.

Heydər Əliyev 1987-ci ildə Moskvada SSRİ rəhbərliyindəki vəzifəsindən istefa verəndən sonra da Azərbaycan xalqı üçün çalışmaqdan zərrə geri durmayıb. Bu, Ulu Öndərin vətən sevgisinin və cəsarətinin əsl miqyasını göstərir. Hakimiyyətdən getməsinə baxmayaraq, Moskvada ciddi nəzarət altında yaşayan Heydər Əliyev xalqın dar günündə göstərdiyi qətiyyətlə yaddaşlarda silinməz izlər buraxıb. 1990-cı il yanvarın 21-də, qanlı faciədən cəmi bir gün sonra Heydər Əliyev özünün və ailəsinin həyatını təhlükəyə ataraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gedərək, verdiyi cəsarətli bəyanatla faciənin təşkilatçılarını dünya ictimaiyyəti qarşısında ittiham etdi. Ulu Öndər dünya mediası qarşısında çıxış edərək, dinc əhaliyə qarşı törədilən bu qırğını hüquqa, demokratiyaya və insanlığa zidd adlandırdı. Faciənin birbaşa günahkarı kimi SSRİ-nin ali rəhbərliyini suçladı. Bu, o dövr üçün ağlasığmaz bir cəsarət idi, çünki SSRİ hələ dağılmamışdı, qanlı qırğını törədən sovet rejimi hələ də tam gücündə idi.

Heydər Əliyev üçün xalqa xidmət etmək hansısa vəzifə ilə bağlı deyildi. Ulu Öndər siyasi rəhbərlikdə olmadığı dövrdə belə, Azərbaycanın milli maraqlarını qoruyan, xalqı ətrafında birləşdirən və ölkəni qəti addımlarla müstəqilliyə hazırlayan uzaqgörən siyasətçi idi.

Mərkəzi hakimiyyət orqanlarının davamlı təqiblərinə rəğmən, Heydər Əliyev əvvəlcə Bakıya, daha sonra doğma yurdu Naxçıvana üz tutdu. Ulu Öndərin qayıdışı ağır blokada məngənəsində sıxılan qədim Naxçıvanın həyatına yeni canlanma və ümid bəxş etdi. O, ən çətin şəraitdə belə bu bölgənin dirçəlişini təmin etməklə yanaşı, gələcək müstəqil Azərbaycan dövlətinin bünövrəsini təşkil edəcək strateji addımlar atdı. Bu addımlar sadəcə regional deyil, bütövlükdə milli dövlətçilik tariximiz üçün yolgöstərən bir mayaka çevrildi.

1990-cı il noyabrın 17-də Naxçıvan Ali Sovetinin 12-ci çağırış birinci sessiyası Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın taleyini dəyişən tarixi qərarlara imza atdı. Həmin iclasda muxtar respublikanın adından "Sovet Sosialist" sözləri çıxarıldı və dövlət rəmzləri ilə bağlı mühüm dəyişikliklər edildi. Məhz Ümummilli Liderin qətiyyəti sayəsində Azərbaycan Xalq Cümhuriyyətinin miras qoyduğu üçrəngli bayrağımız Naxçıvanın rəsmi dövlət bayrağı olaraq ucaldıldı. Eyni zamanda qanunverici orqanın adının Ali Məclis kimi müəyyənləşdirilməsi idarəetməyə milli və demokratik bir ruh qazandırdı.

1992-ci il noyabrın 21-i müstəqil dövlətçilik tariximizin ən həlledici və parlaq səhifələrindən biri kimi yaddaşlara həkk olundu. Həmin gün bir qrup vətənpərvər və mütərəqqi fikirli ziyalının təşəbbüsü ilə Naxçıvanda Yeni Azərbaycan Partiyasının (YAP) təsis konfransı keçirildi. Toplantıda partiyanın yaradılması barədə rəsmi qərarın verilməsi və Heydər Əliyevin yekdilliklə sədr seçilməsi xalqın siyasi taleyində yeni bir dövrün başlanğıcı oldu. YAP-ın meydana gəlməsi məhz belə bir tarixi ehtiyacın məntiqi nəticəsi idi. Xalq anlayırdı ki, müasir dövlət idarəçiliyi üçün zəruri olan peşəkar kadr bazası nə ozamankı naşı hakimiyyətdə, nə də digər cırtdan siyasi qruplaşmalarda mövcud idi. Dahi rəhbərin şəxsiyyəti və nüfuzu isə dövrün bütün siyasi ambisiyalarından və təşkilatlarından qat-qat üstün idi. Ulu Öndərin Naxçıvandakı fəaliyyəti müasir, demokratik və dünyəvi Azərbaycanın qurulması prosesində həlledici ideoloji faktor rolunu oynadı. Azərbaycanın müstəqil bir subyekt kimi gələcək inkişafının əsas prinsipləri məhz həmin illərdə formalaşdırıldı. Beləliklə, milli azadlıq hərəkatının rəmzi olan üçrəngli bayrağımız onilliklər sonra ilk dəfə məhz Heydər Əliyevin rəhbərlik etdiyi sessiyada dövlət statusu alaraq xalqın qürur yerinə çevrildi.

Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı uçurumun kənarında olan Azərbaycan dövlətini xilas etmək missiyası idi. Azərbaycan 1991-ci ildə öz müstəqilliyini yenidən elan etsə də, 1993-cü ilədək ölkədə idarəolunmaz xaos, öz ambisiyalarını güdən siyasi qrupların səriştəsiz idarəetməsi və naşılığı, siyasi gərginlik və ərazi itkiləri ilə dolu qaranlıq bir dönəm yaşanırdı. Dövlətçiliyin sütunları sarsılır, mərkəzi idarəetmə iflic vəziyyətə düşür, ordudakı intizamsızlıq torpaqlarımızın 20 faizinin işğalı ilə nəticələnirdi. Ölkə faktiki olaraq parçalanma və daxili müharibə təhlükəsi ilə üz-üzə qalmışdı.

Bu ağır sınaqlar dövründə xalq çıxış yolunu və yeganə xilas ümidini Heydər Əliyev şəxsiyyətində gördü. 1991-1993-cü illərdəki geriləmənin, özbaşınalığın və iqtisadi tənəzzülün əsas səbəbi dövlət rəhbərliyində təmsil olunan şəxslərin uzaqgörənlikdən və strateji baxışdan məhrum olmaları idi. Milli maraqları şəxsi ambisiyalardan üstün tuta bilməyən siyasi qüvvələrin çirkin hakimiyyət oyunları Azərbaycanı uçurumun kənarına gətirib çıxarmışdı.

Xalqın təkidli çağırışları nəticəsində 1993-cü il iyunun 9-da Bakıya qayıdan Heydər Əliyev iyunun 15-də parlamentin rəhbəri seçildi. Elə həmin ilin 3 oktyabrında keçirilən prezident seçkiləri Azərbaycanın müstəqil bir dövlət kimi mövcudluğunu təmin edən tarixi dönüş nöqtəsi oldu. 10 oktyabr 1993-cü ildə keçirilən andiçmə mərasimi ilə Ulu Öndər rəsmən fəaliyyətə başlayaraq ölkəni fəlakətlərdən qurtarmaq missiyasını üzərinə götürdü. O, Azərbaycanı daxili çəkişmələrdən təmizləyərək sabitlik və tərəqqi mərhələsinə qədəm qoydu. Ümummilli Lider qlobal miqyaslı enerji və nəqliyyat layihələrinin təməlini qoymaqla dövlətə olan sədaqətini əməli işlərlə sübuta yetirdi. Həmin unudulmaz nitqində Ümummilli Lider xalqına olan bağlılığını bu sözlərlə ifadə etmişdi: "Bu gün həyatımın ən məsuliyyətli anlarından biridir. Mənə inanan, bu ali etimadı göstərən hər bir vətəndaşa dərin minnətdarlığımı bildirirəm. Sizi əmin edirəm ki, varlığımla bağlı olduğum bu xalqa ömrümün sonunadək xidmət edəcək, bütün enerjimi Azərbaycanın çiçəklənməsinə həsr edəcəyəm".

Prezident seçildikdən dərhal sonra Heydər Əliyev ölkədə asayişin bərpası üçün qətiyyətli addımlar atdı. Qanunsuz silahlı birləşmələrin ləğvi, nizami ordu quruculuğunun təməllərinin atılması və dövlətə qarşı yönəlmiş xəyanətkar çevriliş cəhdlərinin dəf edilməsi onun rəhbərliyi ilə həyata keçirilən ilk və ən mühüm islahatlar idi. Bununla Azərbaycanda hüquqi dövlət quruculuğu prosesinə dönməz xarakter verildi.

1993-cü ildə yenidən dövlət rəhbərliyinə qayıdan Ümummilli Lider Heydər Əliyevin atdığı ən cəsarətli və strateji addımlardan biri həmin vaxta qədər xarici neft korporasiyaları ilə aparılan qeyri-effektiv danışıqları dərhal dayandırmaq oldu. Dahi rəhbər enerji sazişlərinin şərtlərinə milli maraqlar prizmasından yenidən baxılmasını tələb etdi. Bu qətiyyətli qərardan sonra beynəlxalq neft nəhəngləri ilə müzakirələr Azərbaycanın gələcək taleyini təmin edəcək tam fərqli müstəvidə bərpa olundu. Tarixçilər və iqtisadi ekspertlər yekdilliklə təsdiq edirlər ki, o dövrdə bu danışıqların yenidən başlaması ölkənin gələcək tərəqqisi üçün həyati əhəmiyyət kəsb edən bir dönüş nöqtəsi idi.

Məhz bu uzaqgörənliyin nəticəsi olaraq, 1994-cü il sentyabrın 20-də Bakıda müasir tariximizin ən möhtəşəm sənədi imzalandı. Rəsmi olaraq "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun müştərək işlənməsi və hasilatın pay bölgüsü haqqında saziş kimi tanınan bu sənəd Azərbaycanın iqtisadi müstəqilliyinin sarsılmaz təməlinə çevrildi. Heydər Əliyevin şəxsi rəhbərliyi və polad iradəsi ilə reallaşan bu layihəyə dünyanın ən nüfuzlu neft şirkətləri cəlb olundu. Ulu Öndər bu müqavilənin həm Azərbaycan, həm də qlobal enerji bazarı üçün müstəsna əhəmiyyətini nəzərə alaraq onu "Əsrin müqaviləsi" adlandırdı.

"Əsrin müqaviləsi" Azərbaycanın enerji siyasətinin fundamental əsasını qoydu və sonrakı illərdə imzalanacaq digər irimiqyaslı beynəlxalq layihələr üçün etibarlı qapı açdı. Neft kontraktı sayəsində yerli neft-qaz sektoruna ən müasir texnoloji standartlar gətirildi, qabaqcıl idarəetmə təcrübəsi tətbiq olundu və beynəlxalq səviyyəli yeni mütəxəssis nəsli yetişdi. Azərbaycan bu sazişlə dünyanın əsas enerji təminatçılarından biri kimi özünü təsdiqlədi və beynəlxalq birliyin nüfuzlu üzvünə çevrildi. Gözləniləndən də böyük nəticələr verən bu müqavilə ölkənin maliyyə dayanıqlığını təmin edərək, müasir Azərbaycanın ən yeni tarixində iqtisadi intibahın memarı oldu.

Azərbaycanda yeni Konstitusiyanın qəbulu da Ulu Öndərin hakimiyyətə qayıdışından sonra mümkün oldu. 1995-ci il noyabrın 12-də Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, ədalətin, azadlığın və təhlükəsizliyin bərqərar edilməsi naminə ümumxalq səsverməsi yolu ilə müstəqil dövlətimizin Konstitusiyasını qəbul etdi. Konstitusiyanın qəbulu müstəqillik tariximizin ən mühüm hadisələrindən biri olmaqla, Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı böyük xidmətlərindən sayılır. Yeni Konstitusiyasının qəbulu cəmiyyət həyatında demokratik dəyişikliklərə yol açdı, insan hüquq və azadlıqlarının həyata keçirilməsi üçün əlverişli şərait yaratdı. Eyni zamanda bütün sahələrin inkişafına təkan verdi. Xalqın tarixi ənənələrinə, milli və mədəni dəyərlərinə uyğun olan, dünyəvi və vətəndaş cəmiyyəti quruculuğu tələblərinə cavab verən dövlətçiliyin formalaşması, siyasi və hüquq sistemlərində sabit özülün yaradılması işində mühüm addım oldu.

Müdrik lider Heydər Əliyevin Azərbaycanda insan hüquq və azadlıqlarının təmini və müdafiəsi istiqamətində gördüyü işlərin ən vaciblərindən biri "İnsan hüquqları üzrə müvəkkil (Ombudsman) haqqında" qanunun qəbul edilməsi, digər tərəfdən də Ombudsman Aparatının yaradılması oldu. Ölkədə Ombudsman Aparatının yaradılması vətəndaşların hüquq və azadlıqlarının müdafəsi işinə çox mühüm töhfələr verib. Ulu Öndər məhbusların əfvi ilə bağlı sərəncamlar verərək onların azadlığa buraxılmasına şərait yaradırdı və bu əlamətdar davranış yenə də uğurla davam etdirilməkdədir.

Keçmiş Qarabağ probleminin danışıqlar yolu ilə nizama salınması da Ulu Öndər Heydər Əliyevin 1993-cü ildən başlayaraq, Xarici siyasət fəaliyyətində başlıca yer tuturdu. Dahi lider zirvə toplantılarında, Minsk qrupunun həmsədrləri ilə aparılan müzakirələrdə, beynəlxalq forumlarda, həmçinin dünyada siyasi gücə malik olan dövlət başçıları və nümayəndə heyətləri ilə ikitərəfli, eləcə də çoxtərəfli görüşlərdə bu münaqişənin mahiyyətinə, reallığına dünya birliyinin diqqətini cəlb etməyi bacarmışdı. Heydər Əliyev bütün görüşlərində, siyasi fəaliyyətində münaqişənin ədalətli həllinə çalışırdı. Ermənistanın təcavüzü nəticəsində öz yurdlarından qovulmuş bir milyona yaxın insanın ağır şəraitdə çadırlarda yaşadıqlarını, dövlətimizin qətiyyətli və prinsipial mövqeyini hər görüşdə, hər çıxışında dünya ictimaiyyətinə tarixi faktlarla əsaslandıraraq çatdırırdı.

Məhz Ümummilli Liderin xüsusi səyləri nəticəsində Ermənistan-Azərbaycan münaqişəsinin yüksək səviyyədə ilk dəfə geniş müzakirə olunacağı ATƏT-in Lissabon Sammiti 1996-cı il dekabrın 2-3-də 52 Avropa ölkəsi, ABŞ, Kanada və 10 Asiya-Afrika dövləti başçılarının müşahidəçi statusunda iştirakı ilə keçirildi. Buna qədər vəziyyət tamamilə Ermənistanın xeyrinə idi. Lakin Lissabon Sammitində Heydər Əliyev öz veto hüququndan istifadə edərək, bir çox qərəzli sənədə veto qoydu. Ermənistan sammitdə təkləndi, təcrid olundu, pat vəziyyətində qaldı. Heydər Əliyevin mövqeyini 53 dünya dövləti dəstəklədi. Bununla Ulu Öndər öz parlaq diplomatiya məharətini bütün dünyaya nümayiş etdirdi.

1994-cü il mayın 12-də atəşkəs haqda müqavilə imzalandıqdan sonra Azərbaycanda ordu quruculuğu daha da sürətləndi. Həyata keçirilən siyasət nəticəsində Silahlı Qüvvələrin maddi-texniki təminatının yaxşılaşdırılmasına, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının artırılmasına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırıldı. Qısa müddətdə hərbi hissələrin, ayrı-ayrı qoşun növlərinin formalaşdırılması tam başa çatdırıldı. Ordunun mərkəzləşdirilmiş maddi-texniki təminatı əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı, maliyyə-təsərrüfat fəaliyyəti nizama salındı, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı və döyüş ruhu yüksəldildi. Silahlı Qüvvələrin mükəmməl qanunvericilik bazası yaradıldı.

Ulu Öndər yenidən hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoydu. Bütün sahələrə, o cümlədən elm və təhsilə diqqət və qayğı daha da artırıldı. Dahi şəxsiyyət yaxşı bilirdi ki, Azərbaycanın tərəqqisinin yeganə yolu məhz xalqın yüksək təhsil almasında, maariflənməsində, fundamental və humanitar elmlərə mühüm əhəmiyyət verilməsindədir. Onun baxışlarında elm sadəcə akademik fəaliyyət sahəsi deyil, ölkənin intellektual təhlükəsizliyini, iqtisadi tərəqqisini, mədəni yüksəlişini və milli kimliyini təmin edən əsas vasitədir. Bu səbəbdən Heydər Əliyev elmin inkişafını həm sovet dövründə, həm də müstəqillik illərində ardıcıl şəkildə dövlət siyasətinin prioritet istiqaməti kimi müəyyənləşdirib, milli elmi sistemin formalaşması və dünya elmi məkanı ilə inteqrasiyası üçün prinsipial mövqe nümayiş etdirib.

1998-ci ilin martında "Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə dövlət komissiyasının yaradılması haqqında" sərəncamın imzalaması bu sahədə təkmil qanunverici bazanın formalaşdırılması, təhsil konsepsiyasının hüquqi əsaslarının yaradılması məqsədindən irəli gəlirdi. Çox qısa müddətdə komissiyanın hazırladığı "Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı" geniş müzakirələrdən sonra 1999-cu ilin iyununda imzalanaraq qüvvəyə mindi. Həmin proqram ölkəmizdə təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması ilə yanaşı, milli təhsil ənənələrinə sadiq qalmasını da təmin etdi. Ümummilli Liderin təlimatı ilə təkcə paytaxtımızda deyil, respublikamızın ucqarlarında da yüzlərlə məktəb, mədəniyyət evi, kitabxana, uşaq bağçası tikildi. Bütün sahələrdə görünməmiş uğurlar qazanıldı. Bu, Azərbaycan mədəniyyətinə yeni ab-hava gətirdi.

Ulu Öndər Heydər Əliyev azərbaycançılığın ən mühüm komponenti olan ana dilinin inkişaf etdirilməsi sahəsində də mühüm tədbirlər həyata keçirib. Heydər Əliyev ötən əsrin 70-ci illərinin əvvəllərindən dil sahəsində başladığı islahatları uğurla davam etdirdi. Ümummilli Liderimizin fikrincə, ana dili azərbaycançılığın təməl prinsipi idi. O, gənc nəslin ana dilini düzgün, hərtərəfli və elmi əsaslar zəminində mənimsəməsini tövsiyə etmişdi: "Öz dilini sevməyən adam öz tarixini bilə bilməz. Ana dilini bilməyən gənc Nizamini oxuya bilməz. Füzulini oxuya bilməz. Cəlil Məmmədquluzadəni oxuya bilməz. Əgər onları oxuya bilməsə, o, tariximizi bilməyəcək, bizim mədəniyyətimizi bilməyəcək. Onları bilməsə, o, vətənpərvər olmayacaq, onda vətənpərvərlik duyğuları, hissiyyatı olmayacaq".

Azərbaycanın qazandığı hər bir möhtəşəm uğur və tarixi zəfər Ulu Öndər Heydər Əliyevin strateji kursunun Prezident İlham Əliyev tərəfindən böyük uzaqgörənliklə davam etdirilməsinin nəticəsidir. Məhz bu siyasi varislik və sarsılmaz iradə Azərbaycanı regionun lider dövlətinə və dünya miqyasında söz sahibi olan bir ölkəyə çevirib. Cənab İlham Əliyev hakimiyyətə gəldiyi ilk gündən Ümummilli Liderin ideyalarına sadiq qalaraq, Azərbaycanı addım-addım özünün ən böyük hədəfinə - ərazi bütövlüyünün bərpasına doğru apardı. Ulu Öndərin ən böyük arzusu və vəsiyyəti Qarabağın azad olunması, Şuşada Azərbaycan bayrağının dalğalanması idi. 2020-ci ilin noyabrında Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qazanılan tarixi Zəfər, yalnız torpaqlarımızın işğaldan qurtarılması deyil, həm də Heydər Əliyev amalının və arzularının reallaşması idi. Prezident İlham Əliyevin Şuşada, Cıdır düzündə xalqa müraciət edərkən söylədiyi "Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim" sözləri bu mənəvi varisliyin və vəfanın ən ali ifadəsi kimi tariximizə həkk olundu.

*Bu gün Azərbaycan öz suverenliyini bütün ölkə ərazisində tam bərpa edib. İşğaldan azad olunmuş torpaqlarda aparılan nəhəng quruculuq işləri, ucaldılan "ağıllı şəhərlər və kəndlər", açılan beynəlxalq hava limanları Ümummilli Liderin qurub yaratmaq ruhunun davamıdır. Bu gün Ulu Öndərin ruhu şaddır! Çünki onun canından artıq sevdiyi Azərbaycan artıq bütöv, qüdrətli və qalibdir.*

***Asif ƏSGƏROV,***
***Milli Məclisin deputatı***

1923 Azərbaycanın özü qədər əbədi 2026

# Tarixi missiyanın uğurları

**Heydər Əliyev şəxsiyyəti Azərbaycan tarixində, milli-siyasi təfəkkürümüzdə, dövlətçilik şüurumuzda çox böyük məna yükünü daşıyan fenomendir. Həyatı daim xalq və haqq yolunda mübarizədə keçən, mütərəqqi tarixi şəxsiyyət olan Heydər Əliyev məhz özünün fitri istedadı, yüksək intellekti, fenomenal yaddaşı, rəhbərlik məharəti, cəsarəti, mərdliyi, güclü iradəsi, idarəçilik mədəniyyəti, böyük həyat və dövlətçilik təcrübəsi ilə Azərbaycan dövlətini məhv olmaq təhlükəsindən xilas etmiş, ölkəmizi iqtisadi tənəzzüldən inkişaf və tərəqqi yoluna çıxartmışdır.**

Bu gün biz fəxrlə, böyük qürur hissi ilə deyirik ki, memarı Heydər Əliyevin olduğu milli dövlətçilik bizim ən böyük sərvətimizdir. Ümummilli Lider yaxşı bilirdi ki, xalqın siyasi müstəqilliyinin təməlini onun iqtisadi azadlığı şərtləndirir. Ulu Öndərin islahatlar yolu ilə Azərbaycanın milli iqtisadiyyatının formalaşdırılması siyasəti hələ Sovet İttifaqı zamanında - 1969-cu ildən Heydər Əliyevin ölkəyə rəhbərliyi ilə başlanan böyük tarixi missiyanın əsas istiqamətlərindən idi. O zaman Azərbaycan Sovet İttifaqının tərkibində olsa da, Ümummilli Liderin milli məfkurəyə əsaslanan siyasəti sayəsində sürətli inkişaf yolu keçmiş, bütün sahələr üzrə iqtisadi quruculuğa və yüksək göstəricilərə nail olunmuşdur. Heydər Əliyev gələcəyə hesablanmış müdrik siyasət yürüdərək, SSRİ-nin tərkibində müxtəlif əngəllərə baxmayaraq, milli iqtisadiyyatımızı formalaşdırmağa, inkişaf etdirməyə və ittifaq tərkibində ən öncül yerlərdən birinə yüksəltməyə, iqtisadi baza və infrastruktur, eləcə də bu sahədə güclü milli kadr potensialı yaratmağa müvəffəq olmuşdur.

1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə respublikada siyasi rəhbərliyə qayıdan Heydər Əliyev yeni tarixi şəraitdə iki mühüm vəzifənin - Azərbaycan dövlətçiliyinin məhv olmaq təhlükəsinin aradan qaldırılması, dövlət müstəqilliyimizin qorunub saxlanması və demokratik dövlət quruculuğunun həyata keçirilməsi vəzifələrinin həlli istiqamətində cahanşümul işlərə başladı. Müdrik rəhbərimizin gərgin əməyi, səriştəsi, böyük təşkilatçılıq qabiliyyəti, uzaqgörən daxili və xarici siyasəti nəticəsində tarixən qısa zaman kəsiyində dövlət müstəqilliyimizin dönməz xarakter alması təmin olundu, demokratik hüquqi dövlət quruculuğunun möhkəm təməli qoyuldu, siyasi, bunun ardınca isə makroiqtisadi sabitlik bərqərar olundu. Sosial-siyasi vəziyyətin ağır olmasına baxmayaraq, Ulu Öndər tərəfindən nəticəsi sonralar bilinəcək tədbirlər görülməyə başlandı. Həmin il Heydər Əliyevin Vətəni sevən hər bir azərbaycanlının ürəyində ümid çırağı yandıran "Biz Azərbaycanı bu vəziyyətdən çıxarmağa qadirik" sözlərini bütün xalq bir çağırış kimi qəbul etdi.

Ulu Öndərin "Xalq mənə ümid bəsləyir, mən də bu ümidi doğrultmaq üçün ömrümün qalan hissəsini də xalqıma bağışlayıram və həyatımı xalqıma qurban verməyə hazıram" kəlamı xalqın yaddaşında əbədi həkk olunmuşdur.

Azərbaycanın müstəqilliyin ilk illərində qarşısında duran ən mühüm və strateji əhəmiyyətli vəzifələrdən biri iqtisadi tənəzzülün və böhran meyillərin qarşısını almaq, maliyyə sabitliyini təmin edərək əhalinin sosial rifahını yaxşılaşdırmaq idi. Buna isə yalnız uzaqgörən, zəngin təcrübəyə, çoxtərəfli biliyə və vətənpərvər, öz fəaliyyətində milli maraqlara söykənən liderin siyasəti sayəsində nail olmaq mümkün idi. Məhz Ümummilli Liderimiz Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən mükəmməl iqtisadi strategiya qarşıya qoyulan hədəflərə çatmağa, sosial-iqtisadi dirçəlişə nail olmağa imkan verdi.

Ümummilli Liderin ikinci dəfə hakimiyyətə qayıdışından sonra müstəqil Azərbaycanın iqtisadi tərəqqisinin dayaq sütunlarını müəyyən edən milli inkişaf doktrinası hazırlandı. 1994-cü il iyunun 21-də Prezident sarayında respublika iqtisadiyyatının və həyatının digər sahələrinin cari məsələlərinə həsr olunmuş müşavirədəki yekun nitqində Ulu Öndər demişdi: "Biz respublikamızda hüquqi-demokratik dövlət qurmaq yolu ilə gedirik. Bu, dövlət quruculuğunda, siyasi sahədə strateji yolumuzdur. Bununla çox sıx əlaqədə ikinci sahə iqtisadiyyatın demokratik yollarla idarə edilməsidir, yəni iqtisadiyyatda demokratik islahatlar aparılması, bazar iqtisadiyyatı yoludur. Bütün bunlar kompleks şəkildə respublikamızı gələcəyə aparan yollar, istiqamətlərdir".

Ümumiyyətlə, Heydər Əliyevin iqtisadi baxışlarında bir-birini tamamlayan iki məqam nəzərə çarpır: 1) iqtisadiyyatın bütün sahələrində islahatlar aparmaq və bu islahatlar vasitəsilə ölkə iqtisadiyyatını inkişaf etdirmək. 2) mövcud iqtisadi potensialdan istifadənin səmərəsini təxirə salmadan yüksəltmək, onun dağılmasına yol verməmək və bu potensialın bütün Azərbaycan xalqının sərvəti kimi respublikamızın vətəndaşlarının, əhalinin bütün təbəqələrinin həyat tərzinin yaxşılaşdırılmasına yönəltmək.

Heydər Əliyevin islahatları dünya təcrübəsində müşahidə etdiyimiz bütün proqramlardan əsas bir əlaməti ilə fərqlənir: onun islahatlar keçirdiyi ölkə dörd bir tərəfdən blokada, müharibə və sosial sarsıntılar (qaçqınlar problemi) içərisində olmasına baxmayaraq, Azərbaycanı 1993-cü ildən 1997-ci ilin iqtisadi artımına ardıcıl siyasi və iqtisadi addımlar həyata keçirməklə gətirmişdir.

Çox böyük əhəmiyyəti olan beynəlxalq kontraktların bağlanması, dünya ölkələri ilə iqtisadi əlaqələrin genişlənməsi, Azərbaycana investisiya axınının güclənməsi, iqtisadi inteqrasiyanın dərinləşməsi və sairə məhz Heydər Əliyevin müdrik daxili və xarici siyasətinin məntiqi nəticəsi kimi mümkün olmuşdur.

Bu gün Azərbaycan Heydər Əliyev yolu ilə irəliləyir və inkişaf edir. Ölkə Prezidenti kimi fəaliyyətə başladığı ilk gündən xalqı qarşısında görəcəyi işlərin prioritetlərini açıqlayan cənab İlham Əliyev "Azərbaycanı daha qüdrətli dövlətə çevirmək üçün, ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacaq, heç vaxt bu yoldan dönməyəcəyəm" söyləyərək vədini real işlərlə doğrultdu.

Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi strategiyanı dövrün tələblərinə uyğun olaraq daha da zənginləşdirən Prezident İlham Əliyev inkişafın Azərbaycan modelini yaradıb. Bu model beynəlxalq aləmdə böyük maraq doğurur və əksər ölkələr üçün örnəyə çevrilmişdir. Hamının marağına səbəb olan inkişafın, dövlətçiliyin Azərbaycan modeli özündə bir sıra mühüm prioritetləri birləşdirir. Bu prioritetlərə ilk növbədə ictimai-siyasi sabitlik və təhlükəsizlik, balanslaşdırılmış xarici və daxili siyasət, hüquqi dövlət quruculuğu, çevik idarəetmə mexanizminin tətbiqi və təkmilləşdirilməsi, vətəndaş cəmiyyətinin inkişafı daxildir.

Bu gün ölkə əhalisinin sosial rifahının yaxşılaşdırılması, yeni iş yerlərinin açılmasının artması və yoxsulluğun əhəmiyyətli dərəcədə azaldılması, misilsiz tarixi qələbəmiz, 30 il işğal altında olan torpaqlarımızın işğaldan azad edilməsi dövlət başçısı İlham Əliyevin həyata keçirdiyi siyasətin uğurlu nəticəsidir. Yürüdülən məqsədyönlü, qətiyyətli siyasət, həyata keçirilən makroiqtisadi layihələr Azərbaycan iqtisadiyyatının daha da yüksələcəyindən xəbər verir. Ayrı-ayrı dövlət proqramlarında, Böyük qayıdış strategiyasında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi Azərbaycanın sosial-iqtisadi inkişafında vacib mərhələ olmaqla, ölkənin iqtisadi inkişafında və əhalinin rifah halının yaxşılaşdırılmasında getdikcə mühüm rol oynayır.

*Ölkəmizin tərəqqisinin əsasında Ulu Öndər Heydər Əliyevin ideyaları dayanır. Bu danılmaz bir həqiqətdir ki, Azərbaycanın indiki zənginliyi, intibahı Ümummilli Lider Heydər Əliyevin ideyalarının Prezident İlham Əliyevin yeni dövrün çağırışlarından çəkinməyən, əksinə, onları mahiyyətcə zənginləşdirən cəsarətli, çevik və milli maraqlarımıza yönəlik siyasəti sayəsində həyata keçməsinin nəticəsidir.*

***Vahid NOVRUZOV,***
***YAP Veteranlar Şurasının üzvü, Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, iqtisad elmləri doktoru, professor***



# Elmi əsaslar üzərində optimal inkişaf konsepsiyasının yaradıcısı

**Azərbaycan tarixən elm ölkəsi kimi tanınıb. Ölkəmiz indiyə qədər dünya elminə görkəmli alimlər, dünyaşöhrətli elm xadimləri bəxş edib. Elm sahələrinin əksəriyyətində - riyaziyyat, fizika, kimya, geologiya, biologiya, tibb və sair sahələrdə, sözün əsl mənasında, qibtəolunan alimlərimiz olub ki, onların kəşfləri və ixtiraları qlobal elmə tamamilə yeni yanaşmalar gətirib. Azərbaycan elminin və alimlərinin böyüklüyü haqqında aydın təsəvvür yaratmaq üçün konkret ad çəkməyə də ehtiyac yoxdur. Görünən dağa nə bələdçi?**

Azərbaycanda elmin inkişaf dövrlərinə qısaca nəzər salsaq, ən böyük elmi nailiyyətlərin sovet dövrünə təsadüf etdiyini görə bilərik. Bu isə birbaşa Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Xüsusilə, elmi innovasiyaların nadir hallarda rast gəlindiyi sosial və humanitar elmlər sahələrində belə tarixi şəxsiyyətin uzaqgörən siyasəti Azərbaycan xalqının tarixi, mədəniyyəti, dili və milli-mənəvi dəyərləri ilə bağlı tədqiqatların aparılmasında mühüm vasitə olmuşdur. Hər şeydən əvvəl, Ümummilli Lider Heydər Əliyevin alimlərə və əlәlxüsus gənc tədqiqatçılara qayğısı möhtəşəm və təkrarsız olmuşdur. Məhz bu diqqət sayəsində alimin adı o vaxtdan bəri yüksək qiymətləndirilmiş və onun sözü ən etibarlı mənbə hesab edilmişdir.

Elmi nailiyyətləri dövlət quruculuğunun, milli iqtisadiyyatın və insan cəmiyyətinin inkişafının mühüm tərkib komponentinə çevirən Ümummilli Lider respublikamıza rəhbərlik etdiyi hər iki dönəmdə milli elmimizin geniş dəstəkçisi, təbliğatçısı və müdafiəçisi olmuşdur.

XX əsrin 70-80-ci illərində Heydər Əliyevin rəhbərliyi altında yeni elmi sahələrin və istiqamətlərin meydana çıxması respublikamızda elmin inkişafına çox müsbət təsir göstərmişdir. Onun uzaqgörənliyi, təşəbbüskarlığı, liderliyi və birbaşa iştirakı sayəsində kimya, neft emalı və neft-kimya sənayesinə investisiyalar əhəmiyyətli dərəcədə artmış və ən qabaqcıl texnologiyalar tətbiq edilmişdir. Bu yeniliklərin hesabına neft-kimya sənayesi modernləşdirilmiş və yenidən qurulmuşdur. Astronomiya, kosmik tədqiqatlar, biokimya, molekulyar biologiya, biofizika və biotexnologiya kimi tədqiqat sahələri yaranmışdır. Ulu Öndərin uzaqgörənliyi sayəsində Azərbaycanda onlarla iri sənaye kompleksi - neft emalı, neft-kimya, maşınqayırma və cihazqayırma müəssisələri yaradılmışdır ki, bu da elmin sürətli inkişafına imkan vermişdir.

Məlum olduğu kimi, Sovet İttifaqı qapalı sistem olduğundan, bütün digər sahələrdə olduğu kimi, elmdə də alimlərimizə beynəlxalq əməkdaşlığa, xarici ölkələrin alimləri ilə əlaqələr qurmağa imkan verilmirdi. Lakin Ümummilli Lider fundamental tədqiqatlarda ən vacib elmi nəticələrin birgə beynəlxalq tədqiqatlardan asılı olduğunu başa düşdüyündən, xaricdə təcrübə mübadiləsini, qabaqcıl biliklərin əldə edilməsini və onların ölkə daxilində tətbiqini təşviq edə bilmişdir. Ulu Öndərin dəstəyi ilə Azərbaycan alimləri xaricdə UNESCO və UNIDO kimi beynəlxalq təşkilatlarda ekspert kimi çalışa bilmişlər. Sovet rəhbərliyi bu məsələlərdə, adətən, ittifaq respublikaları arasında ayrı-seçkilik edir və Rusiya, Ukrayna və Belarusdan mütəxəssisləri önə verirdi. Lakin rəsmi Moskva qarşısında sual qoyub, cavab tələb edən təkcə Ümummilli Lider Heydər Əliyev idi: niyə yalnız yuxarıda adıçəkilən respublikalar beynəlxalq təşkilatların fəaliyyətində iştirak edir, yüksək elmi potensiala malik Azərbaycan isə kənarda qalır?

Heydər Əliyev müdrik Lider kimi çox yaxşı bilirdi ki, Azərbaycan zəngin neft və qaz ölkəsi olsa da, neft və qaz hasilatında rekord qeydə alınsa da, neft və qaz emalı sahələrini, ümumilikdə neft-kimya və kimya sənayesini elmi əsaslar üzrə quran yüksəkixtisaslı yerli kadrlar olmadan inkişaf etdirmək, bunun məntiqi sonunda da güclü, rəqabətədavamlı respublika yaratmaq mümkün olmayacaq.

Ümummilli Liderin tövsiyələrini nəzərə alan müvafiq tədqiqat institutları və digər elmi mərkəzlər bu sahələrdə tədqiqatlarını genişləndirmiş və çoxsaylı uğurlu nəticələrə imza atmışdırlar.

Heydər Əliyev öz dahiliyi ilə həm istehsal sahələrinin, həm də müvafiq elmi sahələrinin paralel və qarşılıqlı əlaqəli inkişafını təmin edən "optimal inkişaf konsepsiyası" yaratmışdı. Sənaye inkişafı yeni elmi tədqiqatlar tələb etdiyindən və eyni zamanda onu stimullaşdırdığından, bu konsepsiya elmi nəticələrin istehsalatda tətbiqi üçün etibarlı əsas olmuşdur. Qısa müddətdə elmə qoyulan vəsait tətbiq sahəsi üçün əlavə büdcə vəsaitləri formalaşdırmışdı. Bir sözlə, bu gün leksikonumuzda tez-tez işlətdiyimiz elmlə istehsalatın vəhdəti, Ümummilli Liderin böyük ustalığı ilə hələ sovet dövründə yaradılmışdır.

Sovet İttifaqının dağılması ilə tarixi şəxsiyyətin min bir əziyyətlə təşəkkül tapdırdığı Azərbaycan elmi də böyük bir tənəzzülə uğradı. Müstəqilliyin ilk illərində akademik elm tamamilə yaddaşlardan silinmək təhlükəsi ilə üz-üzə qalmışdır. Lakin həm qlobal miqyasda, həm də ölkəmizdə davamlı cəmiyyətin formalaşmasında elmin və alimlərin rolunu yüksək qiymətləndirən Ümummilli Lider Heydər Əliyev bu təhlükəni Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıtmaqla aradan qaldırdı. İctimai həyatın digər sahələri kimi, elm də yeni inkişaf mərhələsinə qədəm qoya bildi.

Sovet illərində olduğu kimi, müstəqillik illərində də Heydər Əliyevin rəhbərliyi altında elmin inkişafı, elmi-texniki potensialın gücləndirilməsi, yüksəkixtisaslı elmi kadrların hazırlanması və alimlərin cəmiyyətdəki nüfuzunun artırılması üçün mühüm tədbirlər həyata keçirildi.

Ulu Öndər Heydər Əliyev tərəfindən müdrikcəsinə müəyyən edilmiş və həyata keçirilən elmi siyasət Prezident İlham Əliyev tərəfindən uğurla və yaradıcı formada davam etdirilir. Elmin inkişafına göstərilən yüksək diqqət, eyni zamanda onun möhkəmlənməsinə və qlobal miqyasda tanınmasına xidmət edir, onun layiqli yerini təmin edir.

Son 10 ildə akademik elmin inkişafı, qlobal elmə inteqrasiyası, elm və təhsil arasında vəhdət yaratmaq, elmin populyarlığını artırmaq və istedadlı gəncləri elmə cəlb etmək üçün mühüm işlər görülmüş və müəyyən uğurlar qazanılmışdır. Müxtəlif elmi-tədqiqat institutlarında aparıcı alimlərin iştirakı ilə beynəlxalq səviyyədə birgə nəzəri fundamental tədqiqatlar aparılır, beynəlxalq laboratoriyalar yaradılır və əldə edilən elmi nəticələr nüfuzlu jurnallarda dərc olunur. Bu nəticələr aparıcı qlobal elmi mərkəzlər tərəfindən qəbul olunur və onlara istinad edilir. Azərbaycan alimləri yalnız xarici həmkarları ilə deyil (hazırda bu, kimya, fizika, geologiya, informasiya texnologiyaları, molekulyar biologiya və tibb sahələrinə aiddir), həm də yerli alimlərimizlə birgə tədqiqatlar aparmağı təklif edən xarici ölkə alimləri ilə əməkdaşlıq etməyə çalışırlar.

Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" imzaladığı fərmanın böyük əhəmiyyəti oldu. Fərmana əsasən, Təhsil Nazirliyi Elm və Təhsil Nazirliyi adlandırıldı. Eyni zamanda Elm və Təhsil Nazirliyinə elm sahəsində dövlət siyasətinin və tənzimləməsinin həyata keçirilməsi, eləcə də elmi müəssisə və təşkilatlarda elmi fəaliyyətin əlaqələndirilməsi və idarə olunması səlahiyyətləri verildi. Beləliklə, yeni islahatlar elmə yanaşmada köklü dəyişiklik, elmi tədqiqatların səmərəliliyinin artırılması, elm və təhsilin tam vəhdətinin yaradılması və ən əsası, Azərbaycan elminin qlobal elmə inteqrasiyasının sürətləndirilməsi zərurətini ortaya qoydu. Bu səbəbdən elmi inkişafda keçmişin çatışmazlıqlarından dərs çıxarmaq və gələcəyə baxmaq lazım idi. Prezidentin məlum fərmanı ölkəmizdə elm və təhsilin inteqrasiyasının yeni mərhələyə keçməsi üçün geniş imkanlar açdı.

Ümummilli Liderin diqqətlə yaratdığı və formalaşdırdığı hər bir sahənin yeni mərhələdə, yeni reallıqlar kontekstində inkişaf etməsi sevindirici haldır. Dövlətimizin başçısı İlham Əliyev dahi şəxsiyyətin iqtisadiyyatın bütün sahələrində qabaqcıl texnologiyalar və yüksəkixtisaslı kadrlarla texnoloji parkların, sənaye məhlə və sənaye komplekslərinin inkişaf etdirilməsi strategiyasını, proqramını və öhdəliyini ardıcıl olaraq davam etdirir.

Bu il Ümummilli Liderin anadan olmasının 103-cü ildönümüdür. Artıq altıncı ildir ki, qürurlu bir millətin qürurlu alimi, müəllimi, həkimi, bir sözlə, ziyalısından sıravi vətəndaşına qədər hamı onun doğum gününü böyük coşqu, sevinc və xoşbəxtliklə qeyd edir. Tarixi şəxsiyyətin layiqli davamçısı Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində əldə etdiyimiz parlaq qələbə ərazi bütövlüyümüzü bərpa etdi. Qalib ordumuz xalqla bir olub "dəmir yumruğ"a çevrilərək, millətimizin başına min bir oyun gətirən düşmənin başını əzdi və müəyyən mənada "sınmış qamətimizi" düzəltdi, eyni zamanda bizi məğlub ölkədən qalib ölkə səviyyəsinə qaldırdı. Bununla da yerləşdiyimiz bölgədə Azərbaycan hakimi-mütləq olduğunu təsdiqlədi. Onun diktə etdiyi və xarici ölkələrin hesablaşdığı, qəbul etdiyi tamamilə yeni bir reallıq yaratdı. Bu yeni reallıqları və dünyanın müasir çağırışlarını nəzərə alaraq elmi-tədqiqat müəssisələrimiz, elm adamlarımız azad edilmiş bölgələrin imkanlarına və təbii relyefinə uyğun olaraq elm-təhsil və innovasiya üçbucağının formalaşmasında fəal iştirak etməlidirlər.

*Bu gün Azərbaycan Prezidenti İlham Əliyev Ümummilli Liderin başlatdığı missiyanı davam etdirir. Azərbaycan dünyanın geniş bir bölgəsində təsir gücünə malik güclü dövlətə çevrilib. Ümummilli Liderin inkişaf strategiyasının uğurla həyata keçirilməsi sayəsində ölkəmizin əldə etdiyi siyasi dividendlər beynəlxalq aləmdə nüfuzumuzu artırıb, iqtisadi dividendlər isə daha güclü iqtisadiyyata və müdafiə qabiliyyətinin artmasına gətirib çıxarıb. Hər iki amil əldə edilən Böyük Qələbəyə töhfə verib. Bir sözlə, İlham Əliyev parlaq şəxsiyyət Heydər Əliyevin qurtuluşdan tərəqqiyə apardığı ölkəmizi xəyal belə edə bilməyəcəyimiz davamlı bir Qələbəyə daşıyıb.*

***Əfsun SUCAYEV,***
***YAP İdarə Heyətinin üzvü, professor***



# "Biz Heydər Əliyevdən hər gün öyrənirdik"

## Uzun illər Ulu Öndərin rəhbərliyi altında işləmiş Eldar Nuriyev Azərbaycanda gedən tikinti bumunun şahidi və iştirakçısı olub

**Azərbaycanda tikintiyə maraq XIX əsrin ortalarından başlansa da, bu sahənin intensiv inkişafı, böyük tikinti potensialının yaradılması, yeni inşaatçı kadrlarının hazırlanması işi Ulu Öndər Heydər Əliyevin respublika rəhbərliyinə gəldiyi 1969-cu ildən yeni mərhələyə qədəm qoymuşdur. Bu istiqamətdə 1971-ci ilin iyul ayında keçirilmiş Azərbaycan KP MK-nın tikintiyə həsr olunmuş xüsusi plenumu mühüm əhəmiyyət kəsb edir.**

Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə bu və sonrakı dövrdə Azərbaycanın tikinti kompleksinin keçdiyi şərəfli yola ötəri bir nəzər saldıq. Bələdçimiz Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutunun Şəhərsalma, bina və qurğular üzrə tikinti normaları şöbəsinin müdiri Eldar Nuriyevdir.

Qeyd edək ki, ixtisasca peşəkar inşaatçı-mühəndis olan Eldar Nuriyev Ulu Öndərin respublikaya rəhbərlik etdiyi dövrdə yaşanan tikinti bumunun şahidi və iştirakçısı olub. Belə ki, o, ali təhsil aldıqdan sonra tikinti kombinatında usta kimi fəaliyyətə başlayaraq, müəssisədə rəhbər vəzifəyə doğru pillə-pillə irəliləyib. 1967-1972-ci illərdə Azərbaycan KP MK-da məsul işdə çalışıb. Daha sonra isə ona Dövlət Plan Komitəsində, Tikinti Materialları Sənayesi Nazirliyində, "Azərsənayetikintimaterialları" Dövlət Konsernində, Satınalmalar üzrə Dövlət Agentliyində məsul vəzifələr etibar edilib.

Onu da əlavə edək ki, müsahibimiz bir neçə ay əvvəl, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin 20 illiyi ərəfəsində Prezident İlham Əliyevin sərəncamı ilə 3-cü dərəcəli "Əmək" ordeni ilə təltif olunub.

Eldar müəllim söhbətimizə maraqlı bir hadisəni xatırlamaqla başladı:

- 1969-cu ilin mart ayı idi. O zaman Mərkəzi Komitədə çalışırdım. Aparatın məsul işçiləri bir qayda olaraq tərtib edilmiş qrafik üzrə I katibin qəbul otağında hər gün axşam saat 18-dən səhər 9-a kimi növbətçilik çəkirdilər. Bir gün mənim növbəmdə gecə saat 2-3 radələrində "VÇ" deyilən birbaşa telefonla Moskvadan zəng gəldi. SSRİ Müdafiə Nazirliyindən general İvanov idi. Xəbər verirdi ki, Tbilisiyə xüsusi reyslə uçan təyyarə hava şəraiti pis olduğundan oraya enə bilmədiyi üçün Bakıya uçması qərara alınıb. Xahiş edirdi ki, təyyarənin Bakı aeroportuna təhlükəsiz enməsini təmin etmək məqsədilə lazımi ölçü götürmək üçün rəhbərliyə təcili məlumat verilsin. Həyatımda birinci dəfə idi ki, belə vəziyyətə düşürdüm. Nazirlər Sovetinin sədrinə zəng vurmağı qərara aldım. O isə dedi ki, Heydər Əliyevə zəng vur. Mən məcburiyyət qarşısında qalıb gecənin bir vaxtında hökumət telefonu ilə Dövlət Təhlükəsizlik Komitəsinin sədri, general Heydər Əliyevin evinə zəng etdim. Zərifə xanım cavab verdi, mülayim səslə: "Heydər Əliyev işdədir" dedi. Bu dəfə "üç nömrəli" hökumət telefonu ilə Heydər Əliyevin özünə zəng vurmalı oldum. Əhvalatı ona çatdırdım. Əminliklə dedi: "Hər şeydən xəbərdaram. Təyyarə 20-25 dəqiqədən sonra qəbul olunacaq". Sağollaşıb dəstəyi yerinə qoydum və dərindən nəfəs alaraq özümü rahat hiss etdim... Bundan bir neçə ay sonra Heydər Əliyev respublikanın rəhbəri seçildi və mənə, necə deyərlər, onun komandasında işləmək xoşbəxtliyi nəsib oldu. Biz Heydər Əliyevdən hər gün öyrənirdik, bu, əvəzi olmayan bir həyat universiteti idi.

1969-1982-ci illərdə Azərbaycanda geniş vüsət alan tikinti-quruculuq işləri barədə söhbətə isə Eldar Nuriyev yuxarıda adıçəkilən plenum haqqında məlumatdan başlayır. Belə ki, bu tədbirdə tikintinin mövcud vəziyyəti ətraflı təhlil olunmuş, nöqsanlar göstərilmiş və onların aradan qaldırılması üçün konkret tədbirlər planı təsdiq edilmişdir. Plenum respublikanın tikinti kompleksində, sözün əsl mənasında, köklü dəyişikliklərə səbəb olmuşdur.

Müsahibim deyir ki, o zaman tikintinin ən böyük bəlalarından biri planlaşdırmada buraxılan səhvlərə görə kapital qoyuluşunun çoxsaylı obyektlər üzrə bölüşdürülməsi nəticəsində onların istifadəyə verilmə müddətlərinin artması, keyfiyyətin aşağı düşməsi idi. Maddi-texniki təchizatda ciddi nöqsanlara yol verilirdi. Bununla əlaqədar ilk növbədə tikintinin idarə olunmasının təkmilləşdirilməsinə dair təşkilati tədbirlər görülməli idi. Bu məqsədlə Ulu Öndər Tikinti Nazirliyinin bazasında Sənaye Tikinti Nazirliyi yaradılmasına qərar verdi. Bakı Baş Tikinti İdarəsi müstəqil təşkilat kimi fəaliyyət göstərməyə başladı. Sənaye və Kənd Tikinti nazirliklərinin, aparıcı podrat təşkilatlarının rəhbərləri bacarıqlı kadrlarla əvəz edildi.

- O illər Bakı Baş Tikinti İdarəsinin yüksəliş dövrü idi, - deyə Eldar müəllim söhbətinə davam edir. - Ulu Öndər ildə ümumi sahəsi 1 milyon kvadratmetr yaşayış evlərinin istifadəyə verilməsini paytaxtda sosial və mədəni obyektlərin inşası ilə məşğul olan təşkilatların qarşısında bir vəzifə kimi qoymuşdu. Tikinti-quraşdırma işləri iki, bəzən isə üç növbədə aparılırdı. İnşaatçılar arasında böyük ruh yüksəkliyi hökm sürürdü. Neftayırma və neft emalı zavodlarında, kimya və metallurgiya sənayesində, eləcə də digər sahələrdə böyük həcmdə tikinti-yenidənqurma işləri gedirdi.

Bu sözləri o dövrün tikinti bumunu əks etdirən rəqəmlər də təsdiqləyir. Belə ki, həmin illərdə dövlət, kolxoz və əhalinin vəsaiti hesabına respublikada ümumi sahəsi 14 milyon kvadratmetr olan yaşayış evləri istifadəyə verilib. Bu isə 1920-1968-ci illərdə (1941-1945-ci illəri çıxmaq şərti ilə) istifadəyə verilmiş yaşayış evlərinin 40 faizini təşkil edirdi. Əgər 1920-1968-ci illərdə (yenə də müharibə illərini çıxmaq şərti ilə) Azərbaycanda ildə orta hesabla 447 min kvadratmetr yaşayış evləri istifadəyə verilmişdisə, 1969-1982-ci illərdə bu rəqəm 1,6 milyon kvadratmetr təşkil etmişdi. Bu dövrdə müvafiq olaraq 16 min və 31 min şagird yerlik məktəb, iki dəfə çox çarpayı yeri olan xəstəxanalar istifadəyə verilmişdir. Bir sözlə, iqtisadiyyatın ən vacib sahələrindən olan tikinti kompleksi diqqət mərkəzində idi.

1976-cı ilin iyun ayında Heydər Əliyev MK-nın Plenumunu keçirdi. Burada tikinti, tikinti materialları sənayesi, onların maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni kadrların hazırlanması və s. məsələlər müzakirə olunur.

Ulu Öndərin tikinti işləri planlaşdırılarkən ekoloji məsələni diqqətdə saxlanmasını da Eldar müəllim yaxşı xatırlayır:

- Məlum olduğu kimi, 1960-cı illərdə Azərbaycanda ətraf mühiti çirkləndirən bir sıra müəssisələr fəaliyyət göstərməyə başlamışdı. Sumqayıtda çoxsaylı kimyəvi maddə istehsal edən zavodlar, Gəncədə Alüminium zavodu həmin şəhərlərin havasını çirkləndirirdi və bu, sakinləri çox narahat edirdi. Ümummilli Liderimiz bu məsələyə çox həssaslıqla yanaşırdı. Yadımdadır ki, Dövlət Plan Komitəsi Mərkəzi Komitəyə yaxın illərdə inşa olunacaq mühüm obyektlərin siyahısını təqdim etmişdi. Siyahıda Ağdam rayonu ərazisində 1 milyon ton istehsal gücü olan sement zavodunun tikiləcəyi də göstərilirdi. Heydər Əliyev Dövlət Plan Komitəsinin sədrinə irad tutdu. Həmin müəssisənin adının üstündən xətt çəkdi və qoyduğu dərkənarla Qarabağ ərazisində bu yönümlü müəssisələrin tikintisinə etirazını bildirdi. Doqquzmərtəbəli yaşayış binalarının tikintisini təmin etmək üçün Sumqayıt, Gəncə, Naxçıvanda istehsalat gücü 70-150 min kvadratmetr olan evtikmə kombinatlarının istifadəyə verilməsi isə bilavasitə Ulu Öndərin təşəbbüsü idi. 1970-ci ildə Ələt qəsəbəsində istifadəyə verilən ağac emalı kombinatı da bu qəbildən olan müəssisələr sırasındadır. Bu müəssisənin buraxdığı pəncərə, qapı və parket lövhələrlə il ərzində 1,7 milyon kvadratmetr yaşayış sahəsini təmin etmək mümkün idi.

Həmsöhbətim bir məqamı da xüsusi vurğulayır. Ümummilli Liderimizin daim Azərbaycanın gələcəyini düşündüyünü deyir. Təsadüfi deyil ki, bu dahi insanın hakimiyyəti dövründə tikinti sahəsində də böyük kadr potensialı yarandı. Peşəkar, məsuliyyətli, tələbkar, səriştəli inşaatçı kadrları yetişdirildi.

Digər bir mühüm cəhət isə Ulu Öndərin inşaatçı əməyini dəyərləndirməsi, o cümlədən onların gərgin zəhmətinin dövlət tərəfindən mükafatlandırılmasının təmin edilməsi idi. Məsələn, Şərq və Qərb memarlıq məktəbinin sintezindən yararlanan görkəmli memar Mikayıl Hüseynov bir çox əzəmətli yaşayış evlərinin və ictimai binaların müəllifi olmuşdur. Yalnız Heydər Əliyev Azərbaycanın rəhbərliyinə gələndən sonra o, SSRİ Xalq memarı adına layiq görülmüşdür. Həmin dövrdə sahənin onlarla nümayəndəsi Sosialist Əməyi Qəhrəmanı, Əməkdar mühəndis, Əməkdar inşaatçı, Əməkdar memar fəxri adları, orden və medallarla mükafatlandırılmışdır.

Eldar Nuriyev Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə gələndən sonra da Azərbaycanda qlobal miqyasda inşaat işlərinin həyata keçirildiyini qeyd edir. (Əslində, bunlar möhkəm təməli hələ ötən əsrin 70-80-ci illərində qoyulmuş işlər idi). Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunu misal gətirir. Bir daha xatırladır ki, bu zavodun məhz Bakıda tikilməsinə Heydər Əliyev nail olmuşdu. Müstəqillik dövründə müəssisə daha da genişləndirilərək və müasirləşdirilərək Azərbaycanın yeni neft-qaz strategiyası çərçivəsində reallaşdırılan layihələr üçün misilsiz tikinti işləri icra etdi. Burada ən müasir neft-qaz platformaları tikildi. Zavod bu gün də Azərbaycan iqtisadiyyatının xidmətindədir.

Üçüncü minilliyin nəhəng mühəndis qurğusu - Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəmərinin müəllifi də Heydər Əliyevdir. 2002-ci il sentyabrın 18-də Ulu Öndər Səngəçal terminalında bu möhtəşəm kəmərin təməlini qoydu. Prezident İlham Əliyev bu layihəni sona çatdıraraq yeni meqalayihələrə imza atdı. Azərbaycandan çəkilən yeni yollar, kəmərlər, dəhlizlər dünyaya istiqamət aldı.

Söhbət müsahibimin hazırda çalışdığı şəhərsalma sahəsindən düşür. Yaxın günlərdə Bakı 13-cü Ümumdünya Şəhərsalma Forumuna WUF-13 evsahibliyi edəcəyini yada salırıq.

- Ümummilli Liderin bu sahə də həmişə diqqətində idi, - deyə E.Nuriyev sözünə davam edir. Bakı, Gəncə, Sumqayıt, Mingəçevir, Naxçıvan, digər şəhər və rayonların inkişafına daim nəzarət edirdi. Təsadüfi deyil ki, həmin dövrlərdə onlar şəhərsalma norma və qaydalarına uyğun inkişaf etmiş, ölkədə meşə və parklar salınmış, ağacəkmə kampaniyaları ənənəyə çevrilmişdir. Təəssüf ki, 1980-ci illərin sonu - 1990-cı illərin əvvəllərində bu istiqamətdə işlərin görülməsində boşluq yarandı.

Lakin 1995-1998-ci illərdə bazar iqtisadiyyatına keçidlə əlaqədar hazırlanmış özəlləşdirmə proqramlarında paytaxtda yerləşən, ətraf mühiti korlayan müəssisələrin mərkəzdən çıxarılması nəzərdə tutulmuşdur. Belə ki, Heydər Əliyevin səyi nəticəsində keçmiş Moskva prospektində (indiki Heydər Əliyev prospekti) yerləşən sifer kombinatı, L.Şmidt adına və Keşlə maşınqayırma zavodları, Vorovski adına Mexaniki Tökmə Zavodu və ətraf mühiti çirkləndirən digər müəssisələr prospektdən çıxarılmış və kollektivlərə yeni müasir istehsal yaratmaq üçün Qaradağ rayonunda ərazi ayrılmışdır.

Ümummilli Lider Heydər Əliyevin tikinti sahəsində yaratdığı ənənələr bu gün də yaşayır, yarımçıq qalmış planlar reallaşır, arzular gerçəyə çevrilir. Nə xoş ki, Ulu Öndərin quruculuq missiyası Prezident İlham Əliyev və xalqımızın yeni nəsilləri tərəfindən davam etdirilir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Böyük irsin salnaməsi

**Tanınmış jurnalist Aslan Aslanovun "Heydər Əliyevin dövlətçilik və diplomatiya dərsləri" I kitabı nəşr edilib. Kitabda Ümummilli Lider Heydər Əliyevin 1993-2003-cü illərdə keçirdiyi görüşlərin, qəbulların, iclasların, xarici ölkələrə səfərlərinin pərdəarxası maraqlı anlarından bəhs olunur. Müəllif AZƏRTAC-ın əməkdaşı kimi həmin anlara şahidlik edib.**




Kitaba yazdığı "Canlı salnaməçidən dövlətçilik tariximizə obyektiv baxış" adlı ön sözdə siyasi elmlər doktoru, professor, Milli Məclisin deputatı Hikmət Babaoğlu vurğulayıb ki, böyük dövlət xadimi, bütün zamanların nəhəng siyasətçilərindən biri olan Heydər Əliyevin dövlətçilik və siyasi irsinin öyrənilməsi və öyrədilməsi həmişə aktuallıq kəsb edib və edəcəkdir: "Əldə etdiyimiz tarixi Zəfərdən sonra bu irsin tədqiq edilməsi, gənc nəslə və qalib xalq statusunda yenidən formalaşdırılan milli yaddaşımıza dolğun və obyektiv əsaslarda yenidən təqdim edilməsi xüsusi əhəmiyyət daşıyır. Çünki bizi qalib ölkəyə çevirən siyasi paradiqmalar, milli dövlətçilik prinsipləri, ümummilli ideoloji əsaslar məhz Heydər Əliyev tərəfindən müəyyənləşdirilərək mühüm siyasi irs kimi xalqımıza miras qoyulub".



Ömrünün 30 ili AZƏRTAC-la bağlı olan müəllif həmin illər ərzində Heydər Əliyevin dövlət quruculuğu və idarəetmə prinsiplərini, xarici siyasətinin əsaslarını yaxından müşahidə edib. Aslan Aslanov kitabda "Heydər Əliyev xilaskarlıq missiyasına necə başladı?" başlığı ilə oxucuları illər əvvələ aparır: "Əsrlərlə müstəqilliyini arzuladığımız, bunun üçün canımızdan, qanımızdan keçməyə hazır olduğumuz ölkə insanların gözü qarşısında parçalanıb dağılmağa doğru gedirdi. Millətin başbilənləri, alimləri, müəllimləri, yazıçıları, lap elə fəhlələri də, vəzifəsi olan, olmayan da həyəcan keçirirdi. Şəhidlərin qanı-canı bahasına əldə olunmuş müstəqil dövlətimiz uçurumun bir addımlığında idi". Belə bir zamanda Elmlər Akademiyasının Rəyasət Heyətində Heydər Əliyevlə keçirilən görüşdə AZƏRTAC-ın əməkdaşı kimi iştirak etmiş Aslan Aslanov Ümummilli Liderin çıxışını belə yada salıb: "Səsi indi də qulaqlarımda əks-səda verir:

- Dövlət quruculuğu və cəmiyyətin formalaşması məhz demokratik prinsiplər əsasında olmalıdır. Azərbaycanda vəziyyət çox gərgindir, ölkə vətəndaş müharibəsi ilə üz-üzə qalıb, hər gün qan tökülür. Bir tərəfdən Ermənistan silahlı qüvvələrinin torpaqlarımızı işğal etməsi, digər tərəfdən daxili çəkişmələr ölkəni ağır vəziyyətə salıb. Biz BMT Təhlükəsizlik Şurasının, böyük dövlətlərin və bütün beynəlxalq təşkilatların Azərbaycanı müharibə şəraitindən çıxarmaq, işğal olunmuş torpaqlarını geri qaytarmaq üçün səylərini artırmasını istəyirik.

Bayaqdan Heydər Əliyevin sözlərini diqqətlə dinləyən diplomatlar qələm-dəftər çıxarıb qeydlər etməyə başladılar".

Kitabda "Gənc respublikanı dünya arenasına necə çıxardı?" başlığı ilə Ümummilli Liderin çox çətin, mürəkkəb bir dövrdə bu istiqamətdə gördüyü böyük işlərdən də bəhs edilib. Müəllif yazır ki, dünyanın diqqətini Azərbaycana cəlb etmək Heydər Əliyevin xarici siyasətinin əsas istiqamətlərindən biri idi və o, zəngin təcrübəyə malik dövlət xadimi, mahir diplomat kimi bu məqsədinə addım-addım nail olurdu.

Kitabda "Çoxlarına dərs olan dövlət quruculuğu və diplomatik məharət" başlığı ilə Ümummilli Liderin müstəqillik və suverenlik yolu ilə inamla addımlayan Azərbaycanın dünya siyasi və iqtisadi məkanında böyük nüfuz sahibi olan ölkələr ilə birbaşa əlaqələrinin qurulmasına, bir çox sahələrdə yeni yaranmış əməkdaşlığın möhkəmləndirilməsinə xüsusi əhəmiyyət verməsindən bəhs olunub. "Çox qısa müddətdə müasir dövlət quraraq dünyanı heyrətə saldı" başlığı altında isə Heydər Əliyevin hakimiyyəti dövründə respublikamızın neft strategiyası və həyata keçirdiyi digər taleyüklü məsələlərdən söz açılıb. Müəllif yazıb: "Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi ilk iki il hakimiyyət böhranının aradan qaldırılması istiqamətində atılan addımlar və sabitləşdirici tədbirlərlə yanaşı, dövlət başçısının xarici ölkələrə intensiv səfərləri ilə də səciyyəvidir. Zəngin gündəliyə malik hər bir səfər gənc respublikanın dünyada daha çox tanınmasında, ayrı-ayrı ölkələrlə əlaqələrin qurulmasında, yaxud mövcud əməkdaşlığın genişləndirilməsində, nüfuzlu beynəlxalq təşkilatların xalqımızın haqq işinə, ədalətli mövqeyinə dəstəyinin artmasında əvəzsiz rol oynayırdı". Həmin illərin istər milli dövlətçiliyin təşəkkül tapması, istərsə də məqsədyönlü xarici siyasətin formalaşdırılması baxımından diqqət çəkdiyini qeyd edən müəllif vurğulayıb ki, uğurlu diplomatik gedişlər sayəsində Azərbaycana hörmət və rəğbət getdikcə artır, dünyanın qapıları üzümüzə daha geniş açılırdı.

Qeyd edək ki, Aslan Aslanovun qələmə aldığı "Heydər Əliyevin dövlətçilik və diplomatiya dərsləri" yalnız xatirələr toplusu deyil, həm də Heydər Əliyevin zəngin siyasi irsinin canlı və dolğun salnaməsidir. Müəllifin illər boyu birbaşa şahidi olduğu hadisələr əsasında hazırladığı bu nəşr müstəqil Azərbaycanın formalaşma mərhələlərinə obyektiv baxış təqdim edir və oxucunu həmin dövrün ictimai-siyasi mənzərəsi ilə yaxından tanış edir. Kitab həm tarixə maraq göstərənlər, həm də dövlətçilik və diplomatiya sahəsində biliklərini artırmaq istəyənlər üçün dəyərli mənbədir.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Muğam Mərkəzində tədbir - Ümummilli Lider Heydər Əliyev və Azərbaycanın mədəniyyət dəyərləri

**Mayın 6-da Mədəniyyət Nazirliyinin təşkilatçılığı və Mədəniyyət işçiləri YAP ərazi ilk təşkilatının təşəbbüsü ilə Beynəlxalq Muğam Mərkəzində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş "Ümummilli Lider Heydər Əliyev və Azərbaycanın mədəniyyət dəyərləri" mövzusunda konfrans keçirilib. Konfrans Ulu Öndər Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunub.**





AZƏRTAC xəbər verir ki, əvvəlcə Dövlət himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Daha sonra Ümummilli Liderin mədəniyyət sahəsindəki fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Tədbirdə çıxış edən mədəniyyət nazirinin müavini Səadət Yusifova bildirib ki, Ümummilli Lider Heydər Əliyev üçün milli-mənəvi dəyərlər sadəcə qorunmalı irs deyil, xalqın varlığını təsdiq edən, onu zamanın sınaqlarından keçirən və gələcəyə aparan əsas güc mənbəyi idi. O qeyd edib ki, ana dilinə sevgi, ədəbiyyata, musiqiyə və milli adət-ənənələrə bağlılıq Ulu Öndərin siyasətində xüsusi yer tutub. Bu dəyərlər yalnız keçmişin yadigarı kimi deyil, həm də müasir dövlət quruculuğunun və mənəvi inkişafın əsas sütunları kimi dəyərləndirilib.

Nazir müavini diqqətə çatdırıb ki, Ümummilli Liderin rəhbərliyi dövründə Azərbaycan musiqisi, kinosu, teatrı və ümumilikdə incəsənəti beynəlxalq miqyasda tanınıb və nüfuz qazanıb. Bütün bunlar milli köklərə qayıdışın və bu dəyərlərin gələcək nəsillərə ötürülməsinin təmin olunmasına xidmət edib.

Konfransda "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının sədri, professor Fuad Məmmədov, Azərbaycan Memarlar İttifaqının İdarə Heyətinin sədri Elbay Qasımzadə, Azərbaycan Teatr Xadimləri İttifaqının sədri, Xalq artisti Hacı İsmayılov, Xalq şairi Vahid Əziz, Xalq artisti Əbdül Mahmudov, Yeni Azərbaycan Partiyasının (YAP) Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev, Mədəniyyət işçiləri YAP ərazi ilk təşkilatının sədri, mədəniyyət nazirinin köməkçisi Emin Hüseynov çıxış edərək Ümummilli Lider Heydər Əliyevin Azərbaycan mədəniyyətinin inkişafındakı müstəsna rolundan, milli-mənəvi dəyərlərin qorunması və təbliği istiqamətində həyata keçirdiyi məqsədyönlü siyasətdən ətraflı bəhs ediblər. Natiqlər vurğulayıblar ki, Ulu Öndərin müəyyən etdiyi strateji xətt bu gün də uğurla davam etdirilir, milli irsin qorunması, mədəniyyətin inkişafı və dünya miqyasında tanıdılması istiqamətində ardıcıl işlər görülür.

Bildirilib ki, bu siyasət nəticəsində Azərbaycan mədəniyyəti beynəlxalq platformalarda geniş şəkildə təbliğ olunur, ölkəmizin zəngin mədəni irsi dünya ictimaiyyətinə çatdırılır. Eyni zamanda milli dəyərlərin gənc nəslə aşılanması, onların milli kimlik və vətənpərvərlik ruhunda tərbiyəsi istiqamətində mühüm layihələr həyata keçirilir.

Çıxışlarda vurğulanıb ki, Ümummilli Liderin ideyaları bu gün də aktuallığını qoruyur və ölkənin mədəni inkişaf strategiyasının əsasını təşkil edir. Bu baxımdan, onun zəngin irsinin öyrənilməsi və təbliği hər bir vətəndaşın mənəvi borcudur. Daha sonra Ümummilli Lider Heydər Əliyevin sevdiyi musiqilərdən ibarət bədii proqram təqdim olunub.

# Azərbaycanın xarici siyasətinin uğurları

## Azərbaycan-İtaliya münasibətləri yeni mərhələdə

**Qlobal və regional siyasətdə baş verən sürətli dəyişikliklər fonunda Azərbaycan-İtaliya münasibətləri keyfiyyətcə yeni mərhələyə yüksəlir. İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloninin Bakıya səfəri bu transformasiyaların mühüm göstəricisinə çevrilir. Bakı və Roma uzun illərdir strateji tərəfdaşdır. 2014-cü və 2020-ci illərdə iki ölkə arasında imzalanmış sənədlər münasibətlərin möhkəm əsasını formalaşdırsa da, son dövrdə əməkdaşlıq real məzmunla zənginləşib.**

Milli Məclisin deputatı Sevinc Fətəliyeva qəzetimizə açıqlamasında deyib ki, Ciorcia Meloninin ölkəmizə səfəri mövcud səviyyənin sadəcə təsdiqi deyil, əməkdaşlığın daha kompleks modelə keçidinin nümayişidir. Əsas istiqamət olaraq enerji sahəsi qalmaqdadır. İtaliya Azərbaycanın birnömrəli ticarət tərəfdaşıdır və ticarət dövriyyəsi təxminən 12 milyard dollar təşkil edir. Azərbaycan isə İtaliyanın enerji təhlükəsizliyində mühüm rol oynayır, neft və qaz təchizatında aparıcı yerlərdən birini tutur. "Avropaya ixrac olunan qazın əhəmiyyətli hissəsinin məhz İtaliya istiqamətindən keçməsi Romanı strateji enerji qovşağına çevirir. Bu baxımdan, TAP layihəsinin genişləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu kəmərin ötürmə qabiliyyətinin artırılması artıq yalnız iqtisadi məsələ deyil, Avropanın uzunmüddətli enerji arxitekturasının tərkib hissəsidir. İtaliya üçün Azərbaycan etibarlı təchizatçı, Azərbaycan üçün isə İtaliya Avropa bazarına əsas çıxış nöqtəsidir", - deyə o əlavə edib.

Deputat hesab edir ki, iki ölkə arasında münasibətlər yalnız enerji ilə məhdudlaşmır. Meloninin səfəri göstərdi ki, əməkdaşlıq sürətlə şaxələnir. Gündəliyə investisiyalar, infrastruktur, təhsil və yeni istiqamət kimi hərbi-texniki əməkdaşlıq daxil edilir. Birgə layihələr və istehsal kooperasiyası ilə bağlı müzakirələr tərəflər arasında etimadın artdığını göstərir. Bu kontekstdə Qarabağ mövzusu münasibətlərin siyasi yetkinliyinin mühüm göstəricisinə çevrilib. İtaliya hər zaman ölkəmizin ərazi bütövlüyünü dəstəkləyib və sülh prosesinə üstünlük verib. Romanın real siyasəti daha praqmatikdir və faktlara əsaslanır. Məhz bu səbəbdən İtaliyanın Qarabağın bərpasında iştirakı xüsusi məna daşıyır. Bu gün İtaliya şirkətləri azad edilmiş ərazilərdə həyata keçirilən layihələrdə aparıcı yerlərdən birini tutur. İnfrastrukturdan mühəndis həllərinə qədər onlarla layihə icra olunur. Prezident İlham Əliyevin mətbuata bəyanatı zamanı dediyi kimi, işğaldan azad edilmiş Qarabağda və Şərqi Zəngəzurda İtaliya şirkətləri 23 layihə həyata keçirib və həyata keçirir. Xarici ölkələrin şirkətlərinə baxdıqda bu layihələrin icrasında İtaliya yenə qabaqcıl yerlərdədir. Bu, artıq sadəcə iqtisadi iştirak deyil, yeni reallığın faktiki tanınmasıdır.



S.Fətəliyeva bildirib ki, xarici şirkətlər hər hansı ərazidə fəaliyyət göstərdikdə, bu, həmin ərazidə dövlətin yurisdiksiyasının qəbul edilməsi deməkdir. Bu halda isə söhbət Azərbaycanın suverenliyindən gedir. "İtaliya yüksək səslə bəyanatlar vermədən postmünaqişə reallığını qəbul etdiyini praktik addımlarla nümayiş etdirir. Eyni zamanda bu yanaşma Avropanın regiondakı yeni iştirak modelini əks etdirir. Rəsmi Roma siyasi bəyanatlardan çox iqtisadi diplomatiyaya üstünlük verir. İnvestisiyalar, texnologiyalar və bərpa layihələrində iştirak uzunmüddətli təsirin əsas alətlərinə çevrilir", - deyə o qeyd edib.

Deputat səfərin simvolik tərəfinin də diqqət çəkdiyini deyərək əlavə edib ki, xanım Meloninin Ermənistandan sonra Bakıya gəlməsi balans siyasətinin qorunduğunu göstərir. Lakin bu balans artıq tərəflər arasında məsafə deyil, regiondakı real güc nisbətinin nəzərə alınması deməkdir. Postmünaqişə mərhələsində isə əsas aktor məhz Azərbaycandır. Əməkdaşlığın digər mühüm istiqaməti investisiyalardır. Azərbaycan Dövlət Neft Fondu İtaliya iqtisadiyyatına təxminən 3 milyard dollar sərmayə yatırıb. Bu isə münasibətlərin qarşılıqlı xarakter daşıdığını göstərir. Azərbaycan yalnız enerji ixracatçısı deyil, eyni zamanda Avropaya sərmayə qoyan tərəfdaşdır. Humanitar sahə də diqqətdən kənarda qalmır. Bakıda İtaliya-Azərbaycan Universitetinin açılması münasibətlərin gələcəyinə yönəlmiş strateji addımdır. Burada təhsil alan tələbələr gələcəkdə iki ölkə arasında təbii körpü rolunu oynayacaqlar.

Deputat vurğulayıb ki, Prezident İlham Əliyev və Ciorcia Meloni səviyyəsində keçirilən görüşlər Azərbaycan-İtaliya münasibətlərinin yeni mərhələyə daxil olduğunu göstərir: "Bu, enerji əməkdaşlığından çoxşaxəli strateji tərəfdaşlığa doğru gedən əlaqələrdir. Əsas nəticə ondan ibarətdir ki, İtaliyanın Qarabağda iştirakı ikinci dərəcəli məsələ deyil, baş verən dəyişikliklərin əsas indikatorudur. Roma iqtisadi vasitələrlə regionda siyasi mövcudluğunu möhkəmləndirir, yeni reallığı qəbul edir və Azərbaycanla tərəfdaşlığını daha da gücləndirir. Bu gün məhz belə bəyanatlardan çox real addımlara əsaslanan yanaşma müasir geosiyasətin əsas xüsusiyyətinə çevrilir".

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Azərbaycanın parlament diplomatiyası

**Prezident İlham Əliyevin rəhbərliyi və siyasi iradəsi ilə Azərbaycanın milli maraqlarına xidmət edən, uzaqgörən, çevik xarici siyasət kursu uğurla icra olunmaqdadır. Dövlətimizin başçısı ölkənin xarici siyasi prioritetlərini müəyyən edir, mühüm beynəlxalq danışıqlar aparır və strateji əhəmiyyətli sazişlərə imza atır.**

Xarici siyasət kursunda Azərbaycan Milli Məclisinin parlament diplomatiyasının da özünəməxsus çəkisi və strateji əhəmiyyəti var. Ümumən, müasir beynəlxalq münasibətlər sistemində parlament diplomatiyasının artan nüfuzu artıq reallıqdır. Məhz bu tendensiyanın nəticəsidir ki, son illərdə qanunverici orqan vasitəsilə atılan addımlar Azərbaycanın dövlət strategiyasının mühüm komponentinə çevrilib. Parlament diplomatiyasının məqsədi dövlətlər və regionlar arasında əlaqələrin və inteqrasiyanın dərinləşdirilməsinə nail olmaqdır.

Azərbaycan parlamenti hər zaman dövlət başçısının yürütdüyü daxili və xarici siyasi kursu birmənalı şəkildə dəstəkləyib, ölkə rəhbərinin diplomatik hədəflərinə çatması istiqamətində öz resurslarını səfərbər edib. Görülən məqsədyönlü işlər nəticəsində ölkəmizin beynəlxalq platformalardakı mövqeyi daha da sarsılmaz hala gəlib, dünya ölkələri ilə qarşılıqlı etimada əsaslanan əməkdaşlıq münasibətləri dərinləşib. Hakimiyyətin mühüm qolu olan parlamentin işində beynəlxalq fəaliyyət prioritet istiqamət kimi ön plana çıxır. Milli Məclisin beynəlxalq fəaliyyəti dövlətin xarici siyasət prioritetlərinin qlobal müstəvidə müdafiəsi missiyasıdır. Bu istiqamətdə ikitərəfli və çoxşaxəli parlament təşkilatları ilə əlaqələrin inkişafı istiqamətində sistemli tədbirlər görülür. Eyni zamanda millət vəkilləri Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması və milli maraqlarımızın təbliği istiqamətində üzərlərinə düşən missiyanı layiqincə yerinə yetirirlər.

Milli Məclis bir çox nüfuzlu təşkilatların - ATƏT PA, MDB PA, Asiya PA, Baltik Assambleyası, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı PA, İslam Əməkdaşlıq Təşkilatı PA, GUAM PA, Türk PA, Parlamentlərarası İttifaq və NATO PA-nın işində aktiv təmsil olunur. Məhz bu təşkilatlar çərçivəsində aparılan uğurlu əməkdaşlıq fəaliyyəti nəticəsində vaxtilə Ermənistanın apardığı işğalçılıq siyasətini ifşa edən qərarlar qəbul edilib. Azərbaycanın parlament diplomatiyasının beynəlxalq miqyasda nüfuz qazanmasının göstəricilərindən biri də Milli Məclisin Parlamentlərarası İttifaq (PAİ) ilə qurduğu strateji tərəfdaşlıqdır. Bu xüsusda, Milli Məclisin Sədri Sahibə Qafarovanın mayın 4-də PAİ-nin Baş katibi Martin Çunqonqla keçirdiyi görüş təşkilatla əlaqələrin yeni müstəviyə keçməsini təsdiqləyir. Azərbaycanın Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinə rəhbərliyinin həm şəbəkənin inkişafında, həm də onun PAİ ilə əlaqələrinin dərinləşməsində oynadığı həlledici rol baş katib tərəfindən xüsusi vurğulanır.




Milli Məclisin müxtəlif ölkələrin parlamentləri ilə əlaqələri gücləndirməsi məqsədilə çoxsaylı işçi qrupları (dostluq qrupları) fəaliyyət göstərir. Hazırda 80-dən çox ölkənin parlamenti ilə parlamentlərarası əlaqələr üzrə işçi qruplar mövcuddur. Bu qruplar əsasən Avropa, Asiya, Amerika, Afrika və Okeaniya ölkələrini əhatə edir. Türkiyə, Pakistan, Rusiya, Çin, eləcə də Avropa Birliyi və ərəb ölkələri ilə olan qruplar ən aktiv fəaliyyət göstərənlər sırasındadır. Qrupların əsas fəaliyyəti qarşılıqlı səfərlər təşkil etmək, qanun yaradıcılığı sahəsində təcrübə mübadiləsi aparmaq və beynəlxalq platformalarda Azərbaycanın milli maraqlarını müdafiə etməkdir.

2022-ci ilin noyabr ayında Milli Məclisin ASEAN Parlamentlərarası Assambleyasına müşahidəçi üzv kimi qəbul olunması da parlament diplomatiyamızın uğuru kimi tarixə düşdü. Adətən, müraciətlərə 2-3 il ərzində baxıldığı halda Azərbaycan Milli Məclisinin müraciəti prioritet qaydada dərhal dəstəkləndi. Qeyd edək ki, 1977-ci ildən fəaliyyət göstərən ASEAN PA genişspektrli siyasi, sosial-iqtisadi məsələlər üzrə üzv dövlətlərin parlamentləri arasında qarşılıqlı fəaliyyət üçün qurulmuş işlək mexanizmə çevrilib.

Azərbaycan Milli Məclisi həm də beynəlxalq parlament qurumlarının təsisçisi kimi çıxış edir. Bu baxımdan, QDİƏT PA və Türk PA-nın yaradılmasında Azərbaycanın oynadığı aparıcı rol xüsusi qeyd edilməlidir. Xüsusilə, Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində əsası qoyulan Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi bu sahədəki ən böyük uğurlardan biridir. QH-nin Parlament Şəbəkəsinin yaradılması və onun ilk konfransına Bakının evsahibliyi etməsi bu istiqamətdə atılmış tarixi bir addım idi. Bu şəbəkə vasitəsilə Azərbaycan dünyada güc mərkəzləri arasında balansı qoruyan və inkişaf etməkdə olan ölkələrin maraqlarını müdafiə edən bir platformanın parlament qanadını formalaşdırıb. Eyni zamanda Türk Dövlətləri Təşkilatı çərçivəsində TÜRKPA-nın fəaliyyətinin gücləndirilməsi Azərbaycan nümayəndə heyətlərinin fəal iştirakı Milli Məclisin beynəlxalq çəkisini əhəmiyyətli dərəcədə artırıb.

Milli Məclisin Sədri Sahibə Qafarovanın müxtəlif ölkələrin parlament rəhbərləri ilə keçirdiyi çoxsaylı görüşlər, beynəlxalq platformalarda regionun və ölkəmizin problemlərini tarixi faktlar və qətiyyətlə dilə gətirməsi strateji əhəmiyyət kəsb edir. Parlament sədrinin rəhbərliyi ilə həyata keçirilən xarici səfərlər Azərbaycanın beynəlxalq nüfuzunun artmasına xidmət göstərir.

Azərbaycanın prinsipial mövqeyi ondan ibarətdir ki, beynəlxalq hüququn norma və prinsipləri hamı üçün eyni dərəcədə keçərli olmalıdır. Milli Məclisin üzvləri beynəlxalq platformalarda ölkəmizə qarşı yönəlmiş qərəzli kampaniyalara, ikili standartlara qarşı qətiyyətli mübarizə aparır, milli maraqlarımızın qorunması naminə çevik reaksiya nümayiş etdirirlər. Bu gün Azərbaycan parlamentinin səsi ən yüksək tribunalardan eşidilir. Heç şübhəsiz, qarşıdakı illərdə Azərbaycan parlamenti uğurlu fəaliyyətini daha da genişləndirərək davam etdirəcək.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

## Bakı-Roma əməkdaşlığı Avropanın enerji təhlükəsizliyini formalaşdıran mühüm vasitədir

**Prezident İlham Əliyevin "Avropa Siyasi Birliyi"nin İrəvanda baş tutmuş 8-ci Zirvə toplantısında çıxışının məzmunu və İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloninin səfərində ehtiva olunan ritorika bir daha göstərdi ki, rəsmi Bakı xarici siyasətində bərabərhüquqlu tərəfdaşlıq və milli maraqların mütləq suverenliyi prinsiplərini rəhbər tutaraq Cənubi Qafqazın geosiyasi mənzərəsini diktə edən gücə çevrilib. Bu mənada böyük yeddiliyin vacib üzvü olan İtaliya Respublikasının Nazirlər Şurasının sədri Ciorcia Meloninin Azərbaycana səfəri sadəcə iki dövlət arasında növbəti protokol görüşü deyil, qlobal məzmun daşıyan və Avrasiyanın enerji və siyasi arxitekturasını yenidən dizayn edən tarixi bir hadisəyə çevrilə bildi.**



Milli Məclisin deputatı Bəhruz Məhərrəmov qəzetimizə açıqlamasında deyib ki, Meloninin regiona səfər trayektoriyası, yəni İrəvan və ardınca Bakı İtaliyanın balanslı xarici siyasətini göstərdi. Prezident İlham Əliyev də çıxışında bildirdi: "Hər kəs bilir ki, Siz bu gün Ermənistanda idiniz. Ermənistanda öz proqramınızı bitirib Azərbaycana gəlmək bizim üçün xüsusi məna daşıyır, çox böyük rəmzi məna daşıyır, eyni zamanda Azərbaycana göstərilən hörmətin və xoş münasibətin bariz təzahürüdür". Digər tərəfdən, İtaliya Avropa İttifaqı daxilində Azərbaycanın mövqeyini və ərazi bütövlüyünü ən yaxşı anlayan və dəstəkləyən ölkələrdən biridir. Bəzi Avropa İttifaqı ölkələrinin birtərəfli region siyasətindən fərqli olaraq, Roma Bakı ilə praqmatik, qarşılıqlı hörmətə əsaslanan dialoqa üstünlük verir. Eyni zamanda Azərbaycan üçün İtaliya Avropa institutlarında və beynəlxalq platformalarda öz həqiqətlərini çatdırmaq və əməkdaşlığı gücləndirmək üçün etibarlı və nüfuzlu bir "qapı" rolunu oynayır. Yəni bir sözlə, Meloninin bu səfəri regional təhlükəsizlik və qlobal enerji böhranları fonunda Bakı və Roma arasındakı ittifaqın sadəcə iqtisadi asılılıq deyil, həm də Avropanın enerji təhlükəsizliyini formalaşdıran mühüm siyasi vasitə olduğunu təsdiqləyir.

Deputat qeyd edib ki, bu səfər və onun doğurduğu rezonans Qərbin bəzi neoimperialist dairələrinin, xüsusilə Fransada təmərküzləşmiş ermənipərəst güc mərkəzlərinin, o cümlədən Avropa Parlamenti kimi bölgəmizə dair birtərəfli, qərəzli ssenarilər cızmağa çalışan subyektlərin fəallaşmağa çalışdığı bir dönəmdə Prezident İlham Əliyevin balanslı və çoxvektorlu praqmatik xarici siyasət kursunun, habelə şəxsi nüfuzu hesabına rəsmi Bakının G7-nin aparıcı üzvü olan İtaliyanın tamam fərqli, praqmatik və beynəlxalq hüquqa söykənən mövqe ortaya qoymasına nail ola bildiyini göstərir: "Bu mənada İtaliya Baş naziri Ciorcia Meloninin Bakıya rəsmi səfəri, iki ölkə arasındakı münasibətlərin sadəcə alıcı-satıcı, ticari fəaliyyət münasibətlərindən çıxaraq strateji geosiyasi tərəfdaşlıq müstəvisinə uğurlu praktik keçid etdiyinin nümayişidir. Liderlərin ritorikası da bir daha göstərdi ki, Roma Bakı ilə münasibətlərini həm "Şərq-Qərb" dəhlizinin mərkəzi oxu, həm də Avropanın xilaskar tərəfdaşı müstəvisində qiymətləndirir. Bu səfər fonunda bir daha təsdiqləndi ki, Azərbaycan-İtaliya əlaqələrində ilk nəzərəçarpan məqam enerji amilinin münasibətlərin təməl sütunu olaraq qalmasıdır. Azərbaycan İtaliyanın neft və qaz təchizatında ikinci yerdədir. Bizim üçün İtaliya bazarı həm neft, həm qaz üzrə birinci dərəcəli əhəmiyyət daşıyır. Keçən il Azərbaycan 25 milyard kubmetr təbii qaz ixrac edib, onun 9,5 milyardı İtaliya bazarına nəql olunub. İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloni ilə birgə mətbuata bəyanatlarla çıxış zamanı Prezident İlham Əliyevin də ifadə etdiyi kimi: "Azərbaycan İtaliyanın neft təchizatında ikinci yerdədir, qaz təchizatında da ikinci yerdədir. Bizim üçün İtaliya bazarı həm neft, həm qaz üzrə birinci dərəcəli əhəmiyyət daşıyır. Keçən il Azərbaycan 25 milyard kubmetr təbii qaz ixrac edib, onun 9,5 milyardı İtaliya bazarına ixrac olunmuşdur". Bu, o deməkdir ki, İtaliya Azərbaycan neftinin ən böyük idxalçısı olmaqla bərabər Trans-Adriatik Boru Kəməri vasitəsilə illik qaz tələbatının əhəmiyyətli hissəsini - təqribən 16-38 faizini Azərbaycandan təmin edir. Eyni zamanda İtaliya son illərdə sadəcə qaz istehlakçısı deyil, həm də Azərbaycan qazını Avropanın içərilərinə, Avstriya və Almaniyaya kimi dövlətlərə ötürən strateji tranzit qovşağına çevrilib. Cənab İlham Əliyevin maraqları uğurla uzlaşdırmasının nəticəsidir ki, Meloni hökuməti də bu layihələrin genişləndirilməsində və Avropanın enerji coğrafiyasının şaxələndirilməsində kifayət qədər maraqlıdır", - deyə o bildirib.

B.Məhərrəmov deyib ki, iqtisadiyyatın diversifikasiyası və sənaye əməkdaşlığı istiqamətində önəmli perspektivlər artıq daha real qiymətləndirilir. İkitərəfli əlaqələr artıq yalnız neft-qaz sektoru ilə məhdudlaşmır. Hökumətlərarası komissiyanın qəbul etdiyi fəaliyyət planları çərçivəsində sənaye, infrastruktur, kosmik texnologiyalar və bərpaolunan enerji sahəsində İtaliyanın "Eni", "Snam", "Leonardo" və digər aparıcı şirkətləri də daxil olmaqla, hazırda İtaliyanın 130-a yaxın şirkəti Azərbaycanda fəaliyyət göstərir. Azərbaycan Prezidentinin də qeyd etdiyi kimi, o cümlədən işğaldan azad edilmiş Qarabağda və Şərqi Zəngəzurda İtaliya şirkətləri 23 layihə həyata keçirib və həyata keçirir və ərazilərin yenidən qurulmasında yaxından iştirak edirlər.

Deputat bildirib ki, Azərbaycan-İtaliya siyasi etimadın köklərinin və ikitərəfli əlaqələrinin bu gün xüsusi strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi təsadüfi deyil: "Bu əməkdaşlığın təməlləri hələ Ulu Öndər Heydər Əliyevin 1997-ci ildə İtaliyaya reallaşdırdığı ilk rəsmi səfərlə atılıb, Prezident İlham Əliyevin rəhbərliyi ilə isə keyfiyyətcə yeni, sarsılmaz bir ittifaqa çevrilib. Azərbaycan dövləti digər tərəfdaşları ilə olduğu kimi, İtaliya ilə də konyuktur maraqlar çərçivəsində heç vaxt danışmır. Məhz buna görə də İtaliya rəsmiləri ölkəmizə səfərləri zamanı hər zaman rəsmi Bakının beynəlxalq hüquqa sadiqliyini və regional liderliyini xüsusi qeyd edirlər. Prezident İlham Əliyev italyan həmkarı Sercio Mattarellanın dəvəti ilə Romaya etdiyi tarixi səfərlər zamanı və Bakıda keçirilən mətbuat bəyanatlarında bu sarsılmaz əlaqələrin əhəmiyyətinin bütövlükdə region üçün önəmli olduğuna, eyni zamanda bu tərəfdaşlığı təkcə İtaliyanın deyil, bütövlükdə cənub-şərqi Avropanın enerji təhlükəsizliyinin qarantına çevrilməsinə diqqət çəkib. Məhz bu qarşılıqlı etimad mühiti fonunda bu gün İtaliya dərk edir ki, Avropanın enerji asılılığı ilə üz-üzə qaldığı həssas dönəmlərdə Azərbaycan kimi etibarlı və sözünə imzası qədər sadiq olan bir tərəfdaşa malik olmaq əvəzsiz strateji üstünlükdür".

O qeyd edib ki, iki ölkə arasındakı münasibətləri yalnız neft-qaz kəmərləri və iqtisadi dividendlərlə ölçmək doğru olmaz. İtaliya ilə Azərbaycan arasında sarsılmaz mənəvi və mədəni körpülər mövcuddur ki, bu sahədə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın fəaliyyəti misilsiz tarixi xidmətdir. Məhz Mehriban xanımın təşəbbüsü ilə Heydər Əliyev Fondu tərəfindən Romada Kapitoli Muzeyindəki qədim abidələrin restavrasiyası, Müqəddəs Marcellinio və Pietro katakombalarının bərpası, habelə Vatikanda həyata keçirilən humanitar layihələr İtaliya cəmiyyətində Azərbaycan xalqının tolerant, multikultural və yüksək mədəniyyətə malik obrazını birdəfəlik həkk etmişdir. Təsadüfi deyil ki, bu müstəsna xidmətlərinə görə Mehriban Əliyeva İtaliya dövlətinin ən yüksək mükafatı olan "İtaliya Respublikasının Şərəf Ordeninin Cəngavər Böyük Xaçı" və Vatikanın ən ali müqəddəs ordenləri ilə təltif edilib. Bu humanitar diplomatiya rəsmi Romanın siyasi qərarlarına da müsbət mənada təsirini göstərib və erməni lobbisinin təzyiqi altında olan bəzi Avropa institutlarından fərqli olaraq, İtaliya parlamenti və dövlət rəsmiləri hər zaman Azərbaycanın haqq işini, ərazi bütövlüyünü və postmüharibə dövründə bölgədə yaratdığı yeni reallıqları tam və qəti şəkildə dəstəkləyən mövqe ilə çıxış edib.

B.Məhərrəmov bildirib ki, ötən il Bakıda böyük təntənə ilə İtaliya-Azərbaycan Universitetinin açılması da bu humanitar fəaliyyətin uğurlu davamı hesab edilməlidir: "Bu addım Azərbaycanda təhsilin inkişafına çox böyük təsir və töhfəsi olmaqla bərabər, həm də əlaqələrin yeni mərhələsi üçün perspektiv vəd edir. Cənab İlham Əliyevin haqlı təbiri ilə desək: "Artıq 500-dən çox tələbə orada təhsil alır və gələcəkdə onlar həm peşəkar mütəxəssislər, həm də ki, Azərbaycanın İtaliyada və İtaliyanın Azərbaycanda təbii elçiləri olacaqlar. Beləliklə, bizim dostluğumuz bundan sonra inamla davam etdiriləcəkdir".

Bakıdakı son müzakirələr və Ciorcia Meloninin bəyanatları göstərir ki, tərəflər artıq əməkdaşlığı sənaye və hərbi-texnoloji sahələrə də adlatmaq niyyətindədirlər. Meloninin mətbuata bəyanatında da lakonik ifadə olunduğu kimi: "Əlaqələrdə keyfiyyətcə böyük sıçrayış olub. Söhbətimiz əsasında daimi siyasi əlaqələndirmə yolu ilə əməkdaşlığımızı transformasiya etmək üzərində razılığa gəldik".

Deputat vurğulayıb ki, bu uğurlu tendensiyanın təməlində ortaya qoyulan siyasi iradə dayanırsa, digər tərəfdən, dəyişməyən bir reallıqdır ki, Azərbaycan artıq sadəcə xammal ixracatçısı deyil, həm də qlobal miqyasda böyük maliyyə gücü və investisiya potensialı olan subyektdir və bu da ciddi ümidlər vəd edir. Prezident İlham Əliyev də çıxışında bildirdi ki, birgə layihələrin həyata keçirilməsi, birgə istehsalın təşkil edilməsi, İtaliya texnologiyalarının Azərbaycan maliyyə vəsaitinin birləşməsi ilə əlaqədar konkret fikirlər var: "Bizim yeni əməkdaşlıq sahəmiz olan hərbi-texniki əməkdaşlıq ümidvericidir". İtaliyanın müdafiə sənayesi nəhəngləri və yüksək texnoloji şirkətləri ilə qurulacaq yeni sinerji, Azərbaycan Silahlı Qüvvələrinin modernləşdirilməsinə və yerli hərbi-sənaye kompleksinin inkişafına əlavə təkan verəcək. Habelə genişlənən əməkdaşlıq özlüyündə ciddi siyasi və iqtisadi perspektivlər vəd edən reallıqda Roma və Bakı arasındakı bu sıx tərəfdaşlığın digər əhəmiyyəti isə Avropa daxilində Azərbaycana qarşı qərəzli və islamofob bəyanatlar səsləndirən, regionda revanşizmi alovlandırmağa can atan qüvvələrə qarşı ən tutarlı və sarsıdıcı cavab olması hesab edilə bilər. İtaliya kimi qlobal və rasional gücün Azərbaycanın yanında yer alması, ölkəmizin beynəlxalq münasibətlər sistemindəki sarsılmaz yerinin və Prezident İlham Əliyevin yürütdüyü müstəqil, qətiyyətli və milli maraqlara söykənən xarici siyasət kursunun növbəti böyük triumfudur.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*




# Azərbaycanın mədəniyyət zirvəsi

## Zəfər rəmzimiz Şuşa bu gün regionun mühüm siyasi və mədəni mərkəzinə çevrilərək özünün yeni intibah dövrünü yaşayır

**"Şuşa rəsmi olaraq Azərbaycanın mədəniyyət paytaxtıdır, eyni zamanda Şuşa bizim Qələbəmizin rəmzidir, sülhün rəmzidir...**

...Şuşada artıq bir neçə beynəlxalq tədbir keçirilibdir. Bu şəhərdə "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı, Vaqif Poeziya Günləri, bir neçə beynəlxalq idman tədbiri keçirilib... ...Yəni bu şəhər öz kimliyini qoruya bilmişdir".

Qarabağın xilaskarı İlham Əliyevin bəyan etdiyi kimi, dünya azərbaycanlılarının vətən qibləsi olan Şuşa xalqımızın milli mənliyinin, sarsılmaz ruhunun və qəhrəmanlıq tarixinin simvoludur. 28 illik ayrılıqdan sonra 2020-ci ilin 8 noyabr tarixində öz doğma sahiblərinə qovuşan bu qədim yurd yeri, bu gün artıq regionun mühüm siyasi və mədəni mərkəzinə çevrilərək özünün yeni dirçəliş dövrünü yaşayır.

### Dirçəliş salnaməsi

Şuşa şəhərinin Prezident İlham Əliyev tərəfindən mədəniyyət paytaxtımız elan edilməsi də bu diyarın dirçəliş salnaməsinin əsas səhifələrindən oldu.

7 may 2021-ci ildə qəbul edilən bu qərar Şuşa şəhərinin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması, eləcə də Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği məqsədilə imzalandı.

Prezidentin sərəncamında vurğulanır ki, Şuşa şəhəri tarixən Azərbaycanın tarixi-mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biri olmuşdur: "1977-ci ildə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü ilə "Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında" qərar qəbul edilmişdir. Həmin qərar nəticəsində Şuşada abidələrin qorunması, görkəmli mədəniyyət və incəsənət xadimlərinin xatirələrinin əbədiləşdirilməsi istiqamətində əhəmiyyətli addımlar atılmışdır".

Zəfər qalamız Şuşanın əsası 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulub. Təbii strateji mövqeyi və füsunkar təbiəti ilə seçilən bu şəhər qısa zamanda Qarabağ xanlığının mərkəzi və mühüm ticarət-mədəniyyət ünvanı kimi formalaşıb. 17 məhəlləsi, hər məhəllənin öz məscidi, hamamı və bulağı ilə Şuşa, Şərq memarlığının ən nadir incilərindən biri hesab olunur.

Şuşanın Azərbaycan ruhunu qorumasında Ulu Öndər Heydər Əliyevin müstəsna xidmətləri olub. 1970-ci illərdə onun təşəbbüsü ilə 10 avqust 1977-ci ildə Şuşa şəhəri tarix-memarlıq qoruğu elan edilib, şəhər ümumittifaq səviyyəli kurort mərkəzinə çevrilib, Molla Pənah Vaqifin məqbərəsi ucaldılıb, Poeziya Günləri ənənəsinin əsası qoyulub. Bir sözlə, burada azərbaycançılıq məfkurəsi daha da möhkəmləndirilib.

Şuşanın Ulu Öndərin qəlbində hansı uca məqamda olduğunu dahi şəxsiyyətin bu qədim şəhər haqqında dediyi sözlərdən də duymaq olur: "Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir. Şuşanı yaradanlar, Şuşa şəhərini quranlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibləri olublar və Qarabağda Azərbaycan torpağının daim qorunması, saxlanması üçün Şuşa şəhərini, qalasını yaradıblar.

Bu şəhərdə, onun ətrafında Azərbaycan xalqının bir neçə əsrlik tarixə malik böyük mədəniyyəti, mədəni irsi, qəhrəmanlıq nümunələri yaranıbdır. Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir".

### Qala şəhərimizdə yazılan qəhrəmanlıq dastanı

Vətən müharibəsində Şuşanın azad edilməsi dünya hərb tarixinə düşən ən nadir əməliyyatlardan biridir. Azərbaycan Ordusunun qəhrəman döyüşçüləri sıldırım qayaları yüngül silahlarla dırmaşaraq, əlbəyaxa döyüşlərdə düşməni darmadağın etdilər.

8 noyabr 2020-ci ildə Prezident İlham Əliyevin Şəhidlər xiyabanından səsləndirdiyi "Əziz Şuşa, sən azadsan!" müjdəsi hər bir azərbaycanlının yaddaşına əbədi həkk olundu.

2021-ci ildə Zəfər yolu ilə Şuşaya gələn müzəffər sərkərdə İlham Əliyev özü ilə Xurşidbanu Natəvanın, Üzeyir bəy Hacıbəylinin və Bülbülün düşmən tərəfindən güllələnmiş büstlərini də Şuşaya gətirdi. Bununla həm də Şuşaya, Qarabağa Azərbaycan ruhunun döndüyünü, bu qədim yurdun tezliklə xoşbəxt günlərə qovuşdurulacağının mesajını verdi.

Prezident İlham Əliyevin sərəncamı ilə Şuşanın rəsmi olaraq Azərbaycanın Mədəniyyət Paytaxtı elan edilməsi şəhərin tarixi simasının bərpası və onun beynəlxalq aləmdə təbliği üçün yeni bir mərhələnin başlanğıcı oldu.

Şuşanın dirçəlişi Prezident İlham Əliyevin diqqəti altındadır. Şəhərin baş planı hazırlanarkən onun tarixi görkəminin saxlanılması əsas prinsip kimi götürülüb.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu tərəfindən Şuşadakı məscidlərimiz və tarixi binalar sürətlə bərpa edilib və bu proses uğurla davam etdirilir.

Şuşada keçirilən "Xarıbülbül" Musiqi Festivalı, Vaqif Poeziya Günləri və digər mədəni tədbirlər mədəniyyət paytaxtımızı yenidən dünya gündəminə gətirdi.

2021-ci il iyunun 15-də - Qurtuluş Günündə Şuşada Azərbaycan və Türkiyə prezidentləri tərəfindən imzalanan Şuşa Bəyannaməsi bu şəhərin təkcə mədəni deyil, həm də strateji və diplomatik əhəmiyyətini beynəlxalq aləmə nümayiş etdirdi. Bu sənədlə Şuşa həm də türk dünyasının birlik rəmzinə çevrildi.

Azadlığının üzərindən ötən qısa zaman ərzində qoynunda musiqi festivalları, poeziya günləri, beynəlxalq toplantılar düzənlənən musiqimizin beşiyi Şuşanın 270 illik təntənəli yubileyi keçirilib, 2022-ci il Azərbaycanda başdan-başa "Şuşa ili" kimi qeyd olunub. Böyük qələbəmizlə qürur duyan dünya azərbaycanlıları Zəfər qurultaylarını Şuşada keçiriblər.

### Şuşada Azərbaycan ruhu

Şuşa müfəssəl və dəqiq, ən müasir şəhərsalma qaydalarına uyğun planlar əsasında yenidən qurulur. Burada aparılan sürətli quruculuq və bərpa işləri sayəsində şəhərə doğma sakinlərinin qayıdışı da artıq reallaşıb. Bu tarixi yurdumuza ilk köç 2024-cü il mayın 10-da baş tutub. Ötən müddətdə 377 ailə, 1411 nəfər doğma yurduna qovuşub.

Şuşanın onilliklərdən sonra öz doğma sakinlərini məhz Ulu Öndərin doğum günündə bağrına basması tarixin ən gözəl ədalət nümunələrindən biridir. Bu köç həm də Azərbaycan ruhunun öz tarixi məskəninə qayıtmasının simvoluna çevrildi.

Həmin gün Şuşa otuz iki illik həsrətdən sonra öz əzəli sakinlərinin ayaq səsləri, uşaq gülüşləri və sevinc göz yaşları ilə yenidən doğuldu.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin Şuşaya köçən ilk sakinlərlə görüşdəki çıxışı, həm də bir liderin xalqına verdiyi vədin tam mənası ilə yerinə yetirilməsinin təntənəsi idi: "Otuz iki ildən sonra siz doğma Şuşaya qayıdırsınız. Bu gözəl tarixi hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm. Siz otuz iki il vətən həsrəti ilə yaşamısınız, amma bilirəm ki, bir an da Şuşanı unutmamısınız, bilirdiniz və inanırdınız ki, siz buraya qayıdacaqsınız. Mən də bilirdim, mən də inanırdım və Prezident kimi 2003-cü ildən başlayaraq sizi və bütün keçmiş köçkünləri öz doğma vətəninə qaytarmaq üçün əlimdən gələni əsirgəmirdim".

Qarabağın xilaskarı İlham Əliyev bütün dünyaya bəyan etdi ki, Şuşa artıq dirçələn, nəfəs alan və öz yeni, möhtəşəm tarixini yazan canlı əfsanədir.

Bu gün Şuşanın küçələrində gəzərkən insanın ruhu qanadlanır. Şəhərin üzərindəki duman artıq kədərin deyil, vüqarın rəmzidir. İndi Şuşada Günəş də fərqlidir, xarıbülbüllər daha vüqarla boy atır. Çünki azad Şuşa artıq öz sahiblərinin nəfəsi ilə isinir, onun məscidlərindən ucalan azan səsi, Cıdır düzündən bütün Qarabağa yayılan muğam sədası Azərbaycan ruhunun bu torpaqlara əbədi qayıdışını təcəssüm etdirir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Makron rəsmi Bakının tezislərini təkrarlayır

## Fransa rəhbərinin etirafları və Ermənistanın "proksi dövlət" reallığını dilə gətirməsi Azərbaycan liderinin strateji uzaqgörənliyini bir daha təsdiqləyir

**Fransa Prezidenti Emmanuel Makronun İrəvanda Ermənistanın keçmişini "proksi dövlət" kimi xarakterizə etməsi siyasi tarixin arxivindəki bir çox vacib məqamları yenidən diqqət mərkəzinə çəkib. Əslində, bu konseptual yanaşma beynəlxalq münasibətlər sistemi üçün yeni sayılmamalıdır. Çünki Azərbaycan Prezidenti İlham Əliyev hələ illər öncəsindən Ermənistanın suveren qərarlar qəbul etmək gücündə olmadığını, bu ölkənin qlobal güclərin əlində bir alətə çevrilərək forpost funksiyasını yerinə yetirdiyini sistemli şəkildə diqqətə çatdırıb.**

Dövlətimizin başçısı ən mötəbər qlobal kürsülərdə və dünya mediasına verdiyi açıqlamalarda Ermənistanın dövlət müstəqilliyinin formal xarakter daşıdığını dəfələrlə vurğulayıb. Makronun indi eyni həqiqəti dilə gətirməsi rəsmi Bakının zamanında irəli sürdüyü tezislərin və dövlət başçısının siyasi təhlillərinin nə dərəcədə obyektiv olduğunu bir daha təsdiqləyir. Bu bəyanat həm də Azərbaycanın illər öncə formalaşdırdığı strateji tezislərin qlobal miqyasda qəbul olunmasının bariz nümunəsidir. Göründüyü kimi, Ermənistanın uzun illər boyu "müstəqil dövlət" obrazı arxasında gizlənən forpost reallığı ən yüksək tribunalardan etiraf edilir. Bu etiraf Ermənistanın keçmişi ilə yanaşı, eyni zamanda gələcək suverenlik imkanlarını ciddi sual altına qoyur. Azərbaycan tərəfi hər zaman vurğulayırdı ki, Ermənistanın idarəetmə, iqtisadiyyat və müdafiə sistemləri birbaşa kənar güclərin tam nəzarəti altındadır.

Makronun çıxışında diqqətçəkən əsas məqamlardan biri 8 il əvvəlki mənzərəyə dair verdiyi açıqlamadır. O dövrdə avropalı dövlət adamlarının İrəvana səfər etməsinin mümkünsüzlüyünü xatırlatması Ermənistanın qlobal arenada nə dərəcədə məhdud manevr imkanlarına və zəif legitimliyə malik olduğunu ortaya qoyur. Müstəqillik yalnız bayraq və gerblə bitmir, bu, həm də dövlətin öz xarici siyasətini heç kəsdən asılı olmadan müəyyən etmək qabiliyyətidir. Ancaq Ermənistan bu keyfiyyətdən məhrum idi. 2018-ci ilin siyasi təlatümləri və Nikol Paşinyanın hakimiyyətə gəlməsi İrəvanın fərqli bir "yol xəritəsi" çızmaq cəhdi kimi qələmə verilirdi. Xüsusən "məxməri inqilab" sonrası Ermənistanın Qərbə tərəf meyillənməsi barədə fikirlər çoxalsa da, bu keçidin nə dərəcədə səmimi və qalıcı olması hələ də sual altındadır. Çünki onilliklər boyu hörülmüş təhlükəsizlik, enerji və iqtisadi asılılıq zəncirlərini qısa zamanda qırıb atmaq heç də asan deyildir.



Fransa Prezidenti 44 günlük Vətən müharibəsi zamanı Ermənistana dəstək verdiyini bir daha etiraf edib: "Rusiya 2020-ci ildə sizə kömək etmədi. O, sizi tərk etdi. Fransa isə burada idi və indi də yanınızdadır". Bu etiraf həm də göstərir ki, 44 günlük Vətən müharibəsi dövründə Fransa tərəfsiz olmayıb, İrəvanın gizli və ya aşkar vəkili kimi çıxış edib. Makronun "Rusiya sizi tərk etdi" mesajı Ermənistan cəmiyyətindəki anti-Rusiya meyillərini qızışdırmağa hesablanıb. Fransa burada Ermənistana "təhlükəsizlik çətiri" vəd edərək, Moskvanın boşaltdığı yeri doldurmağa çalışır. Bu, regionun sülh və sabitliyi üçün yox, sırf Qərbin, xüsusilə Fransanın geosiyasi nüfuz dairəsini genişləndirmək üçün atılan bir addımdır.

Parisin zaman-zaman məsələni BMT Təhlükəsizlik Şurasına (TŞ) daşımaq cəhdləri və sanksiya tələbləri də Azərbaycanın qazandığı hərbi-siyasi zəfəri diplomatik müstəvidə ləğv etmək cəhdi idi. Paris dəfələrlə Azərbaycan əleyhinə qətnamələr qəbul etdirməyə çalışsa da, bu cəhdlər rəsmi Bakının çevik diplomatiyası və müttəfiqlərinin dəstəyi ilə nəticəsiz qalıb.

Makron və Ermənistan rəhbərliyi arasında imzalanan hərbi sazişlər regionun gələcək təhlükəsizlik dinamikasına birbaşa təsir edən addımlardır. Fransa bu sazişlərlə Ermənistanın ən böyük hərbi tərəfdaşına çevrilmək iddiasını ortaya qoyur. Paris Ermənistana mesaj verir ki, "Rusiya sizi qorumursa, biz sizi silahlandırırıq". Bu addımlar Ermənistanda revanşist meyilləri stimullaşdıra və regionda yeni silahlanma yarışına səbəb ola bilər. Azərbaycan bu cür hərbi sazişləri regionda sülh prosesinə maneə kimi qiymətləndirir. Ələlxüsus, Fransanın Ermənistana hücum xarakterli silahlar verməsi regionda kövrək olan sabitliyi poza bilər.

Fransanın həm Ermənistanı açıq şəkildə silahlandırması, həm də "vasitəçi" olmaq iddiası siyasi və diplomatik paradoks təşkil edir. Beynəlxalq praktikada vasitəçilik missiyasını üzərinə götürən tərəf hər iki tərəfə eyni məsafədə durmalı və neytral hakim statusunu qorumalıdır. Lakin bir tərəfi silahlandıran dövlət, digər tərəflə danışıqlar masasında ədalətli ola bilməz. Ən əsası isə Azərbaycan Prezidenti İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, regionda artıq üçüncü tərəflərə ehtiyac yoxdur. Bakı-İrəvan arasında birbaşa təmaslar və dialoq kanalları artıq işlək vəziyyətdədir və bu, kənar manipulyasiya riskini minimuma endirir. İndiki halda Fransanın vasitəçiliyi sülhə yox, gərginliyə xidmət edir. Parisin bu cür fəaliyyəti, əslində, regionda stabilliyi pozan amillərdir.

Paris İrəvana "yanında olduğunu" desə də, reallıqda bu "dəstək" Ermənistana 2020-ci ildə heç bir praktiki üstünlük qazandırmadı. Deməli, Paris Ermənistana, sadəcə, illüziya və boş ümidlər satır. Azərbaycan beynəlxalq hüquqa söykənərək öz ərazi bütövlüyünü bərpa edib və regionda yeni reallıq yaradıb.

Nəticə olaraq, Makronun çıxışları Fransanın Ermənistandan öz ambisiyaları üçün bir alət kimi istifadə etdiyini, Azərbaycanın isə həm döyüş meydanında, həm də diplomatik masada təkcə İrəvanla deyil, onun arxasındakı güclü himayədarlarla da mübarizə apardığını bir daha sübut edir. Makronun açıqlamaları həm də Azərbaycan diplomatiyasının illərdir dediyi "Fransa tərəflidir" arqumentini ən yüksək səviyyədə möhürləmiş oldu.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Kaya Kallasın səfəri Azərbaycan-Aİ əməkdaşlığının strateji məzmununu göstərir

**Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasın Bakıya səfəri Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın yeni geosiyasi reallıqlar fonunda daha geniş və strateji çərçivədə inkişaf etdiyini nümayiş etdirir. Səfər Azərbaycan-Avropa İttifaqı münasibətlərində enerji, nəqliyyat və regional bağlantılar gündəliyinin daha da aktuallaşdığını göstərir. Belə ki, Azərbaycanın Avropa Cənubi Qafqaz, Xəzər hövzəsi və Mərkəzi Asiya arasında strateji körpü rolunu oynayan mühüm regional aktorun olması bir daha təsdiqlənib.**

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin baş məsləhətçisi Roza Bayramlı qəzetimizə açıqlamasında xatırladıb ki, K.Kallas çıxışında Azərbaycanı Avropa İttifaqı üçün dəyərli və etibarlı enerji tərəfdaşı kimi dəyərləndirərək, tərəflər arasında əməkdaşlığın, xüsusilə ticarət, nəqliyyat və rəqəmsal sahələrdə daha da dərinləşdirilməsi üçün geniş imkanların mövcud olduğunu qeyd edib: "Onun sözlərinə görə, Avropa İttifaqı, Cənubi Qafqaz və Mərkəzi Asiya arasında əlaqəliliyin gücləndirilməsi tərəflərin ortaq strateji maraqlarına cavab verir. Qeyd edilib ki, Brüssel Azərbaycanla daha strukturlaşdırılmış tərəfdaşlığı müzakirə etməyə açıqdır. Bu fikirlər göstərir ki, K.Kallas Avropa İttifaqının Cənubi Qafqaz və Mərkəzi Asiya ilə əlaqəlilik gündəliyində Azərbaycana xüsusi önəm verir. Nəqliyyat marşrutlarının transformasiyası, Orta dəhlizin artan əhəmiyyəti və Avrasiyada yeni logistika reallıqlarının formalaşması fonunda Azərbaycan Aİ üçün həm də Avropa ilə Asiya arasında strateji mərkəz kimi çıxış edir. Xüsusilə qlobal təchizat zəncirlərində yaranan risklər, ənənəvi marşrutlar üzrə qeyri-müəyyənliklər və alternativ nəqliyyat dəhlizlərinə artan ehtiyac fonunda Orta dəhlizin əhəmiyyəti daha da artır. Bu kontekstdə Azərbaycan həm infrastruktur imkanları, həm də siyasi sabitliyi ilə mühüm tranzit ölkə rolunu oynayır. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, dəmir yolu və avtomobil infrastrukturu, həmçinin regional nəqliyyat layihələri Azərbaycanın Avrasiya bağlantılarında rolunu gücləndirir".



Ekspert qeyd edib ki, enerji sahəsində Azərbaycan Avropa İttifaqı üçün etibarlı və strateji tərəfdaş olaraq qalır. "Cənub qaz dəhlizi" çərçivəsində enerji əməkdaşlığı artıq öz effektivliyini sübut edib. Bununla yanaşı, tərəflər arasında əməkdaşlıq yalnız təbii qazla məhdudlaşmır. Bərpaolunan enerji, "yaşıl enerji" dəhlizləri və Xəzər regionunun enerji potensialının Avropa bazarlarına çıxarılması kimi istiqamətlər Azərbaycan-Aİ münasibətlərinin gələcək gündəliyində xüsusi yer tutur. Bu prosesləri C6 formatı baxımından da qiymətləndirmək vacibdir. Azərbaycanın C6 formatında iştirakı Cənubi Qafqaz ilə Mərkəzi Asiya arasında yeni institusional və strateji körpünün formalaşmasına imkan yaradır. Bu baxımdan Azərbaycan Avropa İttifaqı üçün həm də Mərkəzi Asiya ilə daha geniş əməkdaşlıq gündəliyinin mühüm iştirakçısıdır. C6 ölkələrinin nəqliyyat, enerji və logistika sahələrində birgə çıxış etməsi regionun beynəlxalq əhəmiyyətini daha da artırır. "Eyni zamanda K.Kallas Azərbaycan və Ermənistan arasında sülh prosesində əldə olunan irəliləyişi tarixi imkan kimi qiymətləndirib və bu dinamikanın qorunmasının vacibliyini qeyd edib. O, Avropa İttifaqının etimad quruculuğu tədbirləri və mina təmizləmə fəaliyyəti də daxil olmaqla, sülh prosesini dəstəkləmək üçün müxtəlif alətlərə malik olduğunu bildirib. Bu isə onu göstərir ki, Aİ regionda nəqliyyat və enerji əməkdaşlığı ilə yanaşı, sabitlik və təhlükəsizlik gündəliyinə də önəm verir", - deyə ekspert əlavə edib.

R.Bayramlı vurğulayıb ki, Kaya Kallasın Bakıya səfəri Avropa İttifaqının regiona daha kompleks yanaşmağa başladığını göstərir. Enerji təhlükəsizliyi, nəqliyyat bağlantıları, rəqəmsal infrastruktur və Mərkəzi Asiya ilə əlaqələrin gücləndirilməsi artıq bir-birindən ayrı deyil, vahid strateji gündəliyin tərkib hissələri kimi nəzərdən keçirilir. Bu baxımdan Azərbaycan həm Cənubi Qafqazın aparıcı dövləti, həm də C6 məkanını Avropa ilə əlaqələndirən əsas tərəfdaşlardan biri kimi çıxış edir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

**Bakı Ekspo Mərkəzi bu dəfə öz qapılarını eyni gündə üç sərgi üçün açıb. Sərgilər - "Caspian Agro Week" - 19-cu Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgi və Forumu, "InterFood Azerbaijan" - 31-ci Azərbaycan Beynəlxalq Qida Sənayesi Sərgisi və eləcə də "Horeca Caspian" - 14-cü Xəzər Beynəlxalq Mehmanxana, Restoran və Supermarketlər üçün Avadanlıq və Ləvazimatlar Sərgisi 5-8 may tarixlərində keçirilir.**



# Bir məkan, üç sərgi, 450-yə yaxın şirkət

## Azərbaycan bir daha beynəlxalq təcrübəyə açıq olduğunu göstərir

Bu tədbirlər çərçivəsində təşkil olunan forumlar, panel müzakirələri və işgüzar görüşlər sözügedən sahələrin aktual məsələlərinin daha geniş şəkildə müzakirəsinə imkan yaradıb. Bu platforma dövlət, özəl sektor, elm və innovasiya nümayəndələri arasında səmərəli əməkdaşlığın gücləndirilməsinə, beynəlxalq təcrübə mübadiləsinin genişləndirilməsinə bir daha təkan verib.

Prezident İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın və qızları Leyla Əliyevanın mayın 5-də Bakı Ekspo Mərkəzinə gələrək sərgilərlə tanış olmaqları bu tədbirlərin əhəmiyyətini bir daha vurğulayır. Bu, sərgi iştirakçılarında da olduqca dərin təəssürat yaradıb. Məsələn, Gürcüstanın "Farcon" ədviyyat istehsal edən şirkətinin həmtəsisçisi Mamuka Vojayeviç belə deyib: "Dünyanın bir çox ölkələrində keçirilən sərgilərdə iştirak etmişəm. Nə Asiya, nə də Avropa dövlətlərində ölkə prezidentinin sərgiyə gəlib sahibkarlarla maraqlanmasını görməmişəm. Azərbaycan Prezidenti İlham Əliyevin sərgiyə bu qədər diqqət göstərməsi dövlətin kənd təsərrüfatı sahəsində çalışanlara qayğısının nümunəsidir".

M.Vojayeviç qeyd edib ki, dünyada baş verən iqlim dəyişmələri su çatışmazlığı, təbii fəlakətlər, torpaqların eroziyası kimi problemlər yaradır: "Belə bir zamanda kənd təsərrüfatının vəziyyəti pisləşir, fermerlər bol məhsul toplayıb bazara çıxarmaqda çətinlik çəkirlər. Lakin Azərbaycanda hökumətin bu sahəyə diqqəti məncə nümunə olmalıdır. Azərbaycan unikal ölkədir".

45 ölkənin nümayəndələri adıçəkilən sərgilərdə iştirak edir. 447 şirkətin iştirak etməsi ilə sərgilərin coğrafiyası bu il daha da genişlənib. İlk dəfədir tədbirdə Braziliya, Efiopiya, Şimali Kipr milli pavilyonlarla təmsil olunur. Sərgilərdə Almaniya, Belarus, Braziliya, Cənubi Koreya, Gürcüstan, İtaliya, İndoneziya və Niderland milli stendlərini göstərirlər.

Ötən 19 il ərzində nüfuz qazanmış "Caspian Agro Week" sərgisi bu dəfə yenidən kənd təsərrüfatı texnikası, obyektləri və avadanlıqları, suvarma, qablaşdırma, logistika sahələrini əhatə edir. Sərgidə həmçinin elektron kənd təsərrüfatı, innovasiya texnologiyaları, heyvandarlıq, quşçuluq, bitkiçilik, baytarlıq, tullantıların emalı məsələləri özünə yer alır. Burada eyni zamanda "Smart Agro" istiqaməti üzrə süni intellekt, "ağıllı kənd", startaplar, İT xidmətləri, robototexnika, pilotsuz uçuş aparatları və "green agro" bölmələri nümayiş etdirilir. Təsadüfi deyil ki, indiyədək "Caspian Agro" kimi tanınan sərgi bu il artıq "Caspian Agro Week" konsepti çərçivəsində təşkil olunub. Tədbir çərçivəsində konfrans və forumlar keçirilir, innovativ təsərrüfatlara səfərlər edilir.

"InterFood Azerbaijan" sərgisində isə qida sənayesi, içkilər, meyvə-tərəvəz, qida texnologiyaları və digər bölmələr üzrə məhsullar və xidmətlər təqdim olunur.

"Made in Azerbaijan" brendinin təşviqi üçün əlverişli platforma rolunu oynayan sərgilərə Kənd Təsərrüfatı Nazirliyi təşkilati dəstək göstərir. Kənd təsərrüfatı naziri Məcnun Məmmədov tədbirin açılışında demişdir: "Müasir dövrdə kənd təsərrüfatı yalnız iqtisadi fəaliyyət sahəsi deyil, eyni zamanda ərzaq təhlükəsizliyinin təmin olunması, regionların sosial-iqtisadi inkişafı, məşğulluğun artırılması və ekoloji dayanıqlılığın qorunması baxımından mühüm strateji istiqamətdir. Qlobal iqlim dəyişiklikləri, təbii resurslardan səmərəli istifadə zərurəti və artan ərzaq tələbatı aqrar siyasətdə yeni yanaşmaların tətbiqini vacib edir. Respublikamızda aqrar sektorun inkişafı dövlət siyasətinin əsas prioritet istiqamətlərindən biridir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü islahatlar kənd təsərrüfatının modernləşdirilməsinə, fermerlərin rifahının yüksəldilməsinə və aqrar istehsalın rəqabət qabiliyyətinin artırılmasına xidmət edir. Bu istiqamətdə dövlət tərəfindən fermerlərə və sahibkarlara geniş dəstək mexanizmləri tətbiq olunur. Subsidiyaların verilməsi, güzəştli kreditlərin təqdim edilməsi, kənd təsərrüfatı texnikasına əlçatanlığının artırılması, aqrar sığorta sisteminin genişləndirilməsi və innovativ texnologiyaların tətbiqinin təşviqi aqrar sektorun dayanıqlı inkişafına mühüm töhfə verir".

Qeyd edilib ki, eyni zamanda aqrar sahədə rəqəmsallaşmanın genişləndirilməsi, "ağıllı kənd təsərrüfatı" həllərinin tətbiqi, su resurslarından səmərəli istifadə, torpaq münbitliyinin qorunması və ekoloji cəhətdən dayanıqlı istehsal modellərinin təşviqi dövlət siyasətinin mühüm istiqamətlərindəndir. Məqsəd müasir çağırışlara cavab verən, yüksək məhsuldarlığa əsaslanan və ixrac potensialını artıran güclü aqrar sistem formalaşdırılmasıdır. İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən aqrar layihələr də ölkəmizin kənd təsərrüfatı strategiyasında xüsusi yer tutur. Həmin ərazilərdə müasir infrastrukturun qurulması, innovativ təsərrüfat modellərinin yaradılması və "ağıllı kənd" yanaşmalarının tətbiqi regionun böyük aqrar potensialının reallaşdırılmasına xidmət edir.

Nazirliyin sərgidə öz stendi də var. Burada aqrar sektorun inkişafına yönəlmiş layihələr, dövlət dəstəyi mexanizmləri, rəqəmsal həllər, innovativ yanaşmalar, "Aqrar sahədə süni zəka", "Dəqiq kənd təsərrüfatında süni intellektin tətbiqi" layihələri, həmçinin startap təşəbbüsləri ilə bağlı məlumatlar təqdim olunur. Stenddə eləcə də "ağıllı" kənd təsərrüfatı texnologiyaları, rəqəmsal monitorinq sistemləri, məhsuldarlığın artırılmasına yönəlmiş texnoloji yanaşmalar, işğaldan azad olunmuş ərazilərimizdə kənd təsərrüfatı təyinatlı torpaqların icarəyə verilməsi üzrə nazirliyin həyata keçirdiyi investisiya müsabiqələri ilə bağlı pilot layihə, regionlarda təşkil olunmuş aqrar biznes və məhsul festivalları barədə məlumatlar öz əksini tapıb.

Dövlətimizin başçısı Bakı Ekspo Mərkəzində bu və bir sıra digər stendlərlə tanış oldu. Bunlardan biri "Azərsun Holdinq" şirkətinin stendi idi. Məlumdur ki, bu şirkət "tarladan süfrəyə" prinsipi ilə fəaliyyət göstərərək, müasir avadanlıq və innovativ həllərlə yüksəkkeyfiyyətli kənd təsərrüfatı məhsulları istehsal edir.

Bir sözlə, sərgi iştirakçısı olan yerli və xarici şirkətlərin nümayiş etdirdikləri nailiyyətlər çox, təcrübə zəngindir. Məsələn, İtaliyanın "New Holland" şirkəti kənd təsərrüfatı texnikasının istehsalı sahəsində 130 illik təcrübəyə malikdir. Dünyanın 170-dən çox ölkəsində bu şirkətin məhsulları istifadə olunur. "New Holland" kombaynları və traktorları müasir texnologiyalarla təchiz olunaraq fermerlərin işini asanlaşdırır, keyfiyyətli biçinlə yanaşı, məhsul yığımını da avtomatlaşdırır.

Odur ki, sərgilər həm də onlarla şirkətin bir-birilə təcrübə mübadiləsi apardığı, yeni əlaqələr qurduğu məkana çevrilib. Belarusun böyük müssisələrindən olan "Qrodnı" ət kombinatının ixrac şöbəsinin müdiri Aleksandr Tomaşevskinin sözləri deyilənləri təsdiqləyir:" Azərbaycanın "Aznur" şirkəti ilə apardığımız danışıqlar nəticəsində müqavilə imzaladıq və ildə 12 min ton ət və ət məhsulları ixrac etmək haqqında razılığa gəldik. Bununla yanaşı, istehsal etdiyimiz məhsulların satışı üçün Azərbaycanda fəaliyyət göstərən "Araz" marketlər şəbəkəsi ilə da danışıqlarımız davam edir. Biz bu marketlər şəbəkəsinə ət və ət məhsullarını tədarük etmək istəyirik. Sərgi təkcə Azərbaycanda deyil, digər ölkələrdən də tərəfdaşlar tapmağa və birgə biznes qurmağa şərait yaradır".

***Flora SADIQLI, "Azərbaycan"***

# Azərbaycanda orqanik kənd təsərrüfatı məhsulları istehsalı: *problemlər, perspektivlər*

**Hazırda müasir aqrar sektorun qarşısındakı əsas vəzifələrdən biri də davamlı əkinçilik sistemini yaratmaqla torpaqlardan rasional istifadə etmək, onun münbitliyini yaxşılaşdırmaq və qorumaqdır. Bu vəzifələr ekosistemin və insan sağlamlığının qorunması məqsədilə yaradılmış "Ekoloji əkinçilik"də öz əksini tapır. Bu gün ekoloji əkinçiliklə bağlı dünyada Ekoloji Kənd Təsərrüfatı Hərəkatı Federasiyası (İFOAM) fəaliyyət göstərir.**

Bəs bu gün orqanik kənd təsərrüfatına maraq hansı zərurətdən artıb? Cavab sadədir: orqanik kənd təsərrüfatı torpağın münbitliyinin qorunmasına, biomüxtəlifliyin saxlanmasına, su və torpaq ehtiyatlarının mühafizəsinə, pestisid yüklənməsinin azalmasına və insan sağlamlığına xidmət edir. Ekoloji əkinçilik kimyəvi üsullarla alınmış gübrə, pestisid, herbisid və boya maddələrinin, o cümlədən geni dəyişdirilmiş toxumların istifadəsini ləğv etməklə üstünlüyü paxlalı bitkilərə, peyinə, sideratlara, bitki qalıqlarına, üzvi tullantılara, torpağın rasional mexaniki becərilməsinə, xəstəlik və zərərvericilərə, alaq otlarına qarşı bioloji və aqrotexniki üsullardan istifadəyə verir. Bu kimi prinsiplər orqanik heyvandarlıqda da qorunur. Belə ki, orqanik heyvandarlıq sintetik əlavələrdən, antibiotik və hormonlardan imtina etməklə, insan sağlamlığının və ekoloji balansın qorunmasına yönəlmiş təbii yemləməyə əsaslanır.

Azərbaycanda da orqanik məhsullara maraq artmaqdadır. Lakin mövcud potensiala baxmayaraq, sahənin inkişafı hələ istənilən səviyyədə deyil. Xatırladaq ki, hələ 2008-ci ildə ölkəmizdə "Ekoloji təmiz kənd təsərrüfatı haqqında" qanun qəbul edilmişdir. Azərbaycanda orqanik kənd təsərrüfatının elmi əsaslarla inkişafında əhəmiyyətli rolu olan Azərbaycan Dövlət Aqrar Universitetində (ADAU) isə bu sahənin institusional fəaliyyətinə 25 il öncə başlanılmışdır. Uzun illər ADAU-da çalışmış professor Amin Babayev Azərbaycanda ekoloji təmiz (orqanik) kənd təsərrüfatının təşviqi və tətbiqinin elmi əsaslarının işlənməsinə, hüquqi bazasının və informasiya-məlumat bankının yaradılmasına, həmçinin ali kadr hazırlığı işinə böyük töhfələr vermişdir. O, bu sahədəki fəaliyyətinə, o cümlədən elmi tədqiqatların aparılması və praktiki sahədə əldə olunan nəticələrə görə 2017-ci ildə Vahid Dünya Mükafatına (Almaniya) layiq görülmüşdür.

Orqanik kənd təsərrüfatının inkişafında ölkəmizin əlverişli torpaq-iqlim şəraitini və orqanik məhsulların ixrac potensialını nəzərə alaraq, ADAU-da kadr hazırlığı istiqamətində fundamental işlər aparılır. Universitetdə ekoloji əkinçilik sistemləri, natural əkinçilik, permakultura, bioloji, orqanik (üzvi), biodinamik əkinçilik sistemləri və onların əsas prinsipləri, ekoloji əkinçilikdə torpaq münbitliyinin dayanıqlı idarəetmə strategiyaları və digər bu kimi məsələlər haqqında tələbələrə bilik və bacarıqlar aşılanır.

Ölkənin yeganə ali aqrar təhsil müəssisəsində Aqronomluq fakültəsinin mütəxəssisləri tərəfindən "Ekoloji kənd təsərrüfatının əsasları", "Ekoloji əkinçiliyin əsasları", ""Ekoloji əkinçilik sistemləri" və "Ekoloji məhsul istehsalı texnologiyası" adlı dərsliklər və dərs vəsaitləri hazırlanmışdır. Bundan başqa, 2023-cü ildən etibarən ADAU-nun Tədris-Təcrübə Təsərrüfatında Aqronomluq fakültəsinin Ümumi əkinçilik, genetika və seleksiya kafedrası "Orqanik əkinçilikdə vermikultura və effektiv mikroorqanizmlərin torpağın münbitliyinə və becərilən bitkilərin məhsuldarlığına təsirinin öyrənilməsi" mövzusunda fundamental elmi-tədqiqat işləri aparır.

Qeyd edək ki, Azərbaycanın müxtəlif torpaq-iqlim zonaları - Aran, Gəncə-Qazax, Lənkəran-Astara, Şəki-Zaqatala və Qarabağ iqtisadi rayonlarında orqanik məhsul istehsalı üçün əlverişli şərait var. Bu bölgələrdə orqanik meyvəçilik, tərəvəzçilik, üzümçülük, çayçılıq və arıçılıq üçün potensial imkanlar mövcuddur. Araşdırmalarımızın nəticələri göstərir ki, son illər bəzi iri və orta fermer təsərrüfatları orqanik istehsala keçid etmiş, təsərrüfatlarda ixracyönümlü orqanik məhsul istehsalı təşəbbüsləri artmışdır. Dövlət tərəfindən də bu sahəyə dəstək mexanizmləri gücləndirilmişdir. Bununla belə, ölkədə orqanik kənd təsərrüfatı məhsulları istehsalının payı ümumi istehsalda hələ də istənilən səviyyədə deyil. Orqanik torpaqların ümumi kənd təsərrüfatı torpaqlarına nisbəti də aşağıdır. Ölkəmizdə təxminən 37 min hektar orqanik torpaq sahəsi var və 300-ə yaxın fermer bu sahədə çalışır. Bu onu göstərir ki, ölkəmizdə orqanik sektorun potensialı olsa da, hələ əsas kənd təsərrüfatı sisteminin çox kiçik hissəsidir.

Sağlam qidalanma mədəniyyətinin artması, xüsusən iri şəhərlərdə orqanik məhsullara tələbatın yüksəlməsi bazarın genişlənməsi üçün imkan yaradır. Bu istiqamətdə Azərbaycan coğrafi mövqe və logistika imkanları baxımından rəqabət üstünlüyünə malikdir. Azad edilmiş ərazilərdə torpaq və ekosistemlərin bərpası prosesində orqanik və ekoloji təmiz istehsal modelinin tətbiqi gələcəkdə dayanıqlı kənd təsərrüfatı üçün strateji imkan verir. Bu, regionun "yaşıl aqrar zona" kimi formalaşmasına şərait yarada bilər.

Məlumdur ki, hazırda Azərbaycandan ixrac olunan orqanik məhsullar əsasən nar və nar məhsulları, fındıq, meyvə şirələri, dərman və aromatik bitkilərdir. Əsas ixrac bazarlarımız isə Rusiya, Gürcüstan, digər MDB ölkələri, son illər Yaxın Şərq, Avropa, Çin və Şimali Afrika bazarlarıdır. Azərbaycan bu gün hətta orqanik gübrə istehsal edir və onu qonşu Gürcüstana ixrac edir.

Orqanik məhsul istehsalına dair dəyər zəncirinin həlqələri arasında aparılan araşdırmalar, o cümlədən fermerlərlə keçirilən görüşlər onu deməyə əsas verir ki, ölkəmizdə orqanik məhsulların ayrıca satış şəbəkəsi, logistika və brendinq mexanizmləri hələ tam formalaşmamışdır. Bu istiqamətdə elmi araşdırmaların məhdudluğu, ixtisaslı kadrların azlığı və məsləhət xidmətlərinin çatışmazlığı, fermerlərin maarifləndirilməsinin yetərli olmaması orqanik kənd təsərrüfatında inkişafı ləngidir. Bundan başqa, orqanik məhsulların beynəlxalq standartlara uyğun sertifikatlaşdırılması fermerlər üçün həm maliyyə, həm də sənədləşdirmə proseduru baxımdan çətinlik yaradır. Çünki ənənəvi (konvensional) təsərrüfatdan orqanik sistemə keçid 2-3 il zaman tələb edir. Amma bütün bunlara baxmayaraq, ölkəmizdə ekoloji təmiz kənd təsərrüfatının inkişafı üçün münbit şərait var. 11 iqlim zonasından 9-u, kifayətedici aqroiqlim ehtiyatı, ildə 2-3 dəfə məhsul götürmək imkanı onu deməyə əsas verir ki, bu sahədə ölkəmizdə böyük potensial mövcuddur. Qalır onlardan istifadə etmək. Sonda onu da qeyd edək ki, orqanik kənd təsərrüfatı yalnız alternativ istehsal modeli deyil, həm də ölkənin ekoloji təhlükəsizliyi, torpaq resurslarının qorunması və uzunmüddətli aqrar strategiyasının mühüm tərkib hissəsidir. Düzgün planlaşdırılmış strategiya və elmi əsaslı yanaşma ilə Azərbaycan bu sahədə regional liderə çevrilə bilər.

***Fariz ƏLƏKBƏROV, ADAU-nun dosenti***

# Torpaqdan texnologiyaya - Azərbaycan aqrobiznesində yeni dövr

**Azərbaycan aqrobiznesi indi tarixi bir dönüş nöqtəsindədir. Ənənəvi torpaq təsərrüfatından "ağıllı texnologiyaların" tətbiqi və innovativ texnologiyalara keçid ölkənin kənd təsərrüfatını məhsul istehsal edən sahədən dayanıqlı və rəqabətqabiliyyətli aqro-ərzaq ekosisteminə çevirir. Burada hər bir səpin, əkin, investisiya və innovasiya yalnız məhsul üçün deyil, həm də iqtisadi inkişaf, ərzaq təhlükəsizliyi və kənd yerlərinin davamlı rifahı üçün atılan strateji addımdır. Süni intellekt, rəqəmsal idarəetmə sistemləri və "ağıllı kənd təsərrüfatı" Azərbaycan fermerlərini qlobal bazara çıxarmaq və əlavə dəyər yaratmaq imkanı ilə təmin edir.**

Bu yeni dövrdə dünən Bakıda fəaliyyətə başlayan "Caspian Agro Week" sərgisi çərçivəsində V Aqrobiznesin İnkişafı Forumu kənd təsərrüfatı və aqrobiznes sahəsində ölkənin gələcək inkişaf perspektivlərini müzakirə etmək üçün geniş imkan yaradır. Forumda texnologiyalar, investisiya imkanları və dayanıqlı inkişaf modelləri ilə bağlı fikir mübadiləsi aparılır, kənd təsərrüfatı siyasətinin gələcək prioritetləri müəyyənləşdirilir. Tədbirin əsas məqsədi yalnız kənd təsərrüfatı məhsullarının istehsalını artırmaq deyil, həm də bütün dəyər zənciri olan istehsal, emal, logistika, maliyyə və bazara çıxış imkanlarını bir platformada birləşdirərək aqrobiznesin dayanıqlı inkişafını təmin etməkdir. Belə yanaşma ölkədə aqrar sektorun rəqabətqabiliyyətini artırmaq, yüksək əlavə dəyər yaradan məhsullar istehsal etmək və beynəlxalq bazarlarda mövqeləri gücləndirmək üçün mühüm rol oynayır.

Regionun aparıcı aqrar platformalarından biri kimi mövqeyini möhkəmləndirmiş, əvvəllər "Caspian Agro" adlanan sərgi ilk dəfə bu il yeni konseptdə - "Caspian Agro Week" formatında təşkil olunub. Regionun ən nüfuzlu platformalarından olan "Caspian Agro Expo" artıq, sadəcə, texnologiyaların nümayiş olunduğu məkan deyil. Bu genişmiqyaslı platforma strateji dialoq, tərəfdaşlıq və beynəlxalq əməkdaşlıq üçün mühüm mərkəzə çevrilib.

Bu gün də davam edən forum çərçivəsində milli aqro-ərzaq gündəliyi üzrə prioritet mövzulara, yəni ərzaq təhlükəsizliyi, iqtisadiyyatın şaxələndirilməsi və dayanıqlı inkişaf məsələlərinə diqqət yetirilir. Burada dayanıqlı və rəqabətqabiliyyətli aqro-ərzaq sistemlərinin formalaşdırılması, rəqəmsal transformasiya və süni intellektin kənd təsərrüfatına tətbiqi, fermerlərin iqlimə davamlı təcrübələrə keçidinin sürətləndirilməsi, eləcə də investisiya və ixrac imkanlarının genişləndirilməsi kimi vacib mövzular müzakirə olunur. Bunlarla yanaşı, forum iştirakçıları kənd təsərrüfatında innovativ texnologiyaların tətbiqi, məhsuldarlığın artırılması və resursların səmərəli idarə olunması yollarını da müzakirə edirlər. Diskussiyalarda fermerlərin maliyyə imkanlarının genişləndirilməsi, sığorta və kredit mexanizmlərinin təkmilləşdirilməsi, həmçinin kənd təsərrüfatı məhsullarının yerli və beynəlxalq bazarlara çıxışının asanlaşdırılması məsələləri çıxışlarda yer alır. Forum həmçinin gənc fermerlərin və yeni sahibkarların aqrobiznes ekosisteminə inteqrasiyasını, eləcə də yerli istehsalın keyfiyyət və rəqabət qabiliyyətinin artırılmasını hədəfləyir. Beləliklə, bu tədbir yalnız texnologiyaların təqdimatı üçün deyil, eyni zamanda strateji dialoq, təcrübə mübadiləsi və aqrar siyasətin gələcək prioritetlərinin müəyyənləşdirilməsi üçün mühüm platforma rolunu oynayır.

Qeyd edək ki, aqrobiznes yerli və qlobal səviyyədə kənd təsərrüfatının dayanıqlı və rəqabətqabiliyyətli olmasını təmin edən kompleks ekosistemdir. Müasir aqrobiznes ənənəvi fermer təsərrüfatından fərqli olaraq, texnologiya və elmi biliklərə əsaslanır. Burada "ağıllı kənd təsərrüfatı" prinsipləri, rəqəmsal transformasiya və süni intellektin tətbiqi əhəmiyyətli rol oynayır. Belə yanaşma məhsul istehsalının artırılması ilə yanaşı, əlavə dəyərin yaradılmasını, emal və logistika proseslərinin optimallaşdırılmasını, eləcə də ixrac potensialının gücləndirilməsini təmin edir.

Aqrobiznes eyni zamanda sosial və iqtisadi məqsədlərə xidmət edir. O, fermerlərin gəlirlərini artırmaq, kənd yerlərində məşğulluğu genişləndirmək, ərzaq təhlükəsizliyini təmin etmək və iqtisadiyyatın şaxələndirilməsinə töhfə vermək imkanına malikdir. Dövlət və özəl sektorun birgə fəaliyyəti sayəsində aqrobiznes ekosistemi formalaşır ki, bu da ölkənin kənd təsərrüfatı potensialını maksimum dərəcədə reallaşdırmağa imkan yaradır. Qısaca desək, aqrobiznes kənd təsərrüfatının bütün mərhələlərini birləşdirən, innovasiya və texnologiya ilə dəstəklənən, iqtisadi, sosial və strateji əhəmiyyət daşıyan geniş iqtisadi sahədir.

Bu mənada ölkədə aqrobiznesin inkişaf istiqamətləri və əldə olunan nəticələr barədə kənd təsərrüfatı naziri Məcnun Məmmədovun V forumda dünənki təqdimatı mühüm rol oynayır. Nazir vurğulayıb ki, aqrobiznesin inkişafı ölkənin aqrar siyasətinin əsas sütunlarından biri olmaqla, davamlı iqtisadi artımın və kənd yerlərinin dayanıqlı inkişafının təmin edilməsində strateji rol oynayır: "Bu istiqamətdə həyata keçirilən islahatlar və dəstək mexanizmləri artıq konkret nəticələr verməkdədir. Təkcə 2025-ci ildə fermerlərə 280 milyon manatdan çox əkin subsidiyası ödənilib, on minlərlə istehsalçı dövlət dəstəyi ilə əhatə olunub. Eyni zamanda güzəştli kredit və lizinq mexanizmləri vasitəsilə aqrar sahəyə 100 milyon manatdan artıq maliyyə resursu yönəldilib, minlərlə fermerin, aqrar sahibkarların fəaliyyəti dəstəklənib. Bununla yanaşı, biz kənd təsərrüfatında rəqəmsallaşmanı və innovasiyaları prioritet istiqamət kimi inkişaf etdiririk. Elektron xidmətlərin genişləndirilməsi, məlumatlara əsaslanan qərarvermə sistemlərinin tətbiqi və süni intellekt əsaslı həllərin inkişafı fermerlərimizin məhsuldarlığını və dayanıqlığını artırmaq məqsədi daşıyır".

Forum çərçivəsində sahibkarlar, dövlət qurumları və beynəlxalq ekspertlər arasında təcrübə mübadiləsi reallaşdırıldı, innovativ texnologiyalar, rəqəmsal transformasiya, istehsalın səmərəliliyi və ixrac imkanları ilə bağlı mövzular ətrafında müzakirələr aparıldı. Bu tədbir həm də ölkədə aqrobiznesin dayanıqlı inkişafına, kənd təsərrüfatında innovativ yanaşmaların tətbiqinə və yerli istehsalçıların beynəlxalq bazarlara çıxışına dəstək verir.

***Züleyxa ƏLİYEVA, "Azərbaycan"***





# Mədəniyyət





● Teatr xadimlərimiz

# Nəsibə Zeynalova qüdrətində sənətkar hər xalqa nəsib olmur

**Azərbaycan teatr və kino sənətinin çoxəsrlik tarixində elə simalar var ki, onlar sadəcə ifaçı deyil, bütöv bir estetik cərəyanın, xalq ruhunun daşıyıcısıdırlar. Bu siyahının ən uca zirvələrindən birində realist aktyor məktəbinin görkəmli nümayəndəsi, milli komediya sənətimizin korifeyi Nəsibə Zeynalova dayanır. Onun özünəməxsus yaradıcılıq siması, xüsusiyyətləri var idi ki, bu da çox vacib və dəyərli keyfiyyətlər idi: aydın, parlaq, səmimi və ağıllı gülüşü ilə hər bir tamaşaçıya xüsusi zövq vermək.**



Nəsibə xanımın səhnə yaradıcılığı böyük sənətə tükənməz məhəbbətin ifadəsi idi. Tam, bitkin, mənən və cismən kamil surətlərlə o, ecazkar bir sənət nümunəsi yaratmışdı. Daim dolu olan salon hər dəfə onu gurultulu alqışlarla qarşılayırdı. Nəsibə xanımın oyunu heç bir zaman təsirsiz qalmırdı, tamaşaçısını həyatın mənası, sənətin yüksək vəzifələri haqqında düşünməyə məcbur edirdi. O, böyük bir satira və yumor ustası idi. Aktrisa canlandırdığı hər bir obrazda cəmiyyətin çatışmazlıqlarını, məişət eybəcərliklərini və insan xarakterindəki ziddiyyətləri incə bir sarkazmla, lakin böyük bir ustalıqla üzə çıxarırdı. Satira və yumor onun ifasında kobud və qıcıqlandırıcı deyildi, həyati və təbii idi.

Nəsibə Zeynalova parlaq yaradıcılıq yolu keçmiş və yüksək fitri istedadı sayəsində Azərbaycanın çoxəsrlik zəngin mədəniyyət salnaməsində silinməz izlər qoymuşdur. Sənətkarın yaradıcılığına xalq məhəbbəti qazandıran təkcə onun istedadı deyildi, həm də insan psixologiyasına bələdlik, həyati bilgilər, müşahidə qabiliyyəti, sənət sevgisi və böyük məsuliyyət idi.

Görkəmli sənət xadiminin istedadı ilk növbədə onun qanından-genindən qaynaqlanırdı. Atası Kərbəlayı Cahangir Azərbaycan teatrının banilərindən olmuşdur. 1916-cı ildə dünyaya göz açan yeganə qızını, sözün əsl mənasında, nəzir-niyazla tapmış, bəxtinə də min kərə şükür etmişdi. Nəsibə xanımın həyat və yaradıcılıq yolları çox dolaylardan, sərt döngələrdən keçmişdir. Əvvəla atasını tez itirmişdir. 14 yaşından etibarən anasına kömək etmək üçün işləmək məcburiyyətində qalmışdı. Eyni zamanda oxuduğu orta məktəbin tədbirlərində rəqqasəlik etmiş, milli oyun havalarının incəliklərini öyrənmişdi.

1932-ci ildə Rza Təhmasibin dram dərnəyinə üzv olan Nəsibə 1937-ci ildə Bakıda fəaliyyət göstərən səyyar Kolxoz və Sovxoz Teatrında aktrisa kimi işə başlamışdır. Həmin il Bakı Teatr Məktəbinə daxil olmuş, Aleksandr Tuqanovdan, Məhərrəm Haşımovdan, Ağasadıq Gəraybəylidən dərs almışdır. Yaradıcılıq taleyini artıq Musiqili Komediya Teatrına bağlamış sənətkar uzun illər bu məbədgahdan ayrılmamışdır. O, 40 ildən çox işlədiyi bu sənət ocağının repertuar ağırlığını çiyinlərində daşımış, hətta teatr müəyyən fasilələrlə truppa və filarmoniyanın nəzdində dəstə-ansambl kimi fəaliyyət göstərdiyi dövrlərdə belə, doğma kollektivindən ayrılmışdır.

Ustad sənətkarın obrazlar qalereyası olduqca zəngindir. Xüsusi qeyd edilməlidir ki, Nəsibə Zeynalova yaratdığı hər bir obrazın əvəzsiz ifaçısı olmuşdur. Yaratdığı personajların hərəsi bir tipologiya idi. Nəsibə xanım bu rolları ilə Azərbaycan qadınının məişətdəki psixoloji portretini yaratmış, hətta xırda detallarla böyük həqiqətləri anlatmışdır. "Dərviş Məstəli Şah"dakı Xanpəridən "Ulduz"dakı Züleyxayadək, "Hacı Qara"dakı Tükəzdən "Qaynana"dakı Cənnət xalayadək, "Beş manatlıq gəlin"dəki Səlbidən "Qızıl toy"dakı Ballıyadək neçə-neçə qadın xarakteri yaratmış, tamaşaçısını güldürmüş və düşündürmüşdür. Mütəxəssislər Nəsibə Zeynalovanın Cənnət xalasını, Nargiləsini, Züleyxasını zəngin ifadə vasitələrinə, yumorun milliliyinə, təbii reallığına görə Azərbaycan səhnəsinin nadir inciləri hesab etmişlər.

Aktrisa personajın mənfi cəhətlərini qabardarkən eyni zamanda obrazı tamaşaçıya sevdirə bilirdi. Onun yumoru acı istehzadan daha çox, həyati həqiqətlərə söykənən gülüş idi. Yüksək improvizasiya bacarığına malik idi. Böyük sənətkar ssenari çərçivəsindən çıxaraq hər tamaşada obraza yeni çalarlar əlavə edirdi. Bu da onun rollarını həmişə canlı saxlayırdı. Bundan başqa, Nəsibə xanımın dil və nitq mədəniyyətinə gəldikdə deyə bilərik ki, o, Bakı mühitində dil xüsusiyyətlərini və ləhcə incəliklərini obrazlarına peşəkarlıqla tətbiq edirdi.

Nəsibə Zeynalovanın ifasında gördüyümüz bütün obrazlar özünəməxsusluğu ilə seçilirdi. Onun məşhur Cənnət xala, Züleyxa və ya Sənəm kimi rolları təkcə komik personajlar deyil, hər biri konkret dövrün, müəyyən bir təfəkkür tərzinin kəskin satirik portretləridir. Nəsibə xanım gülüşün dili ilə cəmiyyətin yaralarına toxunur, insanın mənfi cəhətlərini qabardaraq onu saflaşdırmağa xidmət edirdi. Yaratdığı hər bir obraz - istər Cənnət xala ("Qaynana"), istər Fatmanisə ("Ögey ana"), istərsə də Telli ("Böyük dayaq") - sanki məhəlləmizdən, qonşuluğumuzdan keçib səhnəyə gəlmişdi. O, obrazlarını həyatdan, gördüyü insanlardan "toplayırdı". Onun qəhrəmanları öz yerişi, hərəkətləri, danışıq tərzi, hətta geyimini düzəltməsi ilə belə tamaşaçıda tam bir reallıq hissi oyadırdı.



O, mənfi xüsusiyyətləri olan obrazları belə, məsələn, hökmlü Cənnət xalanı elə bir səmimiyyətlə təqdim edirdi ki, tamaşaçı həm gülür, həm də həmin insanın daxili aləmindəki həqiqətləri görürdü. Aktrisa həm də klassik operettalarda (Gülpəri, Cahan xala, Sənəm) yaratdığı xarakterik rollarla Azərbaycanın qadın tiplərinin bədii qalereyasını yaratmışdı. Onun hərəkətli oyunu, rəqs elementləri və mahnı ifaları obrazın xarakterini tamamlayan əsas amillər idi.

Nəsibə Zeynalova üçün səhnə bir meydan idi və o, bu meydanda hər dəfə yeni bir ömür yaşayırdı. Bu səbəbdəndir ki, sənətkarın yaratdığı obrazlar bu gün də ekrandan və ya arxiv lentlərindən bizimlə eyni dildə danışır.

"Hicran" musiqili komediyasındakı Qızbacı obrazı Nəsibə Zeynalovanın yaradıcılığında xüsusi bir mərhələdir. Bu rolda o, satira ilə yumoru elə bir zərgər dəqiqliyi ilə birləşdirib ki, obraz həm gülüş doğurur, həm də dövrün bəzi sosial mənzərələrini ifşa edir. Qızbacı - köhnə Bakı məhəllələrinin ruhunu, adət-ənənələrini və eyni zamanda o mühitin dedi-qoduya meyilli tərəflərini özündə birləşdirən tipajdır. Nəsibə xanım bu rolda hər şeyi bilən, hər işə qarışan, lakin bunu özünəməxsus bir "şirinlik"lə edən qadın obrazını yaradıb. Onun danışıq tərzi, ləhcəsinin incəlikləri obrazı son dərəcə real və canlı edir.

Tamaşada Mitoş (Hacıbaba Bağırov) və Balaəmi (Səyavuş Aslan) ilə yaratdığı üçlük Azərbaycan teatr tarixinin ən uğurlu ansambllarından hesab olunur. Qızbacı bu üçlükdə sanki bir idarəedici funksiyasını daşıyırdı. O, həm Balaəminin sevgi izdivaclarına şərik olur, həm də Mitoşun saflığından istifadə edir. Nəsibə Zeynalovanın buradakı ustalığı odur ki, o, tərəf-müqabillərinin oyununa elə bir enerji qatır ki, səhnədəki hər bir dialoq improvizasiya bayramına çevrilir.

"Qızbacı gəldi, qəm getdi" fəlsəfəsi ilə səhnəyə daxil olan aktrisa tamaşanın hər anını öz aurası ilə doldurur. Onun müraciətləri, üzündəki mənalı mimikalar və qəfil reaksiya dəyişiklikləri bu obrazı Nəsibə Zeynalova möhürü vuran şah əsərlərdən birinə çevirirdi.

Azərbaycanın Lütfəli Abdullayev, Bəşir Səfəroğlu, Hacıbaba Bağırov, Siyavuş Aslan kimi korifey sənətkarları səhnədə Nəsibə Zeynalova ilə tərəfdaş olublar. Hər biri ilə də Nəsibə xanım bənzərsiz ifa nümayiş etdirib. Vaxt olub ki, Lütfəli Abdullayev və Bəşir Səfəroğlu ilə bir həftədə beş dəfə səhnəyə çıxıb və sonralar həmin günləri xoş duyğularla anıb. "Sevindik qız axtarır"da Xeyransa, "Həmişəxanım"da Həmişəxanım, "Beşmanatlıq gəlin"də Gülnaz, "Gözün aydın"da Nargilə, "Keto və Kote"də Kabato, "Qızılaxtaranlar"da Rəxşəndə kimi yaddaqalan obrazları məhz həmin adlı-sanlı səhnə ustaları ilə birgə iştirak etdiyi səhnədə yaradıb.



Nəsibə Zeynalovanın istedadı kinoda da, ekran əsərlərində də əbədiləşib. O, "Ögey ana"da Fatmanisə, "Böyük dayaq"da Telli, "Ulduz"da Züleyxa, "Qaynana"da Cənnət xala, "Molla Fətəlinin sərgüzəştləri"ndə Gülüstan, "Bəyin oğurlanması"nda Əsli xala obrazlarını böyük ustalıqla yaradıb. Aktrisa eləcə də saysız-hesabsız televiziya tamaşalarında, yumoristik səhnəciklərdə, intermedialarda çıxış edib.

Nəsibə xanımın bir aktrisa kimi xoşbəxtliyi həm də onda idi ki, böyük bir əsərdə kiçik, hətta epizodik rol oynasa belə, yadda qalırdı. Onun ifası o qədər təbii, duzlu-məzəli idi ki, tamaşaçının yaddaşına həmişəlik həkk olunurdu. Aktrisanın dilindən qopan bir çox fikirlər, sözlər sonralar hətta zərbi-məsələ çevrilirdi. İnsanlar bu gün də yeri gəldikcə onları "Nəsibə demişkən" deyərək dilə gətirir, müəyyən məqamlarda bununla həm vəziyyətdən çıxış yolu tapır, həm də yumor, gülüş yaradırlar.

Nəsibə Zeynalova yaradıcılığının mahiyyəti onda idi ki, məişət yumorunu incə ştrixlərlə ictimai-sosial mahiyyətə istiqamətləndirə bilirdi. Aktrisa satirik boyaları müəyyən rollarda qrotesk səviyyəsinə qaldırır, onlardan bol-bol istifadə edirdi. Bununla belə, janrın estetik prinsip və meyarlarına heç bir xələl gətirmirdi.

Nəsibə Zeynalovanın sənəti təkcə tamaşaçılar tərəfindən deyil, həm də onunla çiyin-çiyinə çalışan sənət dostları və dövrün ziyalıları tərəfindən yüksək qiymətləndirilib. Onlar Nəsibə xanımı sadəcə bir aktrisa deyil, "milli sərvət" kimi xarakterizə edirdilər.

Ulu Öndər Heydər Əliyev Nəsibə Zeynalovanı Azərbaycan teatr və kino sənətinin ən parlaq ulduzlarından biri adlandırırdı. Prezident İlham Əliyev Nəsibə Zeynalovanın 100 illik yubileyinin keçirilməsi haqqında imzaladığı sərəncamda qeyd edirdi ki, sənətkarın "milli teatr səhnəsində və ekran əsərlərində insan təbiətinin mürəkkəbliklərini məharətlə canlandırdığı silsilə xarakterlər özünün dərin xəlqiliyi və ifadə vasitələrinin əlvanlığı ilə seçilən nadir sənət inciləridir".

Xalq artisti Səyavuş Aslan xatirələrində yazırdı: "Nəsibə xanımla səhnəyə çıxmaq həm böyük xoşbəxtlik, həm də böyük məsuliyyət idi. O, səhnədə elə bir atmosfer yaradırdı ki, sən istər-istəməz onun enerjisinə tabe olurdun. O, bizim hamımızın anası, müəllimi və sənət məktəbi idi". Hacıbaba Bağırov görkəmli sənətkarı xatırlayarkən deyirdi: "Onun improvizasiyaları qarşısında bəzən biz özümüz də gülməmək üçün özümüzü çətin saxlayırdıq. Nəsibə xanım səhnənin elə bir sahibi idi ki, o gələndə bütün boşluqlar dolurdu. Onun gülüşü xalqın gülüşü idi".

Şəmsi Bədəlbəyli yazırdı ki, Nəsibə Zeynalova nadir aktrisalardan idi ki, rejissorun verdiyi tapşırığı min qat artığı ilə yerinə yetirirdi. O, obrazı daxilən elə süzgəcdən keçirirdi ki, rola əlavə etdiyi hər bir xırda detal şah əsərə çevrilirdi. Xalq yazıçısı Anar Nəsibə xanımı Azərbaycan gülüşünün ən təmiz, ən xəlqi nümunəsi hesab edirdi. Onun yaratdığı personajlar ədəbiyyatdan səhnəyə, səhnədən isə yenidən xalqın içinə qayıdan canlı insanlardır. Bu fikirlər bir daha sübut edir ki, Nəsibə Zeynalova Azərbaycan mədəniyyətində əvəzolunmaz bir boşluğu dolduran, özündən sonra böyük bir məktəb qoyub gedən sənətkardır.

Təkrarsız səhnə yaradıcılığına görə Nəsibə Zeynalova 1960-cı ildə respublikanın Əməkdar, 1967-ci ildə Xalq artisti adına, 1974-cü ildə Azərbaycan SSR Dövlət mükafatına layiq görülüb.

Bu il Nəsibə Zeynalovanın anadan olmasından 110 il ötür. Qəlbinin hərarətini sənətə həsr edən aktrisa artıq 22 ildir dünyasını dəyişib. Buna baxmayaraq, onun tamaşaçısına bəxş etdiyi xoş ovqat, gülüş və təbəssüm həmişə bizimlədir. Səhnəmizin korifeyinin hər hərəkəti, şux zarafatları, söz-söhbətləri heç vaxt yaddaşlardan çıxan deyil. Gülüş ustadının yaratdığı obrazlar köhnə zəmanənin - ötən əsrin adamları olsalar belə, onlar bu gün də insanları güldürür, düşündürür və həmin qəhrəmanları canlandıran ustad sənətkarı xalqa sevdirir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Cenevrədə MAMA "Ana təbiət" beynəlxalq incəsənət sərgisi açılıb



**Mayın 6-da BMT-nin Cenevrə bölməsində MAMA "Ana təbiət" beynəlxalq incəsənət layihəsi təqdim olunub.**



AZƏRTAC xəbər verir ki, sərginin açılışında Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, BMT-nin Cenevrə Ofisinin baş direktoru Tatyana Valovaya, BMT-nin Cenevrədəki bölməsi və digər beynəlxalq təşkilatların rəsmiləri, yerli ictimaiyyətin nümayəndələri və sənətsevərlər iştirak ediblər.



Heydər Əliyev Fondu, IDEA İctimai Birliyi və Azərbaycanın BMT-nin Cenevrədəki bölməsi və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəliyinin birgə təşkilatçılığı ilə keçirilən sərginin açılış mərasimi Millətlər Sarayı kompleksinin ən simvolik məkanlarından biri olan və qlobal dialoq üçün yüksək rəmzi əhəmiyyət daşıyan möhtəşəm qəbul zalında (Salle des Pas Perdus) baş tutub.

Azərbaycanın BMT-nin Cenevrədəki bölməsi və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi səfir Qalib İsrafilov çıxışında bildirib ki, MAMA "Ana təbiət" layihəsi incəsənət və insanlıq arasındakı dərin əlaqələri araşdıran beynəlxalq bədii təşəbbüsdür. Bu təşəbbüs müxtəlif mədəni mühitlərdən olan sənətkarları bir araya gətirir və müasir dövrdə mövcud olan ekoloji çağırışların aktuallığını əks etdirir.

Sərginin BMT-nin Cenevrə bölməsində təşkilinə görə layihənin ideya müəllifi Leyla Əliyevaya təşəkkür bildirilib. Sərginin tamaşaçılara bədii zövq təlqin etməklə yanaşı, eyni zamanda Ana Təbiətə daha diqqət və qayğı ilə yanaşmağı təbliğ edəcəyindən əminlik ifadə edilib.

BMT-nin Cenevrədəki Ofisinin baş direktoru Tatyana Valovaya çıxışında Heydər Əliyev Fondu, Heydər Əliyev Mərkəzi, IDEA İctimai Birliyi və Azərbaycanın BMT-dəki daimi nümayəndəliyinə sərginin təşkilinə verilən töhfəyə görə minnətdarlığını ifadə edib. O bildirib ki, bu sərgi xüsusi və fərqli xarakter daşıyır, çünki o, insanın, bəşəriyyətin və təbiətin vəhdətindən bəhs edir.

T.Valovaya həmçinin vurğulayıb ki, sərginin məğzini təşkil edən mövzular eyni zamanda BMT-nin prioritetləri sırasındadır. Baş katib Antonio Quterreş 2026-cı il üçün prioritetləri təqdim edərkən əsas istiqamətlərdən biri məhz ətraf mühit və təbiətin qorunması olduğunu bildirib. Qeyd edilib ki, davamlı inkişafdan danışarkən, BMT-nin gələcək illər üçün hədəflərini müzakirə edərkən təbiətlə harmoniyada yaşamaq xüsusi əhəmiyyət kəsb edir. Bu mövzu ilə bağlı ictimai maarifləndirmənin artırılması vacibdir və bunu həyata keçirmək üçün incəsənətdən daha yaxşı vasitə təsəvvür etmək çətindir.

Bu sərgi ilə ilk dəfə 2024-cü ildə Bakıda tanış olduğunu qeyd edən baş direktor bu gün sərginin Cenevrədə təqdim edilməsindən məmnunluq ifadə edib.

Layihə ilk dəfə 2024-cü ildə Bakıda, Heydər Əliyev Mərkəzində COP29 iqlim konfransı çərçivəsində təqdim olunub. Daha sonra Manama, Roma, London, Tbilisi, Berlin və Tirana kimi şəhərlərdə nümayiş etdirilərək beynəlxalq səyyar platformaya çevrilib. Bu müddət ərzində 28 ölkədən 50-dən çox rəssam planetimizin gələcəyi ilə bağlı qlobal müzakirəyə öz töhfəsini verib.

Millətlər Sarayında keçirilən təqdimat xüsusi simvolik əhəmiyyət daşıyır. Diplomatiya və beynəlxalq əməkdaşlığın mərkəzində baş tutan sərgi ekoloji məsuliyyətin yalnız siyasi deyil, həm də mədəni və ictimai düşüncə müstəvisində dərk edilməsinin vacibliyini önə çıxarır.

Millətlər Sarayının qəbul zalında nümayiş olunan əsərlər təbiəti canlı və daim inkişaf edən bir varlıq kimi təqdim edir. Bu yanaşma insanın planetar ekosistemdəki roluna yenidən baxmağa və müasir ekoloji problemlərə daha həssas münasibət formalaşdırmağa çağırır.

Beləliklə, MAMA "Ana təbiət" sərgisi Cenevrədə incəsənət, diplomatiya və ekoloji şüurun qovuşduğu mühüm beynəlxalq platforma kimi çıxış edir.

Bu barədə düşünək

# Zəmanə uşaqları

**Müdriklərdən birinin kəlamıdır: uşaqlar valideynlərindən çox öz zəmanələrinə bənzəyirlər. Bu fikir, əslində, müasir cəmiyyətimizin əhəmiyyətli hissəsini təşkil edən azyaşlıların davranışlarında müşahidə etdiyimiz bir çox dəyişikliklərin aydın izahını verir.**

Hər nəslin yaşadığı dövrün həyat ritmi, texnologiyaları, informasiya yükü və sosial münasibətlər sistemi əvvəlkindən xeyli fərqlənir. Uşaqların da bu fərqliliklər mühitində yetişərək formalaşması həyatın dəyişməz qanunauyğunluğudur. Bu baxımdan, yeni nəslin fərqli davranışları, orijinal düşüncə tərzi, həyat üslubu tamamilə təbii qarşılanmalıdır. Əks halda, dialektikanın əsas qanunlarından olan inkarı-inkar qanunu işləməz və ictimai təkamül, cəmiyyətin tərəqqisi prosesi zəifləyər. Keçmişləri yada salmağa başlasaq, yaxşı xatırlayacağıq ki, biz özümüz də indiki uşaqların yaşında olanda hansısa davranışlarımızla özümüzdən əvvəlki nəslin təəccübünə, müəyyən mənada narahatlıq və iradlarına əsas yaratmışıq.



















Amma burada mütləq vurğulanmalı incə bir məqam var: fərqli və problemli davranışlar eyni olmadığından onlar arasında bərabərlik işarəsi qoyulmamalıdır. Əgər uşaq müasir texnologiyalardan istifadə edir, fərqli öyrənmə üsulları seçir, klassik bilikləri, həqiqətləri, ideyaları sorğulayırsa, bu, inkişafın və dövrün diktə etdiyi dəyişikliyin əlamətidir, onun bu davranışları təqdir olunaraq dəstəklənməlidir. Yox, əgər, uşaqlarda diqqət dağınıqlığı, yuxusuzluq, aqressiya, empatiya (qarşı tərəfin emosional vəziyyətinə özünü oxşatmaq) zəifliyi, asılılıq, dəyərlərə hörmətsizlik və s. bu kimi xoşagəlməz hallar özünü göstərirsə, bu artıq "zamanın övladı olmaq" deyil, mühitin düzgün idarə olunmamasının fəsadlarıdır.

## Diqqət yetirilməli olan üç səbəb

Ekspertlərin rəylərinə görə, əfsuslar olsun ki, bu gün uşaqlarda söylədiyimiz ikinci məqamı xarakterik təzahür kimi tez-tez müşahidə edirik və müasir dövrdə bütün dünyada uşaqların psixoloji sağlamlığı getdikcə daha çox narahatlıq doğuran məsələyə çevrilir. Texnologiyanın sürətli inkişafı, sosial mühitin dəyişməsi və ailə institutunda müşahidə olunan zəifləmələr azyaşlıların və yeniyetmələrin davranışında, emosional vəziyyətində ciddi dəyişikliklər yaradır. Bu dəyişikliklər çox vaxt müxtəlif psixoloji pozuntular, diqqət dağınıqlığı, yuxu və qidalanma problemləri kimi özünü göstərir.

Texnologiya, sosial mühit və ailə amilləri bir-birindən ayrı deyil, əksinə, onlar bir-birini tamamlayıb gücləndirən əsaslar kimi çıxış edərək uşağın psixoloji dünyasını yenidən formalaşdırır. Amma müasir texnologiyalar həyatımızı son dərəcə asanlaşdırmaqla yanaşı, uşaqların psixikasına da ciddi şəkildə təsir göstərir. Bu gün uşaq çox erkən yaşlardan rəqəmsal mühitə daxil olur, onun gündəlik həyatının böyük hissəsi ekran qarşısında keçir. İlk baxışdan bu, informasiya bolluğu, sürətli öyrənmə və geniş dünyagörüşü kimi müsbət imkanlar yaradır. Lakin burada ciddi bir ziddiyyət də ortaya çıxır: söhbət uşağın psixoloji inkişaf tempi ilə texnologiyanın təqdim etdiyi informasiya və stimul sürəti arasında uyğunsuzluqdan gedir. Bu halda körpə hələ emosional və idrak baxımından hazır olmadığı məlumatlarla qarşılaşır. Zorakı oyunlar, aqressiv vizual məzmun, sürətli mükafat mexanizmləri onun beynində "tez nəticə - tez həzz" modelini formalaşdırır. Bu isə səbrin, davamlı diqqətin, dərin düşüncənin zəifləməsinə gətirib çıxarır. Real həyatın tədrici və zəhmət tələb edən uğurları uşağa çox mənasız, maraqsız görünməyə başlayır. Ən təhlükəlisi isə virtual dünyada aludə olduğu zorakı məzmun uşaqlar üçün real həyatda da zorakılığı və davranışlarında aqressiyanı artırır.

Bu texnoloji təsirin güclənməsində sosial mühitin dəyişməsi mühüm rol oynayır. Əgər əvvəlki dövrlərdə uşaq daha çox real sosial mühitdə - ailədə, həyətdə, məktəbdə, kitabxanalarda, müxtəlif yaradıcılıq dərnəklərində və s. tərbiyələnirdisə, bu gün sosiallaşmanın böyük hissəsi virtual platformalara adlayıb. Uşaq virtual məkanda ünsiyyət qurur, amma bu ünsiyyət emosional dərinlikdən məhrumdur. Rəqəmsal ünsiyyət vasitələri hisslərin sadələşdirilmiş formalarını təqdim edir və bu, onlarda inkişafa mane olur. Uşaq real insan münasibətlərində lazım olan incə emosional siqnalları oxumaqda çətinlik çəkir, konfliktlərə dözümlüyü azalır, sosial məsuliyyət hissi zəif formalaşır.

## Sosial şəbəkələrdəki həyat

Bütün bunlardan əlavə, sosial şəbəkələrdə nümayiş etdirilən "ideal həyat" modelləri uşağın özünüqavrayışına mənfi təsir göstərir. Daim müqayisə şəraitində yaşayan uşaq çox vaxt özünü yetərsiz hiss edir ki, bu da daxili gərginlik və narazılıq yaradır. İndi psixoloqların əksəriyyəti bu fikrin üzərində dayanır.

Narahatlıq doğuran bir məqam da budur ki, uşaqlar indi dəyərləri xaotik formalarda əxz edirlər. Əsrlər boyu uşaqlar yaxşını-pisi, doğrunu-yanlışı valideynin davranışından, ailə mühitindən, yaxın sosial çevrədən, ədəbiyyatdan, filmlərdən sistemli şəkildə öyrəniblər. Tarix boyu dəyərlər yeni nəslə məhz ictimai sınaqdan keçmiş hekayələr vasitəsilə ötürülüb. Məsələn, "Kitabi-Dədə Qorqud" dastanları kimi əsərlərdə cəsarət, sədaqət, ədalət, həmrəylik və s. kimi dəyərlər təkcə izah və təbliğ olunmur, eyni zamanda yaşadılır. Yaxud bir çox mənəvi dəyərləri əxz etmək üçün Viktor Hüqonun "Səfillər"indki Jan Valjan obrazından gözəl örnək nə ola bilər?

Bu gün isə dəyərlər uşağa son dərəcə pərakəndə və ziddiyyətli şəkildə təqdim olunur. Uşaq eyni anda həm empatiya çağırışları, həm zorakılıq, həm də uğuru yalnız maddi göstəricilərlə ölçən mesajlarla qarşılaşır. Bu isə onun daxilində sabit dəyər sistemi formalaşdırmağı çətinləşdirir. Uşaqlar üçün ideallar da dəyişib. Son onilliklərə qədər uşaq üçün nümunə valideyn, müəllim, cəmiyyətdə böyük nüfuza malik şəxsiyyətlər, ədəbi qəhrəmanlar idi. Bu gün isə həmin rolu çox vaxt sosial media fenomenləri, bloqçular, virtual qəhrəmanlar, bəzənsə ən təhlükəlisi - kriminal ünsürlər tutur. Onların təqdim etdiyi həyat tərzi isə əksər hallarda səthi uğur, populyarlıq, görünüş, saxta qəhrəmanlıq üzərində qurulur. Nəticədə uşağın dəyər meyarları dəyişib ziyanlı məcraya yönəlir.

Belə bir mənzərədə ailə institutunun rolu həlledici olmalıdır. Əfsuslar ki, məhz burada müşahidə olunan zəifləmə problemi daha da dərinləşdirir. Müasir həyatın sürəti, iqtisadi və sosial təzyiqlər valideynlərin uşaqlarla keyfiyyətli ünsiyyətinə mane olur. Ailə tədricən yalnız maddi təminat funksiyasını yerinə yetirən bir quruma çevrilir, halbuki onun əsas rolu həm də emosional təhlükəsizlik mühiti formalaşdırmaqdır. Unutmayaq ki, valideynin diqqəti, davranış modeli və qoyduğu sərhədlər uşağın psixoloji inkişafında tənzimləyici mexanizm rolunu oynayır. Bu mexanizm zəiflədikdə uşaq ya həddindən artıq sərbəstlik, ya da laqeydliklə üzləşir. Belə vəziyyətdə texnologiya boşluğu doldurur və bir növ "virtual valideyn"ə çevrilir. Lakin bu "valideyn" azyaşlıya nə emosional dəstək verir, nə də sağlam davranış modelləri təqdim edə bilir.

## Qapalı dövrə

Ən təhlükəli məqam isə bu üç amilin bir-birini gücləndirərək qapalı dövrə yaratmasıdır. Valideynin diqqət çatışmazlığı üzündən uşaq meylini texnologiyalara salır, texnologiya uşağı virtual mühitə çəkir, virtual mühit isə onun real sosial bacarıqlarını zəiflədir. Nəticədə uşaq ailədə və məktəbdə daha çox çətinlik yaşayır, bu da valideyn və müəllimlərin təsir imkanlarını məhdudlaşdırır. Beləliklə, problem tək-tək hadisələr məcrasından çıxaraq sistemli böhrana çevrilir.

Bu gün uşaqlarda müşahidə olunan aqressiya, diqqət dağınıqlığı, motivasiya çatışmazlığı, emosional sabitsizlik, yuxu və qidalanma pozuntuları və s. kimi hallar, əslində, bu böyük mənzərənin ayrı-ayrı simptomlarıdır.

Uşaqlarda xüsusilə qısamüddətli diqqət problemi bu gün ən geniş yayılmış və böyük narahatlıq doğuran hallardandır. Uşaq uzun müddət bir məsələyə, məzmuna, işə fokuslana bilmir, tez yorulur, tez-tez diqqəti yayınır. Bunun arxasında duran əsas səbəblərdən biri informasiyanın həddindən artıq çoxluğu və sürətidir.

smartfonlar, planşetlər və kompüterlər vasitəsilə fasiləsiz olaraq dəyişən görüntülər, məlumat axını uşağın beynini sürətli stimullara öyrəşdirir, nəticədə real həyatdakı daha yavaş proseslər ona maraqsız görünür.

Mütəxəssislərin araşdırmalarına görə, təxminən 15-20 il əvvəl məktəb yaşlı uşaqlarda davamlı diqqət müddəti orta hesabla 15-20 dəqiqə arasında qiymətləndirilirdi. Müasir dövrdə isə bu göstəricinin artıq 7-10 dəqiqəyə, bəzi hallarda isə hətta 5 dəqiqəyə qədər düşdüyü müşahidə olunur. Əlbəttə, bu, uşağın, ümumiyyətlə, diqqətinin azalması demək deyil, burada daha çox diqqətin tipinin dəyişməsindən söhbət gedir. Uşaq uzun müddət kitab oxumağa fokuslana bilmir, amma həmin uşaq saatlarla oyun oynaya və ya qısa videolar izləyə bilir. Bu isə göstərir ki, problem dərin və davamlı diqqətin zəifləməsi, səthi, sürətli diqqətin güclənməsidir. Davamlı diqqətin insanın gündəlik həyat və fəaliyyətindəki rolunu nəzərə alsaq, bunun gələcəkdə onlar üçün hansı sosial-psixoloji problemlərə gətirə biləcəyi adamda təşviş yaradır.

Yuxusuzluq problemi də bu mənzərənin ayrılmaz hissəsidir. Gec saatlara qədər ekran qarşısında qalmaq, sosial şəbəkələr və oyunlar uşağın bioloji ritmini pozur. Keyfiyyətsiz yuxu balacaların həm psixoloji vəziyyətinə, həm də fiziki inkişafına mənfi təsir göstərir, yuxusuz uşaq daha əsəbi, aqressiv və diqqətsiz olur.

## Ailə süfrələri

Son onilliklərdə uşaqların qidalanma vərdişləri də ciddi şəkildə dəyişib. Şəkərli və emal olunmuş qidaların çoxluğu uşaqların azyaşlı və yeniyetmələrin bədəninə də, psixikasına da öz təsirini göstərir. Sağlam olmayan qidalanma enerji səviyyəsinin sabitsizliyinə, əsəbilik və diqqət problemlərinin artmasına gətirib çıxarır.

Uşaqların qidalanma vərdişlərində baş verən dəyişikliklər də, əslində, çox geniş sosial-psixoloji kontekstin tərkib hissəsidir. Əgər bir vaxtlar qidalanma ailə daxilində formalaşan sabit və nizamlı bir mədəniyyət idisə, bu gün o, sürətlə dəyişən həyat ritminin, bazar mexanizmlərinin və texnoloji təsirlərin formalaşdırdığı dinamik bir davranış modeli kimi görünür. Müasir ailədə valideynlərin iş yükü artıb, vaxt imkanları azalıb, bu da ailələrin gündəlik qida seçimlərinə birbaşa təsir edir. Evdə hazırlanan ənənəvi və balanslı yeməklər tədricən yerini daha tez hazırlanan, yaxud hazır şəkildə əldə edilən qidalara verir. Bu, gözümüzün önündə olan reallıqlardır.

Uşaqların ekran qarşısında, yaxud smartfonla keçirdiyi vaxt artdıqca qidalanma davranışı da dəyişir. Yemək artıq diqqətin mərkəzində olan şüurlu fəaliyyət deyil, paralel prosesə çevrilir. Uşaq film izləyərkən, oyun oynayarkən və ya sosial şəbəkələrdə vaxt keçirərkən qidalanır. Bu isə həm yemək porsiyalarının nəzarətsiz artmasına və ya azalmasına, həm də doyma hissinin düzgün formalaşmamasına səbəb olur.

Sosial mühit də uşaqların qidalanma vərdişlərinin yaranmasında mühüm rol oynayır. Məktəb bufetlərində təklif olunan məhsullar, dost çevrəsinin təsiri və ümumi şəhər mədəniyyəti uşağın seçimlərini müəyyənləşdirir. Əgər ətraf mühitdə qeyri-sağlam qidalanma normadırsa, uşaq üçün də bu, adi və qəbul edilən davranış modelinə çevrilir. Sosial uyğunlaşma ehtiyacı onu bu seçimləri təkrarlamağa sövq edir.

Bir vaxtlar bütün ailə üzvlərinin eyni vaxtda süfrə başına keçməsi hər evdə gündəlik ən azı iki-üç dəfə təkrarlanan müqəddəs ritual idi, ailə süfrələri qidalanma qədər həm də ünsiyyət və tərbiyə məkanı rolunu oynayırdı. Bu gün isə ailələrdə birgə yemək ənənəsi tədricən itib-gedir, hər kəs fərqli vaxtda və çox vaxt fərqli mühitdə qidalanır. Valideynin şəxsi nümunəsi burada həlledici rol oynayır: əgər valideyn özü qeyri-sağlam qidalanırsa, uşaqdan fərqli davranış gözləmək çətindir. Çünki uşaq üçün əsas öyrənmə mexanizmi müşahidədir, nəsihət deyil.

## Nə etməli?

Bir çox hallarda təhsil sistemi, məktəb, müəllimlər də bu qlobal proses qarşısında gücsüz görünürlər. Sinifdə diqqəti dağınıq, motivasiyası aşağı olan şagirdlə işləmək çətinləşir. Təhsil sistemi də hər zaman sürətlə dəyişən yeni reallıqlara çevik uyğunlaşa bilmir. Çünki təhsil uzunmüddətli ənənələr formalaşdırıb onun əsasında bərqərar olan sistemdir, uşaqların davranışları isə az qala ildən-ilə dəyişir. Nəticədə tərbiyə problemi daha da dərinləşir - nə ailə, nə məktəb uşağın formalaşmasında əvvəlki qədər effektiv rol oynaya bilir.

Bununla belə, vəziyyətdən çıxış yolları hər zamankı kimi yenə də olmamış deyil. Mütəxəssislər yazırlar ki, ilk növbədə, valideynlər daha aktiv və məsuliyyətli mövqe tutmalı, uşağın gündəlik rejimini (yuxu, qidalanma, ekran vaxtı və s.) nəzarətdə saxlamalıdırlar. Ailə daxilində ünsiyyət artırılmalı, uşağın emosional ehtiyacları nəzərə alınmalıdır.

İkinci mühüm həll yolu təhsil sistemindədir. Məktəblər yalnız bilik verməklə kifayətlənməməli, psixoloji dəstək mexanizmlərini gücləndirməlidir. Müəllimlərə yeni nəsil uşaqlarla işləmək üçün əlavə metodik və psixoloji hazırlıq verilməlidir.

Eyni zamanda uşaqların texnologiya ilə münasibəti balanslaşdırılmalıdır. Burada tam qadağa deyil, düzgün yönləndirmə əsasdır. Fiziki fəaliyyət, idman, kitab oxuma, rəsm, musiqi və digər yaradıcılıq növləri, sosial ünsiyyət alternativ kimi təşviq olunmalı, uşaqlarda buna müəyyən stimullar yaradılmalıdır.

Nəhayət, tərbiyə məsələsinə kompleks yanaşma mütləqdir. Bu, yalnız ailənin və ya məktəbin deyil, bütövlükdə cəmiyyətin məsuliyyətidir. Sağlam psixologiyaya malik nəsil yetişdirmək üçün həm fərdi, həm də institusional səviyyədə ardıcıl, şüurlu addımlar atılmalıdır.

Uşağın sağlam inkişafı üçün texnologiya idarə olunmalı, sosial mühitdə canlı ünsiyyət bərpa edilməli, ailə institutu yenidən öz əsas funksiyasına - emosional dayaq və dəyər ötürücüsü roluna qayıtmalı, təhsil sistemində müasir dövrün çağırışları nəzərə alınmalıdır. Yalnız bu halda müasir dünyanın yaratdığı risklər minimuma endiriləcək və biz daha sağlam, psixoloji cəhətdən daha dayanıqlı nəsil yetişdirə biləcəyik.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Azərbaycan Pakistanda daşqınlardan zərərçəkənlərə humanitar yardım göstərib

**2025-ci ildə Pakistanın Pəncab əyalətində baş vermiş güclü daşqınların fəsadlarının aradan qaldırılması məqsədilə Azərbaycan Beynəlxalq İnkişafa Yardım Agentliyinin (AIDA) dəstəyi ilə humanitar yardım təşəbbüsü həyata keçirilib.**





Azərbaycanın Pakistandakı səfirliyindən AZƏRTAC-a bildiriblər ki, səfirlik vasitəsilə həyata keçirilən layihə çərçivəsində daşqınlardan zərər çəkmiş 400 ailəyə əsas ərzaq məhsulları və gündəlik tələbat mallarından ibarət yardım paketləri təqdim olunub.

Bu aksiya Azərbaycan ilə Pakistan arasında dostluq və qardaşlıq münasibətlərinin növbəti təzahürü olmaqla, qarşılıqlı dəstəyin və həmrəyliyin əhəmiyyətini bir daha nümayiş etdirib.

# Mərkəzi Nəbatat bağında gənc rəssamların sərgisi keçirilib

**Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində Bakının yeni istirahət parklari ilə zənginləşdirilməsinə, paytaxtımızın yaşıllıqlar şəhərinə çevrilməsinə çox böyük önəm verilir. Qlobal ekoloji böhran fonunda şəhərlərin qədimliyinin qorunması ilə yanaşı, müasirləşməsi və ətraf mühitin qorunması, problemlərin həlli istiqamətində paytaxtda genişmiqyaslı tədbirlər görülür.**



Bu qəbildən paytaxtımızın mərkəzində əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilmiş Mərkəzi Nəbatat bağı şəhər sakinlərinin və qonaqların sevimli gəzinti və istirahət məkanına çevrilib. Burada təşkil edilən kütləvi tədbir və ekskursiyalar parkı insanlar üçün daha cəlbedici edir.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 103 illiyi ilə əlaqədar Bakı Şəhər İcra Hakimiyyətinin Humanitar şöbəsinin, Azərbaycan Rəssamlıq Akademiyası və Mərkəzi Nəbatat bağının birgə təşkil etdiyi "Mən fəxr edirəm ki, azərbaycanlıyam" mövzusunda sərgi-müsabiqə Ulu Öndərin əziz xatirəsinə həsr edilib.

Tədbirin əvvəlində Azərbaycan Dövlət Filarmoniyasının orkestrinin ifasında konsert proqramı təqdim edilib.

Rəssamlıq Akademiyasının müəllim və tələbələrinin, gənc rəssamların, ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən sərgidə akademiyanın 25 tələbəsinin rəsm, heykəltəraşlıq və xalçaçılıq işləri nümayiş etdirilib.

Tədbir iştirakçıları qarşısında çıxış edən Bakı Şəhər İcra Hakimiyyətinin şöbə müdiri Elmin İmanov, Mərkəzi Nəbatat bağının direktoru Əli Cəfərov, Rəssamlıq Akademiyasının prorektoru, Xalq rəssamı Səlhab Məmmədov, akademiyanın tələbəsi Aygün Xanalıyeva sərgi-müsabiqənin əhəmiyyəti, onun gənc rəssamlar arasında maraqla qarşılanması, yeniyetmə və gənclərdə incəsənətin müxtəlif növlərinə olan marağın artmasında böyük rol oynadığını bildiriblər.

Sərgidə nümayiş etdirilən rəsm, heykəltəraşlıq və xalçaçılıq əsərləri Azərbaycan Rəssamlıq Akademiyasının münsiflər heyəti tərəfindən qiymətləndirilib və ilk üç yerin qalibləri müəyyənləşdirilib. Cahan Musayeva birinci yerə, Aydan Qurbanova ikinci yerə və Nərmin Nadirova üçüncü yerə layiq görülüblər.

Sərginin qaliblərinə pul mükafatları və sertifikatlar, digər iştirakçılara həvəsləndirici hədiyyələr təqdim edilib.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# Azərbaycan ərazisindən tranzit keçməklə Ermənistana daha 10 vaqon yük göndərilib

**Azərbaycan ərazisindən tranzit keçməklə Rusiyadan Ermənistana növbəti tədarük həyata keçirilib.**



AZƏRTAC xəbər verir ki, Rusiyadan Ermənistana Azərbaycandan tranzit keçməklə əlavə olaraq 4 vaqondan ibarət, çəkisi 272 ton olan gübrə və 6 vaqondan ibarət, çəkisi 420 ton olan taxıl yola salınıb.

# Məktublar: problemlər, rəylər, təkliflər...



● VƏTƏN

## Tariximizi tanıyaq, irsimizi qoruyaq





**Dövlət başçısı İlham Əliyev tərəfindən 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi dağlar diyarı Lerikdə də razılıqla qarşılanıb. Bununla bağlı keçirilən müxtəlif səpkili tədbirlərdə rayon əhalisi həvəslə iştirak edir.**

Lerik rayon Tarix Diyarşünaslıq Muzeyində təşkil olunan tədbir də məhz "Şəhərsalma və Memarlıq İli" çərçivəsinə daxil idi.

Muzeydə gənclər Azərbaycan Prezidenti İlham Əliyevin Lerikə səfərlərinə aid fotostendlər və müstəqil Azərbaycanın yaradıcısı Ulu Öndər Heydər Əliyevin əsərləri və fotoları, rayonun arxeologiyasına, flora və faunasına, görkəmli şəxsiyyətlərini, alim və yazıçılarını, məişətini, tətbiqi sənət nümunələrini, Qarabağ şəhidlərini və Vətən müharibəsi veteranlarını tanıtdıran eksponatlarla tanış olublar.

Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin təşkilatçılığı sayəsində baş tutan tədbir zamanı gənclərə məlumat verilib ki, eksponatlar arasında eramızdan əvvəl XIV-XII əsrlərə aid tunc xəncərlər, ox ucluqları, amuletlər və s. maddi mədəniyyət nümunələri var. Burada həmçinin Morqan qardaşları, eləcə də Tunc dövrünə aid döyüş paltarları, bəzək əşyaları, əntiq məişət əşyaları və Daş dövrünə aid alətlər də qorunur.

*Zəfər ORUCOĞLU,*
*Lerik rayonu*

● TƏƏSSÜRAT

## Doğma Qarabağ torpağına qovuşmağın qüruru

**Yeni Azərbaycan Partiyası Quba rayon təşkilatının təşəbbüsü ilə Qubada fəaliyyət göstərən idarə, müəssisə və təşkilatların fəalları üçün Qarabağa tur təşkil olunduğunu eşidəndə sevindim. Çünki ziyarətçilərin sırasında mən də vardım.**

Tur çərçivəsində biz Qarabağ torpağını ziyarət etdik. Qarabağ alındıqdan sonra buranı ziyarət etmək bir başqa hiss imiş. Bu hissi sözlə ifadə etmək çətindir, çünki o, 30 illik həsrətin, göz yaşının, ümidin bir anda gerçəkləşməsidir. Uzun illərin həsrətinin bir gün bitəcəyi nağıl kimi gəlirdi. Amma bu, şəhidlərimizin qanı, qazilərimizin şücaəti sayəsində gerçəyə çevrildi.

Buradakı hər bir daş, hər bir məkan tariximizdir, sərvətimizdir. Şuşanın qala divarları, Cıdır düzünün əsrarəngiz mənzərəsi, Ağdam Cümə məscidinin minarələri bizə babalarımızın kim olduğunu pıçıldayırdı. Xankəndinin küçələrində gəzərkən anlayırdıq ki, bu torpaq sadəcə coğrafiya deyil, millətin yaddaşıdır. İllərdir yuxularımızda gördüyümüz Xarıbülbül artıq azaddır, onun ətri doğma torpağın ətrinə qarışıb.

Bu yerlər düşmən tapdağı altında inləyirdi, indi isə Azərbaycan bayrağı altında nəfəs alır. Bir fəal gənc kimi burada olmaqdan qürur duydum. Çünki biz bu günü görmək üçün yaşayan, oxuyan, çalışan nəsilik. Bizə bu qüruru




yaşadan isə Vətən uğrunda canından keçən oğullardır. Şəhid analarının əllərindən öpürük. Onların göz yaşları ilə suvarılan bu torpaq artıq azaddır. Bizim isə borcumuz Qarabağı yenidən qurmaq, çiçəkləndirmək, gələcək nəsillərə əmanət etməkdir.

Bu torpağa ayaq basanda başa düşürsən: Qarabağ sadəcə alınmadı, Qarabağ qayıtdı. O, yenidən bizim nəfəsimiz, səsimiz, ürək döyüntümüz oldu. Qarabağ, sənə qovuşmaq hər bir azərbaycanlının ən böyük xoşbəxtliyidir. Səni qorumaq isə bizim müqəddəs borcumuzdur.

*Abutalib TURABOV,*
*Quba rayon sakini*

● RAZILIQ

## Şəhərimizdə istirahət məkanları artır

**Tərtər ilin bütün fəsillərində gözəldir. Ancaq yazda insanlar daha çox şəhərdə gəzmək, söhbətləşmək istəyirlər.**





Təbii ki, bu zaman münasib məkan axtarırıq. Tərtər bələdiyyəsinin şəhərin abadlaşdırılması və əhalinin asudə vaxtının səmərəli təşkili üçün mərkəzi meydanda və park ərazilərində yeni oturacaqların quraşdırılması hər birimizin ürəyindən xəbər verib.

Həyata keçirilən bu tədbirlər ictimai məkanların daha səliqəli və cəlbedici görünüş almasına, eyni zamanda ətraf mühitin mühafizəsinə xidmət edir. Quraşdırılan oturacaqlar xüsusilə yaşlıların, uşaqlı ailələrin və gənclərin rahat istirahəti üçün yerinə düşür.

Yaradılan şəraitə görə şəhər bələdiyyəsinə minnətdarlığımı bildirir, eyni zamanda hər kəsi ictimai əmlaka qayğı ilə yanaşmağa, təmizliyə riayət etməyə çağırıram.

*Bəhruz İSGƏNDƏROV,*
*şəhid atası*

● MƏMNUNLUQ

## Dövlətimizdən yerdən göyə qədər razıyıq

**İllərdir həsrətlə gözlədiyimiz həyata qovuşmuşuq. Öz evimizdə yaşamaq, doğma torpağımızı əkib-becərmək imkanı əldə etmişik. Bu bahar günlərində özümüzü çox xoşbəxt hiss edir, kəndimizin füsunkar təbiətindən doymuruq.**

Dövlətimiz sağ olsun, ikimərtəbəli evimiz əsaslı təmir edilib. Əlbəttə, biz də öz növbəmizdə göstərilən qayğıya cavab olaraq, eləcə də dolanışığımızı təmin etmək üçün əlimizdən gələni edirik. Yenə də dövlətimizin dəstəyi ilə. Belə ki, kənddə məskunlaşdığımız 3-4 ay ərzində 10 ailə bir yerə yığışıb kooperativ yaratmaq qərarına gəldik. Kənd Təsərrüfatı Nazirliyindən gələn mütəxəssislər tərəfindən təlimlərə cəlb olunduq. Birlikdə əkin sahələrində taxıl, kartof, qarğıdalı və digər kənd təsərrüfatı bitkiləri əkib-becərəcəyik.

Torpağın hər qarışı bizim üçün müqəddəsdir. Uğrunda şəhid qanı axıdılıb. Buna görə Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə, Azərbaycan Ordusuna sonsuz təşəkkürlərimizi bildirir, şəhidlərimizə Allahdan rəhmət diləyir, qazilərimizə, veteranlarımıza cansağlığı arzulayırıq.

Onu da qeyd edim ki, məcburi köçkünlük dövründə ailəmiz Bərdə rayonunda məskunlaşmışdı. Bərdə camaatının humanistliyini, qayğıkeş münasibətini heç zaman unutmuruq.

*Mikayıl AĞAYEV,*
*Ağdərə rayonunun Həsənriz kənd sakini*

● TRİBUNA

## Nümunəvi ailə - sağlam cəmiyyət və möhkəm dövlət deməkdir

**Tərtər Rayon İcra Hakimiyyəti yanında İctimai Şuranın üzvləri ailə münaqişələri zamanı yaranan problemlərin həllində yaxından iştirak edirlər. Bu zaman bizi ən çox incidən və rahatsız edən - valideynlərə və uşaqlara olan münasibətdir. Çünki həm yaşlılar, həm də uşaqlar qayğıya, köməyə daha çox ehtiyac duyurlar.**

Bu sahədə dövlətimiz kifayət qədər iş görsə də, əsas məsuliyyət ailələrin üzərinə düşür. Çünki dövlətimizin qanunları ilə bərabər, bizim ən dəyərli sərvətimiz xalqımızın yazılmamış qanunları, dəyərli adət-ənənələridir. O ənənələr ki, indi onlar yaxşı qorunmur.

Bu yaxınlarda rayon Ağsaqqallar Şurasının sədri Faiq Məmmədovla bir ailədə olduq. Ananın üç oğlu, üç gəlini vardı. Boylu-buxunlu, yaraşıqlı oğlanlar və gözəl gəlinlər. Yəqin ki, üç oğul dünyaya gələndə anaya gözaydınlığı verib, onu bəxtəvər qadın adlandırıblar. Amma gördüyümüz mənzərə bizdə heç də bu təəssüratı yaratmadı. Ana oğlanlarından biri ilə yaşayırdı. Biz həyətə daxil olanda qoca qadın yuduğu paltarları güc-bəla ilə ipə sərirdi. Hiss olunurdu ki, o, oğlu, gəlini və nəvələri ilə bir evdə yaşasa da, onlar üçün yad bir insandır. Bir azdan o biri oğullar və gəlinlər də gəldilər. Söz-söhbət başladı. Ananın övladlarıyla mübahisə etdiyini və bu zaman nələr çəkdiyini görmək ağır idi. Mülk üstündə mübahisələr, hər şeyin ən yaxşısını asan əldə etmək arzusu bəzi insanlarda o qədər güclənib ki, müqəddəs qohumluq bağları qırılır, münasibətlər korlanır və bunun acısını valideynlər çəkirlər.

Rayonumuzun başqa bir kəndində isə gənc qadın iki övladını atıb tanımadığı, sosial şəbəkə vasitəsilə tanış olduğu insana qoşulub qaçıb. İndi paytaxtda yüngül həyat tərzi keçirir. Bu qadın həyatında kəndindən başqa heç yeri görməmişdi. Yetimçiliklə böyüyüb ailə qurmuşdu, övlad sahibi olmuşdu. Çətinliklə dolanırdılar. Odur ki, övladları-



na yaxşı həyat yaşatmaq istəyirdi, əvəzində telefondakı dələduzların toruna düşdü. İndi sosial şəbəkələrdə insan alveri ilə məşğul olan qadınların ikrah doğuran sifətlərinə baxanda düşünürsən ki, bəlkə o bədbəxt yetimlər də dələduzların əməllərinin qurbanı olublar. Bildiyimiz odur ki, haqqında söhbət apardığımız həmin qadın birdəfəlik həyat yoldaşının da, övladlarının da qəlbindən silinib.

Mən o qadına haqq qazandırmıram, ona ana deməyə də dilim gəlmir. Amma dilim gəlir deyim ki, ailələrin dağılmasına, insanların bədbəxtliyinə səbəb olanlara elə cəza verilməlidir ki, belə çirkin işlə məşğul olmağa heç kim risk etməsin.

Azərbaycan qadınının saf, təmiz adını qorumaq üçün bütün cəmiyyət birgə səy göstərməlidir. Amma nə edəsən ki, gecə-gündüz bəzi efirlərdən düşməyən "müğənni"lərin vulqar geyimləri, dəyərlərimizə uyğun gəlməyən serialların nümayişi buna imkan vermir. Elə bunların nəticəsidir ki, cəmiyyətdə ailə dəyərlərinə münasibət dəyişib. İndi valideynlərin də, elə gənc qızların özlərinin də elçi gələnlərə ilk sualı ailənin maddi durumu ilə bağlı olur. Bəzi analar bəri başdan elçilərə bildirirlər ki, "mənim qızım gedib qayınanaqayınataya qulluq etməyəcək, ev işləri görməyəcək". Onsuz da indi evdə işlərin çoxunu məişət texnikaları görür. Ancaq heç bir texnika ailə ocağındakı istiliyi yaratmağa qadir deyil və bu, qadınlarımızın üzərindədir. Belə olmayanda boşanmaların sayı artır, uşaqlar valideynlərin birindən ayrı yaşamaq məcburiyyətində qalırlar. Bu da körpə yaşlarından onlara ağır zərbə olur.

Boşanmaların bir səbəbi də erkən nikahdır. Hazırda bütün cəmiyyətimiz buna qarşı ciddi mübarizə aparır. Qızların vaxtından əvvəl ailə qayğılarını çiyinlərinə götürmələrinin zərəri barədə yüzlərlə canlı nümunə göstərmək olar. Amma nə xeyri, hələ də bəzi valideynlər bundan nəticə çıxarmırlar. Nədir onları buna məcbur edən? Əksər halda yenə də maddiyyat. Düşünürlər ki, imkanlı adamdır, gedib hazır evdə yaşayacaq, əziyyət çəkməyəcək. Belə valideynlər unudurlar ki, həyatda hər şeydən üstün övladının sağlamlığı, onun mənəvi dünyasının rahat olmasıdır. Nikah yaşından tez ailə qurarkən məhz bunlar itirilir.

Hazırda nikaha daxil olan gənclərdən sağlamlıq haqqında arayışın tələb edilməsi, qohumlar arasında nikahın qadağan olunması və hətta bu günlərdə müzakirə edildiyi kimi, narkoloji dispanserdən də arayış istənilməsi ailələrimizin qorunmasına, xəstə uşaqların dünyaya gəlməməsinə xidmət edir.

Azərbaycanda, o cümlədən rayonumuzda yüzlərlə, minlərlə ailə var ki, onlar hər kəsə nümunə ola bilər. Belə ailələrdə böyük-kiçiyin yeri, ər-arvad arasında qarşılıqlı hörmət, valideynlərlə uşaqlar arasında pərdə var. Bu isə təkcə nümunəvi ailə yox, həm də sağlam cəmiyyət və möhkəm dövlət deməkdir.

*Svetlana BAĞIROVA,*
*Tərtər Rayon İcra Hakimiyyəti yanında İctimai Şuranın sədri*

● GİLEY

## Dostluq rəmzi sayılan parka münasibət belə olmamalıdır

**Sumqayıtda insanların istirahət etdikləri yerlərdən biri də Lüdviqshafen parkıdır. Park 1997-ci ildə Sumqayıt-Lüdviqshafen (Almaniya) əlaqələrinin 20 illiyi münasibətilə şəhərin 9-cu mikrorayon ərazisində salınıb. Parkın açılışı iki şəhər arasında dostluq əlaqələrinin möhkəmləndirilməsi münasibətinə xidmət edir.**





Artıq 20 ildir ki, burada insanlar istirahət edir, yaşıllıqlar arasında gəzir, uşaqlar isə özlərinə dost tapırlar. Lakin son illər parka sanki soyuq münasibət yaranıb. Biz həmişə qonaqlarımızı bura gətirər, belə bir parkımızın varlığı ilə fəxr edərdik. Hazırda isə burada gəzinti yolları dağılmaq üzrədir. Bəzi yerlər artıq yararsız vəziyyətə düşüb. Oturacaqların sayı da azalıb və olanların da təmirə ehtiyacı var. Üstəlik, parkın işıqlandırılması zəifdir, fəvvarələrin kənarlarının isə boyası qopub düşüb. Sumqayıt Dövlət Universitetinin yanında yerləşdiyindən bura daim tələbələrlə dolu olardı. Hazırda insanların çoxu yaxşı halda parkda yerləşən çayxana və kafelərə üz tutur.

Bir azdan istilər düşəcək və istirahət parkına üz tutmaq istəyənlərin sayı artacaq. Sumqayıtlılar bu parka iki xalqın dostluq rəmzi kimi baxır. Gəlin, heç olmasa, bunun xatirinə parka münasibəti dəyişək.

*Mehparə HACIƏHMƏDOVA,*
*Sumqayıt şəhər sakini*

● İSTEDAD SORAĞINDA

## Nurayın musiqi dünyası

**Nuray Məmmədova musiqiyə hədsiz sevgi ilə bağlanan, zəhmət və istedadın vəhdətində formalaşan, ümidverici həyat yolu olan yeniyetmə ifaçılarımızdandır. Hazırda 14 yaşlı Nuray hələ kiçik yaşlarından incəsənətə, xüsusən musiqiyə dərin maraq göstərib.**

2018-ci ildə Sumqayıt şəhər 23 nömrəli tam orta məktəbin birinci sinfinə qədəm qoyan Nurayın həyatında bu dövr həm də yaradıcılıq axtarışlarının başlanğıcı kimi yadda qalıb. O, 2018-2020-ci illər ərzində milli rəqslə məşğul olaraq səhnə mədəniyyəti və ritm duyumunu inkişaf etdirib. Həmin illər məktəbdaxili müsabiqələrdə qazandığı uğurlar onun səhnəyə olan təbii uyğunluğunu və istedadını üzə çıxarıb. Lakin 2020-ci ildə dünyanı bürüyən pandemiya səbəbindən bu fəaliyyətini müvəqqəti dayandırmalı olub.

Bununla belə, Nurayın incəsənətə olan bağlılığı daha fərqli və dərin bir istiqamətdə özünü göstərməyə başlayıb. 2019-cu ildə Sumqayıt Uşaq İncəsənət Məktəbinə skripka ixtisası üzrə qəbul olunması onun həyatında dönüş nöqtəsinə çevrilib. Klassik musiqinin sehrli dünyası ilə tanışlıq qısa müddətdə böyük bir sevgiyə çevrilib. Bu sevgi isə öz növbəsində onu daha ciddi, məqsədyönlü və zəhmətkeş bir ifaçı kimi formalaşdırıb.

Nuray musiqi məktəbinin ən fəal şagirdlərindən biri olub. O, həm məktəb, həm də şəhər səviyyəli tədbirlərdə mütəmadi çıxış edərək dinləyicilərin rəğbətini qazanıb. İstedadı və əzmkarlığı ona ölkədaxili və beynəlxalq müsabi-



qələrdə uğur qazandırıb, onun adını daha geniş auditoriyaya tanıdıb. 2022-ci ildə Qazaxıstanda keçirilən beynəlxalq musiqi müsabiqəsində Qran-pri diplomuna layiq görülməsi Nurayın sənət yolunda mühüm mərhələ olub. Bu uğur onun beynəlxalq səviyyədə bir ifaçı olduğunu sübut edib. 2023-cü ildə Londonda keçirilən beynəlxalq müsabiqədə qazandığı birincilik isə onun sənət zirvələrinə doğru inamla irəlilədiyini bir daha təsdiqləyib.

2024-cü il də Nuray üçün uğurlarla zəngin olub. Sumqayıtın 75 illik yubileyinə həsr olunmuş müsabiqədə birinci yerə layiq görülməsi onun doğma şəhərində qazandığı dəyərli nailiyyətlərdən biri kimi yadda qalıb. Elə həmin il keçirilən "Zəfər" respublika yaradıcılıq festivalında ikinci yerə sahib olması isə onun çoxşaxəli yaradıcılıq potensialını nümayiş etdirib. 2025-ci ildə Nuray böyük miqyaslı respublika uşaq incəsənət festivalında ikinci yerə layiq görülərək uğurlar silsiləsini davam etdirib. Həmin il "Barokko ustadları - 340" adlı birinci respublika müsabiqəsinin laureatı olması onun klassik musiqi, xüsusilə barokko dövrü əsərlərinə olan marağının və bu sahədəki peşəkarlığının göstəricisinə çevrilib.

Nuray Məmmədova bu gün də musiqi təhsilini böyük həvəs və məsuliyyətlə davam etdirir. Onun ən böyük arzusu gələcəkdə nümunəvi bir ifaçı kimi formalaşmaq və Azərbaycanı beynəlxalq səhnələrdə layiqincə təmsil etməkdir. Bu məqsədə çatmaq üçün, o, yorulmadan çalışır.

*İlhamə MƏMMƏDOVA*

"Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən mühasibat uçotunun aparılması Qaydaları"na 2 nömrəli əlavə.

**Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat**
**(xərclərin xarakteri üzrə)**
**31 dekabr 2025 -ci il tarixə**

VÖEN 2600352121

Mühasibat uçotu subyektinin adı LƏNKƏRAN DƏMİR-BETON ZAVODU ASC

Sahə (fəaliyyət növü) TİKİNTİDƏ İSTİFADƏ ETMƏK ÜÇÜN BETONDAN MƏMULATLARIN İSTEHSALI

Mülkiyyət növü XÜSUSİ

Ünvan LƏNKƏRAN RAYONU, LƏNKƏRAN ŞƏHƏRİ, T.İSMAYILOV, ev.247

Elektron poçt ünvanı ________________

Ölçü vahidi: manat

| Bölmə (maddə) və hesab №-si | Göstəricilərin adı | Uçot siyasəti və izahlı qeydləri | 2025 |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| 60 | Əsas əməliyyat gəlirləri | | 3 600 |
| 70 | Satışın maya dəyəri üzrə xərclər | | |
| | Ümumi mənfəət (zərər) | | **3 600** |
| 61 və 73 | Sair əməliyyat gəlirləri | | |
| 71 | Kommersiya xərcləri | | 53 105 |
| 72 | İnzibati xərclər | | |
| 73 və 61 | Sair əməliyyat xərcləri (TV) | | 3 294 |
| **O cümlədən** | Xaricdən maliyyələşdirilən elmi-tədqiqat işləri üzrə xərclər | | |
| | Xaricdən maliyyələşdirilən elmi-tədqiqat işləri üzrə xərclər istisna olmaqla sair əməliyyat xərcləri | | |
| 62 və 74 | Fəaliyyətin dayandırılmasından yaranan mənfəətlər (zərərlər) | | |
| | Əməliyyat mənfəəti (zərəri) | | |
| 63 və 75 | Maliyyə mənfəəti (zərəri) | | |
| 64 və 76 | Fövqəladə mənfəət (zərər) | | |
| 81 | Asılı və birgə müəssisələrin mənfəətlərində (zərərlərində) pay | | |
| | Vergiqoymadan əvvəl mənfəət (zərər) | | (52 798) |
| 90 | Mənfəət vergisi | | |
| 341 | Hesabat dövründə xalis mənfəət (zərər) | | (52 798) |
| | O cümlədən | | |
| | qeyri-nəzarət payları üzrə xalis mənfəət (zərər) | | |
| | əsas cəmiyyətin sahiblərinin mənfəəti (zərəri) | | (52 798) |
| | Digər məcmu gəlir | | |
| | Məcmu gəlir (xalis mənfəətin (zərərin) və digər məcmu gəlirin cəmi) | | |
| | O cümlədən | | |
| | qeyri-nəzarət payları üzrə xalis mənfəət (zərər) | | |
| | əsas cəmiyyətin sahiblərinin mənfəəti (zərəri) | | |

**Xərclərin xüsusiyyətləri üzrə təsnifat əsasında əməliyyat xərcləri haqqında**
**MƏLUMAT**

| Bölmənin/maddənin №-si | | Uçot siyasəti və izahlı qeydləri n №-si | Hesabat dövrü üzrə |
|---|---|---|---|
| | Hazır məhsul və bitməmiş istehsal ehtiyatlarındakı artımlar (azalmalar) | | |
| | Təşkilat tərəfindən yerinə yetirilmiş və kapitallaşdırılmış işlər | | |
| | İstifadə edilmiş material ehtiyatları | | |
| | İşçi heyəti üzrə xərclər | | 44 502 |
| | Amortizasiya xərclər | | |
| | Digər əməliyyat xərclər | | 8 603 |
| | Faiz xərcləri | | |
| | Cəmi əməliyyat xərclər | | 53 105 |

Rəhbər

Baş mühasib

"15" 04 2026

# Azərbaycan və Türkiyə həmkarlar ittifaqları arasında əməkdaşlıq genişlənir

**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında (AHİK) Türkiyənin Kamu-Sen Həmkarlar İttifaqları Konfederasiyasının nümayəndə heyəti ilə görüş keçirilib.**



Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədov iki ölkə arasında möhkəm tarixi köklərə və ortaq dəyərlərə əsaslanan münasibətlərin strateji müttəfiqlik səviyyəsinə yüksəldiyini qeyd edib. O bildirib ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev və Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın şəxsi dostluğu və birgə səyləri bu əlaqələrin daha da möhkəmlənməsini və inkişafını şərtləndirən əsas amillərdəndir.

Konfederasiya sədri iki ölkənin həmkarlar ittifaqları arasında əlaqələrin dinamik inkişaf etdiyini deyib, qarşılıqlı səfərlərin, birgə tədbirlərin və həyata keçirilən təcrübə mübadiləsinin münasibətlərin daha da möhkəmlənməsinə önəmli töhfə verdiyini vurğulayıb.

Görüşdə qonaqlara əmək hüquqlarının müdafiəsi, layiqli iş şəraitinin təmin olunması, üzvlərin sağlamlığının qorunması, eləcə də onların müalicə və istirahətinin səmərəli təşkili istiqamətində görülən işlər və həyata keçirilən layihələr barədə məlumat verilib.

Türkiyənin Kamu-Sen Həmkarlar İttifaqları Konfederasiyasının sədri Öndər Kahveci rəhbərlik etdiyi qurumun dövlət qulluqçularının əmək hüquqlarının müdafiəsi və iş şəraitinin yaxşılaşdırılması istiqamətində gördüyü işlərdən danışıb. Öndər Kahveci birgə layihələrin həyata keçirilməsinin, beynəlxalq həmkarlar ittifaqları platformalarında koordinasiyalı fəaliyyətin əhəmiyyətini qeyd edib.

Tərəflər qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıb, əməkdaşlığın genişləndirilməsi imkanlarını müzakirə ediblər.

*Nərminə ƏSGƏROVA, "Azərbaycan"*

# ABŞ İrana qarşı əməliyyatının başa çatdığını elan edib

## Tramp Tehranla danışıqlarda "əhəmiyyətli irəliləyiş" olduğunu bildirib

**ABŞ Pezidenti İranla razılığa gəlməkdə "əhəmiyyətli irəliləyiş" səbəbindən Hörmüz boğazından keçən gəmilərin müşayiətinin dayandırıldığını elan edib. Bu barədə "Euronews" telekanalı xəbər verib.**



Məlumata əsasən, Donald Tramp Hörmüz boğazında ABŞ tərəfindən həyata keçirilən əməliyyatın qısa müddətə son qoyacağını açıqlayıb. O, bir neçə gün əvvəl başlayan "Azadlıq layihəsi"nin İranla razılığa gəlməkdə "əhəmiyyətli irəliləyiş" səbəbindən qarşılıqlı razılaşma ilə dayandırılacağını bildirib. Sosial media paylaşımında Tramp bu qərarı ABŞ və İran arasında vasitəçi kimi çıxış edən Pakistanın xahişi ilə verdiyini vurğulayıb. Bununla belə, o, əlavə edib ki, ABŞ-nin İran limanlarına qarşı blokadası qüvvədə qalacaq. Xatırladaq ki, daha əvvəl ABŞ Dövlət katibi Marko Rubio əməliyyatın "məqsədlərinə çatdıqdan" sonra İranda ABŞ-İsrail hücumunun bitdiyini elan etmişdi.

Bu arada İranın xarici işlər naziri Abbas Əraqçi çərşənbə günü Pekində çinli həmkarı Vanq Yi ilə görüşüb. Bu, müharibənin başlanğıcından bəri iranlı nazirin Çinə ilk səfəridir və Tehran bu ölkə ilə sıx iqtisadi və siyasi əlaqələr saxlayır.

Ağ Ev rəsmiləri Çini, Trampın ÇXR Sədri Si Cinpinlə Pekində keçiriləcək sammitdən əvvəl Hörmüz boğazını yenidən açmağa inandırmaq üçün İrana təsirindən istifadə etməyə çağırıb. ABŞ-nin yüksəkvəzifəli diplomatı bildirib ki, fevralın 28-də ABŞ və İsrailin başladığı müharibə zamanı İranın boğazı faktiki olaraq bağlaması Pekinə Vaşinqtondan çox zərər vurub. Pekinin ixrac yönümlü iqtisadiyyatı boğazdan keçən yüklərdən asılıdır. Baş Gömrük Administrasiyasının məlumatına görə, Çin həmçinin xam neftinin təxminən yarısını və mayeləşdirilmiş təbii qazının təxminən üçdəbirini Yaxın Şərqdən idxal edir.

Ümumiyyətlə, boğazın faktiki bağlanması bütövlükdə Asiyaya dərin təsir göstərir və Çin hökumətinin Pakistanla məsləhətləşmə səylərinə təsir edən və ikihəftəlik atəşkəsi asanlaşdıran məhz bu amil olub. D.Tramp da bildirib ki, Çinin İranı ötən ay əldə edilən kövrək atəşkəsə razılaşmağa təşviq etməsində rol oynadığına inanır. Bundan əlavə, Çinin pərdəarxası səyləri ilə tanış olan üç diplomat da təsdiqləyib ki, İranın ən böyük neft alıcısı olan Pekin danışıqların iflasa uğraması ərəfəsində Tehranı danışıqlar masasına geri qaytarmaq üçün öz təsirindən istifadə edib. ABŞ administrasiyası indi də inanır ki, Çin beynəlxalq gəmiçilik üçün vacib su yolunu yenidən açmaq üçün hələ çox iş görə bilər.

# Rumıniyada hökumət böhranı

## Baş nazir etimadsızlıq votumundan sonra istefa verib

**Rumıniya parlamentinin üzvləri hakim koalisiya partiyalarından birinin sağçı müxalifətə qoşulmasından sonra liberal Baş nazir İliye Boloyana qarşı etimadsızlıq votumunun lehinə səs veriblər.**

Ölkənin ən böyük siyasi təşkilatı olan Sosial Demokrat Partiyası aprel ayında Boloyanın dördpartiyalı koalisiyasından ayrılıb. Bundan sonra etimadsızlıq votumuna 281 səs verilib ki, bu da göründüyü kimi, minimum 233 səs həddini xeyli aşıb.

İndi Prezident Nikusor Danın baş nazir kreslosunda başqa bir siyasətçi ilə koalisiya qurmağa çalışacağı gözlənilir. O, Ukrayna ilə sərhədi bölüşən, Aİ və NATO üzvü olan Rumıniyanın Avropayönlü kursunu davam etdirəcəyini artıq açıq şəkildə bildirib.

Rumıniyada növbəti parlament seçkiləri 2028-ci ilə qədər planlaşdırılmır və növbədənkənar seçkilərin keçirilməsi ehtimalı azdır. Lakin maliyyə bazarları siyasi qarışıqlığın Aİ-də ən böyük büdcə kəsiri olan ölkənin borcunun azaldılması öhdəliyini yerinə yetirməsinə mane ola biləcəyindən narahatdır.

Bolojanın koalisiyası 10 ay əvvəl parlamentdəki yerlərin üçdəbirini qazanan ifrat sağçı "Rumınların Birləşməsi Alyansı"nın (AUR) yüksəlişini cilovlamaq cəhdləri fonunda hakimiyyətə gəlmişdi. Nikuşor Dan isə əvvəlki ildə ifrat sağçıların qələbəsi seçki saxtakarlığı və Rusiyanın müdaxiləsi iddiaları səbəbindən ləğv edildikdən sonra gərgin prezident seçkilərində qələbə qazanmışdır. Hakimiyyətə gəldikdən sonra bu koalisiya büdcə kəsirini azaltmağa başlamış, lakin qənaət tədbirləri solçu seçicilərə təsir etdikcə sosial demokratlarla fikir ayrılıqları güclənmişdir. Buna baxmayaraq, sosial demokratlar fərqli bir baş nazirin rəhbərliyi altında Avropayönlü koalisiyaya yenidən qoşulmağa hazır olduqlarını bildirmişlər.



"Siyasi müzakirələr çətin olacaq, amma prezident kimi mənim və siyasi partiyaların vəzifəsi Rumıniyanı doğru yolda aparmaqdır", - deyə Prezident Dan jurnalistlərə bildirib. Prezidentin indi Bolojanın partiyasının başqa bir üzvünü və ya bəlkə də bir texnokratı baş nazir təyin etməsi gözlənilir.

Yeni hökumət təsdiqlənənə qədər İliye Bolojan baş nazir vəzifəsinin icrasını davam edəcək.

*Rizvan CƏFƏROV, "Azərbaycan"*

## B İ L D İ R İ Ş

**"ARESTP-BY-CW-01 - Biləcəri-Yalama dəmir yolu hissəsinin enerji təchizatı, işarəvermə və rabitə sistemlərinin yenidən qurulması üçün layihələndirmə və tikinti-quraşdıma işləri" üzrə tenderin təkliflərin son təqdimat tarixinin uzadılması.**

"Azərbaycan" qəzetinin 18 aprel 2026-cı il tarixli nömrəsində "Azərbaycan Dəmir Yolları" QSC tərəfindən dərc edilmiş "ARESTP-BY-CW-01 - Biləcəri-Yalama dəmir yolu hissəsinin enerji təchizatı, işarəvermə və rabitə sistemlərinin yenidən qurulması üçün layihələndirmə və tikinti-quraşdıma işləri" üzrə tender təkliflərinin son təqdimat tarixi 2 iyul 2026-cı il, yerli vaxtla saat 15:00-dək uzadılmışdır.

***"Azərbaycan Dəmir Yolları QSC" Tender komissiyası***

## N O T I F I C A T I O N

**Extension of Bid Submission deadline for "ARESTP-BY-CW-01 – Design and Build of Electrification, Signaling and Telecommunication Works of Railway Section Bilajari-Yalama"**

The deadline of the Bidding for "ARESTP-BY-CW-01 – Design and Build of Electrification, Signaling and Telecommunication Works of Railway Section Bilajari-Yalama", published on Azerbaijan newspaper on April 18, 2026, by the "Azerbaijan Railways" CJSC is extended to July 02, 2026, 15:00 Baku local time.

***"Azerbaijan Railways" CJSC Tender committee***

# Bakıda dəyişkən buludlu, rayonlarda isə yağıntılı olacaq

**Azərbaycanda bu günə gözlənilən hava şəraiti açıqlanıb.**



Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Şimal-qərb küləyi gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək.

Havanın temperaturu gecə 11-14, gündüz 18-23 dərəcə isti olacaq. Atmosfer təzyiqi 763 millimetr civə sütunu, nisbi rütubət isə 65-75 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Ayrı-ayrı yerlərdə arabir duman müşahidə ediləcək. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 10-14, gündüz 18-23, dağlarda gecə 2-7, gündüz 7-12, bəzi yerlərdə 16 dərəcə isti olacaq.

# Elektromobil və hibrid avtomobil idxalı kəskin azalıb

2026-cı ilin birinci rübündə Azərbaycanda 7 milyon 898,09 min dollar dəyərində 299 ədəd elektromobil idxalı qeydə alınıb. Bu da 2025-ci ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 7 milyon 659,53 min dollar (49,2 faiz azalma) və 129 ədəd (30,1 faiz azalma) azalma deməkdir. AZƏRTAC xəbər verir ki, həmin dövrdə ölkəyə 31 milyon 538,89 min dollarlıq 1396 ədəd hibrid avtomobil idxal olunub. Bu da 2025-ci ilin birinci rübü ilə müqayisədə müvafiq olaraq 47 milyon 727,92 min dollar (60,2 faiz azalma) və 2752 ədəd (33,7 faiz azalma) azdır.

**Bakı şəhəri 242 saylı tam orta məktəbi 2011-ci ildə bitirmiş Nihad Zahir oğlu Məmmədova verilmiş A014395 nömrəli tam orta təhsil haqqında attestat və Azərbaycan Dövlət Neft Akademiyası tərəfindən verilmiş A056237 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.**

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Aviasiya Akademiyasının rektoru, akademik Arif Mir Cəlal oğlu Paşayev və akademiyanın kollektivi "Silk Way Holding" MMC-nin prezidenti Zaur Axundova anası

**FƏRİDƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir, ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə və Milli Məclisin deputatı Cavanşir Paşazadə Əhəd Abıyevə qardaşı

**QADİR ABIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi konfederasiyanın sədr müavini Musa Mirzəyevə əzizi

**SƏİDƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj **3773**
Sifariş **566**

Qiyməti 60 qəpik